# MƏİŞƏT ZORAKILIĞINDAN ZƏRƏR ÇƏKMİŞ ŞƏXSLƏRİN MƏHKƏMƏYƏ ÇIXIŞ İMKANLARI: MÖVCUD VƏZİYYƏT VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Azərbaycan Respublikası Prezidentinin 2307 nömrəli,
2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş
"Azərbaycan Respublikasında məişət zorakılığı ilə
mübarizəyə dair 2020–2023-cü illər üçün"
Milli Fəaliyyət Planının 12.7.1-ci bəndinə əsasən hazırlanmışdır.

BAKI - 2021

# Mündəricat

**İxtisarların siyahısı** . . . . . 3

**Qısa icmal** . . . . . 4

**Giriş** . . . . . 5

**I. Məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə çıxış imkanları ilə bağlı əsas prinsip və standartlar**

1.1. Beynəlxalq prinsip və standartlar . . . . . 7
1.2. Milli qanunvericilik və siyasət çərçivələri . . . . . 13

**II. Məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə mövcud çıxış imkanları: hüquqi, institusional, sosial-iqtisadi və mədəni maneələr**

2.1. Cinayət və inzibati qanunvericilik . . . . . 16
2.2. Ailə qaninvericiliyi . . . . . 24
2.3. Qanunvericiliyin və məhkəmə qərarlarının icrası praktikası . . . . . 27
2.4. Ədalət mühakiməsinə çıxışda sosial-iqtisadi və mədəni maneələr . . . . . 31
2.5. Ədalət mühakiməsinə çıxışda institusional problemlər . . . . . 33

**III. Məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə çıxış imkanlarının təkmilləşdirilməsi istiqamətləri**

3.1. Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətləri . . . . . 38
3.2. Hüquq tətbiqetmə praktikasının təkmilləşdirilməsi istiqamətləri . . . . . 41
3.3. Milli hüquq müdafiə vasitələrinin təkmilləşdirilməsi istiqamətləri . . . . . 42
3.4. Məlumatlılıq səviyyəsinin artırılması . . . . . 43

**Əlavələr** . . . . . 44

**İstinadlar** . . . . . 63

# İxtisarların siyahısı

| | |
|---|---|
| **BMT** | – Birləşmiş Millətlər Təşkilatı |
| **Aİ** | – Avropa İttifaqı |
| **AŞ** | – Avropa Şurası |
| **AŞPA** | – Avropa Şurası Parlament Assambleyası |
| **AQUPDK** | – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| **CEDAW** | – Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiya |
| **BMTİP** | – BMT İnkişaf Proqramı |
| **EIGE** | – Avropa Gender Bərabərliyi İnstitutu |
| **UN Women** | – BMT-nin Qadınlar üzrə Agentliyi |
| **ÜST** | – Ümumdünya Səhiyyə Təşkilatı |
| **DSK** | – Dövlət Statistika Komitəsi |
| **AIHK** | – Avropa İnsan Hüquqları Konvensiyası |
| **AİHM** | – Avropa İnan Hüquqları Məhkəməsi |
| **MFP** | – Milli Fəaliyyət Planı |
| **CM** | – Cinayət Məcəlləsi |
| **CPM** | – Cinayət Prosessual Məcəlləsi |
| **MPM** | – Mülki Prosessual Məcəlləsi |
| **İXM** | – İnzibati Xətalar Məcəlləsi |

# Qısa icmal

Bu araşdırmada əsas məqsəd məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəmələrə çıxış imkanlarını qiymətləndirmək, onların ədalət mühakiməsinə səmərəli çıxış imkanlarını çətinləşdirən maneələri müəyyənləşdirməkdir.

Araşdırma beynəlxalq və milli qanunvericiliyin təhlilinin, Avropa İnsan Hüquqları Məhkəməsinin məişət zorakılığı ilə bağlı işlər üzrə presedentlərinin, gender məsələləri və qadınların ədalət mühakiməsinə əlçatanlığı ilə bağlı bir sıra araşdırmaların, vəkillər, hüquq müdafiəçiləri və mövzu üzrə ixtisaslaşmış QHT təmsilçiləri ilə aparılmış dərinləşmiş müsahibələrin nəticələrinə, dövlət orqanları, vəkillər kollegiyası tərəfindən təqdim edilmiş məlumatlara və Dövlət Statistika Komitəsinin məlumatlarına əsaslanır.

Sənəddə məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə çıxış imkanlarının yaxşılaşdırılması və mövcud vəziyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər verilib.

# Giriş

Gender bərabərsizliyinin nəticəsi olaraq ortaya çıxan qadınlara qarşı zorakılıq və məişət zorakılığı insan hüquq və azadlıqlarının ciddi pozuntularından biri hesab edilir. Zorakılığı istisna edən gender bərabərliyinə nail olmaq insan hüquqlarının qorunması, qanunun aliliyinin təmin edilməsi, eləcə də demokratiyanın təşəkkülü baxımından mühüm əhəmiyyət kəsb edir. Bu zərurəti nəzərə alan beynəlxalq təşkilatlar tərəfindən gender bərabərliyinin təmin edilməsi, qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması və zorakılığın qarşısının alınması məqsədilə bir sıra mühüm sənədlər qəbul edilmişdir. Bunların sırasında BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyası (CEDAW)[1], Pekin Fəaliyyət Platforması[2], BMT-nin 2030-cu il üçün "Dayanıqlı İnkişaf Gündəliyi"[3], Avropa Şurasının "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında" Konvensiyası (İstanbul Konvensiyası),[4] "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyası[5], "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyası (Lanzarot Konvensiyası)[6] mühüm əhəmiyyət kəsb edir.

Əksər dünya ölkələrində olduğu kimi, məişət zorakılığı problemi Azərbaycan üçün də aktual olaraq qalmaqdadır. Son dövrlər məişət zorakılığı hallarının artması və daha ağır nəticələrə səbəb olması artıq dövlət qurumlarının da ciddi narahatlığına səbəb olmuşdur. Azərbaycan Respublikasının Baş Prokurorluğunun qadınlara qarşı zorakılıqla bağlı maarifləndirici videomüraciəti də bu narahatlıqdan doğur. Videomüraciətdə deyilir: "Qadınlara qarşı psixi və fiziki zorakılıq sağlam cəmiyyət üçün ciddi təhdid olaraq qalır. Təəssüflər olsun ki, təkcə 2021-ci ilin birinci yarımili ərzində baş vermiş qəsdən adamöldürmə cinayətləri nəticəsində 33 qadın zərər çəkib. Qadınlara qarşı zorakılıqla mübarizədə ən böyük maneə susmaqdır. Susaraq cinayətə ortaq olma! Qadına qarşı zorakılıq halları ilə üzləşdikdə dərhal Baş Prokurorluğun 961 - Çağrı Mərkəzinə müraciət et!".[7] Şübhəsiz ki, belə bir müraciətin yayılması müsbət haldır və məişət zorakılığı ilə bağlı mübarizədə hüquq mühafizə orqanlarının daha səmərəli fəaliyyət göstərəcəyinə, zorakılıq qurbanlarının məhkəməyə çıxış imkanlarının genişlənəcəyinə ümidləri artırır. Təsadüfi deyil ki, bu müraciətə ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən dərhal münasibət bildirilib və məişət zorakılığının aradan qaldırılmasının vacibliyinin vurğulanması alqışlanıb.[8]

Azərbaycan İstanbul Konvensiyası istisna olmaqla, gender bərabərliyinin təmin edilməsi, qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması və zorakılığın qarşısının alınması məqsədilə qəbul edilmiş digər konvensiyaların iştirakçısıdır və həmin konvensiyalarda nəzərdə tutulmuş prinsip və standartların milli qanunvericilikdə öz əksini tapmasına yönəlik bir sıra addımlar atıb. Bunların sırasında "Gender (kişi və qadınların) bərabərliynin təminatları haqqında" 10 oktyabr 2006-cı il tarixli qanunun[9], "Məişət zorakılığının qarşısının alınması haqqında" 22 iyun 2010-cu il tarixli qanunun[10], "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair

---

[1] OHCHR | Convention on the Elimination of All Forms of Discrimination against Women

[2] BDPfA E.pdf (un.org)

[3] THE 17 GOALS | Sustainable Development (un.org)

[4] Home (coe.int)

[5] CETS 197 - Council of Europe Convention on Action against Trafficking in Human Beings (coe.int)

[6] Lanzarote Convention (coe.int)

[7] Baş Prokurorluq qadınlara qarşı zorakılıqla bağlı videomüraciət yayıb VİDEO - AZƏRTAC – Azərbaycan Dövlət İnformasiya Agentliyi (azertag.az)

[8] ABŞ Azərbaycanın məişət zorakılığı ilə bağlı mövqeyini alqışlayıb - AZƏRTAC – Azərbaycan Dövlət İnformasiya Agentliyi (azertag.az)

[9] http://e-qanun.az/framework/12424

[10] http://e-qanun.az/framework/20131

2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı”nın[11] qəbul edilməsi xüsusi qeyd edilə bilər.

Beynəlxalq sənədlərdə və milli qanunvericilik aktlarında öz əksini tapmış insan hüquq və azadlıqlarının həyata keçirilməsinə, gender bərabərliyinin təmin edilməsinə ədalət mühakiməsinə çıxış olmadan zəmanət vermək mümkün deyil, çünki ədalət mühakiməsinə səmərəli çıxış insan hüquqlarının universal müdafiəsi sitemində təsbit edilmiş əsas hüquqlardan biridir. Təsadüfi deyil ki, qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi Avropa Şurasının 2018-2023-cü illər üçün gender bərabərliyi strategiyasının altı prioritet istiqamətindən biridir.

Məişət zorakılığının qurbanları üçün ədalət mühakiməsinin təmin edilməsi onların üzləşdikləri konkret baryerlərin aradan qaldırılmasını tələb edir. Hüquqi və institusional səviyyədə bunlara diskriminasion və ya gender özəlliklərini nəzərə almayan hüquqi baza, səmərəsiz və mürəkkəb prosessual normalar (hüquq sistemində gender aspektlərini nəzərə alan normaların olmaması), hüquq peşəsi üzrə mütəxəssislər arasında qadınların az təmsil olunması, ədliyyə sistemi işçiləri arasında gender stereotiplərinin və ön mühakimənin geniş yer alması kimi amilləri aid etmək olar. Sosial-iqtisadi və mədəni səviyyədə isə bu amillərə hüquqlar və prosessual normalar, həmçinin hüquqi yardım alma üsulları barədə məlumatsızlıq, maliyyə resurslarının olmaması (o cümlədən vəkilə ödəniş, dövlət rüsumunu, nəqliyyat xərclərini ödəmək üçün vəsaitin olmaması), ailədə öhdəliklərin qeyri-bərabər bölgüsü, gender stereotipləri və formalaşmış mədəni münasibətlər sistemi kimi amillər daxildir.[12] Bu baryerlər zorakılığa məruz qalmış şəxslər üçün ədalətin təmin edilməsini çətinləşdirməklə yanaşı, zorakılıq qurbanlarının ədalət mühakiməsi sisteminə inamının azalmasına gətirib çıxarır.

Bu araşdırmada əsas məqsəd məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəmələrə çıxış imkanlarını qiymətləndirmək, onların ədalət mühakiməsinə səmərəli çıxış imkanlarını çətinləşdirən maneələri müəyyənləşdirmək və vəziyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər verməkdir.

Araşdırma zamanı həm beynəlxalq, həm də milli qanunvericiliyin təhlili aparılıb. Təhlil zamanı milli qanunvericiliyin müddəalarının beynəlxalq prinsip və standartlara uyğunluğu konteksti əsas götürülüb.

Araşdırma zamanı Avropa İnsan Hüquqları Məhkəməsinin məişət zorakılığı ilə bağlı işlər üzrə presedentləri də nəzərdən keçirilib və uyğun xarici təcrübəyə istinad olunub.

İndiyədək gender məsələləri və qadınların ədalət mühakiməsinə əlçatanlığı ilə bağlı bir sıra araşdırmaların aparıldığı və sənədlərin hazırlandığı nəzərə alınıb və həmin sənədlərə istinad olunub.

Tədqiqat mövzusu üçün vacib olan suallar ətrafında dövlət orqanlarının, polis, prokurorluq, orqanlarının işçiləri, hakimlər, vəkillər  və QHT mütəxxəssisləri ilə dərinləşmiş müsahibələr aparılıb.

---

[11] https://static.president.az/media/W1siZiIsIjIwMjAvMTEvMjcvNmM3YmI0ajUzMF9NX0xMX0ZfQUxfWVlfVF9QTEFOSS5wZGYiXV0?sha=5bfc481fe85dbbe7

[12] Council of Europe Gender Equality Commission. 2013. Feasibility Study: Equal Access to Justice for Women.

# I. Məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə çıxış imkanları ilə bağlı əsas prinsip və standartlar

## 1.1. Beynəlxalq prinsip və standartlar

Bərabərlik beynəlxalq hüququn əsas dəyərini təşkil edir və bu, insan hüquqlarına dair bütün sazişlərin cinsi əlamət və ya gender əsasında ayrı-seçkiliyi qadağan etməsini şərtləndirir. Ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi isə gender bərabərliyi strategiyalarının əsas prioritet istiqamətlərindən biridir.

Beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş konvensiyalarda, tövsiyələrdə, strategiyalarda və s. sənədlərdə məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə çıxışı ilə bağlı əsas prinsip və standartlar nəzərdə tutulub. Onların bir qismi həmin sənədləri ratifikasiya etmiş dövlətlər üçün öhdəlik xarakteri daşısa da, digər qismi tövsiyə xarakterlidir. BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitəsi ədalət mühakiməsinə çıxış imkanları üçün bir-biri ilə bağlı altı məsələni qeyd etmişdir ki, bunlar da gender tələblərinə uyğun ədalət mühakiməsi sisteminin əsasları hesab olunur.[13] Bunlara aşağıdakılar daxildir: məhkəmə qaydasında müdafiə imkanı; mümkünlük (müvafiq məhkəmə sisteminin mövcudluğu); çıxış imkanı (əlçatanlıq); hesbatlılıq və zərər çəkmiş şəxslər üçün hüquqi müdafiə vasitələri.[14]

**Birləşmiş Millətlər Təşkilatı**

**Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə**

**Qadınların ədliyyəyə çıxışı barədə 33 saylı ümumi tövsiyə**

I. Qadınların ədliyyəyə çıxışı ilə bağlı ümumi məsələ və tövsiyələr

**A. Mühakimə olunma qabiliyyəti, mümkünlük, müyəssərlik, münasib keyfiyyət, hüquqi vasitələrin təmin edilməsi və məhkəmə sistemlərinincavabdehliyi**

1. Komitə müşahidə etmişdir ki, məhkəmələrin və kvazi məhkəmə orqanlarının böyük şəhərlərdə toplanması, onların kənd ərazilərində və ucqar bölgələrdə olmaması, onlara çıxış imkanı qazanmaq üçün vaxt və pula ehtiyacın olması, məhkəmə prosedurlarının mürəkkəbliyi, əlilliyi olan qadınlar üçün fiziki əngəllərin olması, genderlə bağlı ixtisaslı və yüksək keyfiyyətli hüquq məsləhətxanasına çıxış imkanının olmaması, həmçinin məhkəmə sistemlərinin keyfiyyəti ilə bağlı tez-tez qeyd olunan çatışmazlıqların (məsələn, təlim keçməmiş şəxslər tərəfindən verilən, genderin nəzərə alınmadığı hökmvə ya qərarlar, məhkəmə prosedurlarının gecikməsi və həddən artıq uzunçəkməsi, korrupsiya) hər biri qadınların ədliyyəyə çıxış imkanı əldə etməsinin qarşısını alır.
2. Buna görə də altı qarşılıqlı əlaqəli və vacib tərkib hissəsi – mühakimə olunma qabiliyyəti, mümkünlük, müyəssərlik, münasib keyfiyyət, hüquqi vasitələrin təmin edilməsi və məhkəmə sistemlərinin cavabdehliyi ədliyyəyə çıxış imkanını əldə etmək üçün əhəmiyyətlidir. Geniş yayılmış hüquqi, sosial, mədəni, siyasi və iqtisadi şəraitlər hər bir üzv Dövlətdə bu cəhətlərin fərqləndirilmiş şəkildə tətbiq olunmasını zəruri etdiyi halda bu yanaşmanın əsas elementləri universal olaraq müvafiqdir və dərhal tətbiq olunur.

---

[13] CEDAW/C/GC/33, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə komitəsinin 23 iyun 2015-ci il tarixili 33 saylı tövsiyəsi.

[14] Dr Şazia Çoudri. Qadınların ədalət mühakiməsinə çıxişı praktik hüquqşünaslar üçün bələdçi. 16809c8283 (coe.int)

Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında "Konvensiyanın 2-ci maddəsinə əsasən üzv dövlətlərin əsas öhdəlikləri barədə 28 saylı ümumi tövsiyənin 16-cı paraqrafında isə deyilir ki, üzv dövlətlər qadınların qeyri-ayrı seçkilik hüququna hörmət, onu qorumaq və həyata keçirmək, həmçinin qadınların öz mövqelərini yaxşılaşdıraraq kişilərə hüquqi və faktiki və ya substantiv bərabərliyi həyata keçirmək üçün onların inkişaf və tərəqqisini təmin etmək öhdəliyi daşıyır. Üzv Dövlətlər qadınlara qarşı nə birbaşa, nə də dolayı yolla ayrı-seçkiliyin olmamasını təmin etməlidir. Qadınlara qarşı birbaşa ayrı-seçkilik açıq şəkildə cinsiyyət və gender fərqlərinə əsaslanan fərqli rəftarın göstərilməsinə səbəb olur. Qadınlara qarşı ayrı-seçkilik o zaman baş verir ki, qanun, proqram və ya təcrübə kişi və qadınlara aid olduğuna görə bitərəf görünür, lakin praktikada zahirən bitərəf görünən tədbirin əvvəlcədən mövcud olan bərabərsizliklərə yönəlməməsi səbəbindən qadınlara qarşı ayrı-seçkilik yaradır. Bundan başqa, dolayı ayrı-seçkilik ayrı-seçkiliyin strukturlu və tarixi nümunələrinin, həmçinin qadın və kişilər arasında qeyri-bərabər güc əlaqələrinin olmasının təsdiq edilməməsi səbəbindən mövcud bərabərsizlikləri kəskinləşdirir.[15]

Azərbaycanın üzvü olduğu Avropa Şurasının Nazirlər Komitəsi və Parlament Assambleyası tərəfindən də Avropada və bütün dünyada gender bərabərliyinin inkişafına yönəlik çoxlu sayda konvensiya və tövsiyələr qəbul edilib. Bu sırada Avropa Insan Hüquqları Konvensiyası, Avropa Sosial Xartiyası, Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında Konvensiya (İstanbul Konvensiyası), İnsan alverinə qarşı mübarizə haqqında Konvensiya, Uşaqların cinsi istismardan və cinsi zorakılıdan müdafiəsi haqqında Konvensiya (Lanzarot Konvensiyası) mühüm yer tutur.

Gender bərabərliyi ilə bağlı Nazirlər Komitəsinin tövsiyələri və Parlament Assambleyasının qətnamələri[16] də cinsi mənsubiyyətə əsaslanan ayrı-seçkiliyə qarşı mübarizə, seksizm ifadələrinin aradan qaldırılması, qadınların zorakılıqdan müdafiə edilməsi və s. kimi ən müxtəlif məsələləri əhatə edir. Bu sənədlər gender bərabərliyi sahəsində beynəlxalq standartlara uyğun qanunvericiliyin hazırlanması və milli səviyyədə həmin standartlara uyğun siyasətin müəyyənləşdirməsi üçün üzv dövlətlərə ünvanlanan mühüm tövsiyələri özündə əks etdirir.

2012-ci ildə "Gender bərabərliyinə dair çoxaspektli proqram"ının tətbiqinə başlayan Avropa Şurası 2013-cü ilin noyabrında "2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası"nı qəbul etdi.[17] Nazirlər Komitəsi tərəfindən yekdilliklə qəbul edilmiş Avropa Şurasının "2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası" beş prioritet sahəni müəyyən edirdi.

**Avropa Şurasının «2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyasının müəyyənləşdirdiyi prioritet sahələr**

1. Gender stereotipləri və seksizmlə mübarizə aparılması;
2. Qadınlara qarşı zorakılığın qarşısının alınması və onunla mübarizə aparılması;
3. Qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi;
4. Siyasi və ictimai qərarların qəbulunda qadınların və kişilərin balanslı iştirakına nail olunması;
5. Bütün siyasət və tədbirlərdə gender yanaşmasının nəzərə alınması.

[15] Microsoft Word - Buklet 3 1 updated+ (un.org)

[16] http://website-pace.net/fr/web/as-ega/main

[17] 09000016806ccff3 (coe.int)

30 iyun 2016-cı ildə Tallində (Estoniya) keçirilən "Biz məqsədimizə çatırıqmı? İrəliləyişlərin qiymətləndirilməsi, ruhlandırıcı addımlar – Avropa Şurasının 2014-2017-ci illər üçün Gender Bərabərliyi Strategiyası" mövzusunda konfrans zamanı Strategiyanın həyata keçirilməsi dəyərləndirildi. Konfrans zamanı Avropa Şurasının növbəti gender bərabərliyi strategiyasının hazırlanması üçün bir sıra tövsiyələr irəli sürüldü.18

2018-ci il martın 7-də AŞ Nazirlər Komitəsi 2018-2023-cü illər üçün Avropa Şurasının yeni gender strategiyasını qəbul etdi. Yeni Strategiyanın ümumi hədəfi Avropa Şurasının üzv dövlətlərində gender bərabərliyinin səmərəli şəkildə həyata keçirilməsinə nail olmaqdan və qadın və kişilərin imkanlarını genişləndirməkdən ibarətdir. Strategiyada 2018-2023-cü illər üçün altı strateji sahə müəyyənləşdirilib.[19]

**2018-2023-cü illər üçün Avropa Şurasının gender strategiyasının müəyyənləşdirdiyi strateji sahələr**

1. Gender stereotipləri və seksizmin qarşısının alınması və onlara qarşı mübarizə aparılması.
2. Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlara qarşı mübarizə aparılması.
3. Qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi.
4. Siyasi və ictimai qərarların qəbulunda qadınların və kişilərin balanslı iştirakına nail olunması.
5. Miqrant, qaçqın və sığınacaq axtarışında olan qadın və qızların hüquqlarının qorunması.
6. Bütün siyasət və tədbirlərdə gender bərabərliyinin nəzərə alınmasına nail olunması.

Göründüyü kimi, Avropa Şurasının hər iki gender bərabərliyi strategiyasında qadınlara qarşı zorakılığın qarşısının alınması və qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi əsas strateji sahələrdən biri kimi müəyyənləşdirilib. Əvvəlki strategiyadan fərqli olaraq, yeni strategiyada (2018-2023) “qadınlara qarşı zorakılıq” anlayışı ilə yanaşı “məişət zorakılığı” anlayışı da yer alıb və əlavə bir strateji sahə (Miqrant, qaçqın və sığınacaq axtarışında olan qadın və qızların hüquqlarının qorunması) müəyyənləşdirilib.

Yeni strategiyada 3-cü strateji məqsəd “Qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi” adlanır. Bu strteji məqsədlə bağlı AŞ qeyd edir ki, ədalət mühakiməsinə çıxış imkanı insan hüququdur və qanunun aliliyinin və effektiv demokratiyanın inkişafının ayrılmaz tərkib elementidir. İnsan hüquqlarına hörmət və onların müdafiəsi yalnız səmərəli hüquqi müdafiə vasitələri (o cümlədən ədalətli məhkəmə araşdırması hüququ), habelə adekvat reparasiya və (və ya) kompensasiya tədbirləri mövcud olduqda təmin edilə bilər. Ədalət mühakiməsinə çıxış əldə etmək hər kəs üçün çətin ola bilər, qadınlar üçün isə bu, cəmiyyətdəki və ədalət mühakiməsi sistemindəki gender bərabərsizliyi səbəbindən daha çətindir. Qadınlarla kişilər arasında davamlı iqtisadi və sosial bərabərsizliklər, gender qərəzliliyi və gender stereotipləri qadınların və kişilərin ədalət mühakiməsinə çıxış imkanlarının qeyri-bərabər olması ilə nəticələnir. Sübutlar həmçinin məhkəmə sistemində gözəgörünməz maneənin mövcud olduğunu göstərir.[20]

---

[18] http://www.coe.int/en/web/genderequality/tallin-conference/

[19] ES215836_PREMS 041318 GBR Gender Equality Strategy 2023 WEB.pdf (coe.int)

[20] Ədalət Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası, “Avropa məhkəmə sistemləri – Ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyəti”, Ədalət mühakimısinin səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) araşdırmaları. №23, 2016-cı il nəşri (2014-cü ilin məlumatları)

Strategiyaya əsasən, ədalət mühakiməsinə bərabər çıxış imkanı aşağıdakıları nəzərdə tutur:

– səmərəli hüquqi müdafiə vasitəsi ilə təmin edilmək hüququ;

– ədalətli məhkəmə araşdırması hüququ;

– məhkəmələrə bərabər əsasda müraciət etmək imkanına malik olmaq hüququ;

– hüquqi yardım almaq və vəkillə təmsil olunmaq hüququ.

Strategiyada qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanına malik olmasının qarşısını alan çoxsaylı maneələrdən də danışılır və qeyd olunur ki, bu maneələr qadağalardan, köhnəfikirlilikdən, gender stereotiplərindən, adətlərdən, yoxsulluqdan, məlumatsızlıqdan, qanunvericilikdəki boşluqlardan və qanunvericiliyin tətbiqindəki çatışmazlıqlardan və bəzən hətta qanunların özlərindən ibarətdir. Strategiyada digər maneələrdən də bəhs edilir və bura bir çox ölkələrdə mülki hüquq və ailə hüququ sahələrində hələ də davam etməkdə olan ayrı-seçkiliyə əsaslanan yanaşmalar və qadınların qulluqçu, kişilərin isə dolandırıcı kimi stereotip rolları ilə yanaşı, mədəni maneələr, qorxu və utanma aid edilir.

Strategiyada qeyd olunur ki, Avropa Şurasının bu sahədəki fəaliyyətləri aşağıdakıları həyata keçirməyə yönələcək:

– Avropa Şurasının sənədlərinin və digər müvafiq sənədlərin müddəalarının, o cümlədən DİM-də yer alan 16-cı məqsədin həyata keçirilməsində üzv dövlətlərə dəstək vermək və bu zaman Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin qadınların ədalət mühakiməsinə çıxış imkanı haqqında 33 saylı ümumi tövsiyəsini (2015) nəzərə almaq;

– "Qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsinə doğru" mövzusunda Bern Konfransının (2016) tövsiyələrinin həyata keçirilməsini təşviq etmək və dəstəkləmək;

– Üzv dövlətlərin qadınların ədalət mühakiməsinə çıxışı qarşısındakı maneələrin azaldılmasına və ədalət mühakiməsinə çıxışının asanlaşdırılmasına yönələn müsbət təcrübələrini müəyyənləşdirmək, toplamaq və yaymaq;

– Qadınların ədalət mühakiməsinə çıxışı, o cümlədən məhkəmə hakimiyyətində iştirakı sahəsində məlumat boşluqlarını və çatışmazlıqlarını aradan qaldırmaq üçün bu sahədə cins əlaməti üzrə bölünmüş məlumatların tədqiq edilməsini və standartlaşdırılmış qaydada toplanmasını təşviq etmək;

– Avropa Şurasının sənədləri və beynəlxalq hüquq əsasında və digər regional və beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində milli səviyyədə tədqiqat, monitorinq, təlim, maarifləndirmə, potensialın artırılması və müsbət təcrübələrin təşviqi vasitəsilə, 2016-2021-ci illər üçün Avropa Şurasının "Məhkəmələrin müstəqilliyinə və qərəzsizliyinə dair fəaliyyət planı"na (2.4-cü fəaliyyət) uyğun olaraq, məhkəmə qərarlarının qəbul edilməsi sahəsində gender stereotiplərinin zərərli təsirinin aradan qaldırılmasını davam etdirmək;

– CEDAW və İstanbul Konvensiyası da daxil olmaqla beynəlxalq konvensiyalar və digər hüquqi sənədlər kontekstində təşkil edilən və ədliyyə və hüquq mühafizə orqanlarının əməkdaşlarının tələbatlarına uyğunlaşdırılan gender bərabərliyi məsələlərinə və qadınların insan hüquqlarına dair təlim vasitələrini və materiallarını hazırlamaq və yaymaq;

– məhkəmə qərarlarının və onlara riayət edilməsinin monitorinqini aparmaq, habelə qadınların ədalət mühakiməsinə çıxış imkanları, o cümlədən məhkəmə stereotipləri və gender əsaslı zorakılığa və ayrı-seçkiliyə qarşı onların müdafiəsi ilə əlaqədar məsələlərin hüquqşünaslar tərəfindən daha yaxşı başa düşülməsini təmin etmək;

– hüquq bərabərliyinin təmin edilməsi üzrə milli orqanların cins əlamətinə əsaslanan ayrı-seçkiliklə mübarizə aparılması və gender bərabərliyinin təşviq edilməsi, o cümlədən bunların məhkəmə çəkişməsi vasitəsilə həyata keçirilməsi sahəsində işini dəstəkləmək və gücləndirmək;

– ədalət mühakiməsinə çıxış əldə etmə prosesində qadınların imkanlarını genişləndirmək üçün qurbanlara dəstək vasitələrini və müsbət təcrübələri müəyyənləşdirmək və yaymaq;

– xüsusilə müdafiəsiz durumda olan qadınların, məsələn, zorakılıq qurbanlarının, miqrant, qaçqın və sığınacaq axtaran qadınların, seksizmdən qaynaqlanan nifrət dolu çıxışların hədəflərini və qaraçı qadınların tələbatlarını xüsusi olaraq nəzərə almaqla qadınların ədalət mühakiməsinə çıxış imkanlarını genişləndirmək üçün Avropa Şurasının əsas sənədləri barədə məlumatlandırıcı vasitələr hazırlamaq.

BMT-nin İnkişaf Proqramının Gender bərabərliyinin təmin edilməsi üzrə Strategiyasında (2018-2021-ci illər) da gender əsaslı zorakılığın qarşısının alınması və ləğvinə yönəlik hüquqi və siyasi mexanizmlərin işlənib hazırlanması və tətbiqi üzrə milli səviyyədə göstərilən səylərə dəstəyin verilməsini strateji giriş nöqtələrindən biri hesab edilir.[21]

**BMT-nin İnkişaf Proqramının 2018-2021-ci illər üçün gender bərabərliyinin təmin edilməsi üzrə strategiyasından**

Bütün qitələrdə və bütün ölkələrdə yer alan və əsasən qadınlara və qızlara qarşı baş verən cinsi əlamətə görə zorakılıq insanın əsas hüquq və azdlıqlarının kobud pozuntusu hesab edilir və təkcə qurbanların və onların ailələrinin sağlamlığına və rifahına deyil, həm də bütöv icmaların və ölkələrin iqtisadiyyatına ciddi zərər vurur.

BMT-nin İnkişaf Proqramı gender zorakılığı ilə dayanıqlı inkişaf sahəsində məqsədlərə, o cümlədən yoxsulluğun ləğvi ilə bağlı 1-ci məqsədə, sağlamlıq və rifahla bağlı 3-cü məqsədə, bərabərsizliyin azaldılması ilə bağlı 10-cu məqsədə və sülsevər və açıq cəmiyyətin qurulmasına yardımla, hamının ədalət mühakiməsinə çıxışını təmin etməklə və geniş iştirakçılığa əsaslanan təsisatların yaradılması ilə bağlı 16-cı məqsədə nail olunması arasında mühüm əlaqəyə diqqət yetirəcək, belə zorakılığa qarşı fəaliyyət və bu təzahürün miqyasının azaldılması üzrə sektorlararası təşəbbüslərin işlənib hazırlanması məsələlərində milli orqanlara dəstək göstərəcək.

BMTİP müvafiq hüquqi və siyasi mexanizmlərin fəaliyyətinin təmin edilməsi sahəsində milli tərəfdaşlarla sıx qarşılıqlı əlaqə saxlamaq niyyətindədir və qadın və qızların, hər şeydən əvvəl çoxsaylı və kəsişən ayrı-seçkilik formaları ilə qarşılaşanların, məsələn, əlillərin ədalət mühakiməsinə çıxışını təmin etməklə zorakılığın qarşısının alınması və cinayətkarların cəzasızlığının kökünün kəsilməsi sahəsində milli potensialın artırılması üzrə səylərə dəstək verəcək.

Avropa İnsan Hüquqları Konvensiyası (AİHK) gender baxımdan neytral olsa da, Avropa İnsan Hüquqları Məhkəməsi qadınlara qarşı zorakılıq da daxil olmaqla qadın hüquqları ilə bağlı ədalət mühakiməsinin əsasını təşkil edir. Konvensiya həmçinin, qadınların ədalət mühakiməsinə bərabər çıxış imkanlarına dair bir neçə əsas prinsipi müəyyən edir. Konvensiyanın 12 saylı Protokolu isə Konvensiyanın 14-cü maddəsində nəzərdə tutulmuş məhdudiyyətləri aradan qaldıraraq cins, irq, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı seçkiliyi qadağan edir.

[21] pdf (undocs.org)

**Avropa İnsan Hüquqları Konvensiyası**

**MADDƏ 14. Ayrı-seçkiliyin qadağan olunması**

Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərə görə ayrı seçkilik olmadan təmin olunmalıdır.

**İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyaya dair 12 saylı Protokol**

**MADDƏ 1. Ayrı-seçkiliyə ümumi qadağa**

1. Qanunla nəzərdə tutulmuş istənilən hüquqdan istifadə cins, irq, rəng, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya hər hansı digər əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.
2. Heç kim 1-ci bənddə sadalanan hər hansı əsasa görə hər hansı dövlət hakimiyyəti orqanı tərəfindən ayrı-seçkiliyə məruz qalmamalıdır.

Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ ədalət mühakiməsinə çıxış imkanlarının təmin edilməsində qadınların maneələrlə üzləşdiyini əks etdirmiş və xüsusi olaraq, qadınlara qarşı zorakılıq halları ilə bağlı işlərdə Məhkəməyə standartları formalaşdırmaq imkanı yaratmışdır. Məhkəmə fiziki şəxslər tərəfindən törədilmiş zorakılıq formalarını Konvensiya ilə qorunan xüsusi hüquqların pozuntusu kimi tanımaqla qadınların ədalət mühakiməsinə çıxış imkanlarını əhəmiyyətli dərəcədə artırmışdır.

Avropa məhkəməsi məişət zorakılığı ilə bağlı işlərdə Konvensiyada təsbit olunmuş yaşamaq, işgəncə və qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi, ədalətli məhkəmə araşdırması, şəxsi və ailə həyatına hörmət, ayrı-seçkiliyin qadağan edilməsi kimi fundamental hüquqların pozuntusunu tanımışdır.[22] Avropa Məhkəməsi həmin işlərin nəticələrinə və məişət zorakılığı qurbanlarının təcrübəsinə əsasən hesab edir ki, məişət zorakılığı hallarının operativ araşdırılması, təkrarlanma risklərinin qiymətləndirilməsi və zorakılığın genişlənməsinin qarşısının alınması dövlətin pozitiv öhdəliklərindən biridir ***(Bax: Əlavə 7).***

Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində standartları və dövlətlərin məcburi öhdəliklərini müəyyən edən ən mühüm sənədlərdən biri Avropa Şurasının 2011-ci il mayın 11-də qəbul etdiyi "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onlarla mübarizə haqqında" Konvensiyadır (İstanbul Konvensiyası).

İstanbul Konvensiyası qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması üçün çoxtərəfli prinsipləri əks etdirən vahid sənəddir. Bu sənəddə dövlətlərdən zorakılıqla bağlı dörd istiqamətdə tədbirlərin görülməsi tələb olunur: önləyici tədbirlər (prevention), qurbanları qoruma (protection), cəzalandırma (prosecution) və zorakılığın qarşısının alınması barədə siyasət müəyyən etmə (policy making). Bu 4 aspekt qısaca "4P yanaşması" adlandırılır.[23]

[22] Kontrovà v. Slovakia (2007); Branko Tomašić and Others v. Croatia (2009); Opuz v. Turkey (2009); A v. Croatia (2010); Haiduová v. Slovakia (2010); Kalucza v. Hungary (2012); Eremia and Others v. the Republic of Moldova (2013) ; Mudric v. the Republic of Moldova (2013) ; B. v. the Republic of Moldova (2013); N.A. v. the Republic of Moldova (2013); Valiulienè v. Lithuania (2013); T.M. and C.M. v. the Republic of Moldova (2014); Durmaz v. Turkey (2014); Rumor v. Italy (2014); Civek v. Turkey (2016); Halime Kiliç v. Turkey (2016); M.G v. Turkey (2016); Talpis v. Italy (2017); Balsan v. Romania (2017). TrainingManualAccessJustice_EN.pdf (ohchr.org)

[23] Fakt Yoxla

İstanbul Konvensiyası" Avropa Şurasının üzvü olan 34 dövlət tərəfindən ratifikasiya edilib. Digər 11 üzv dövlət bu Konvensiyanı imzalasa da, ratifikasiya etməyib. Avropa Şurasına üzv olan Azərbaycan və Rusiya Federasiyası Konvensiyanı nə imzalayıb, nə də ratifikasiya ediblər. Türkiyə isə Konvensiyanı imzalasa da, sonradan ondan imtina edib.

BMT-nin CEDAW Komitəsi tərəfindən Azərbaycan hökumətinin 5-ci dövri məruzəsi ilə bağlı (2015-2018) ölkəmizə qadınların hüquqlarının təşviqi məqsədi ilə bir neçə mühüm addımların atılması, o cümlədən İstanbul Konvensiyasına qoşulması tövsiyə olunmuşdur.[24]

## 1.2. Milli qanunvericilik və siyasət çərçivələri

Azərbaycan Respublikası qanunvericiliyinin beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş konvensiyalarda, tövsiyələrdə, strategiyalarda və s. sənədlərdə öz əksini tapmış gender bərabərliyinin təmin edilməsi, qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması, məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə səmərəli çıxış imkanlarının təmin edilməsi ilə bağlı əsas prinsip və standartlara uyğunlaşdırılması istiqamətində bir sıra addımlar atılmışdır. Lakin buna baxmayaraq, milli qanunvericiliyin beynəlxalq prinsip və standartlara uyğunlaşdırılması istiqamətində hələ çox işlər görülməlidir.

Məişət zorakılığı öz başlanğıcını gender bərabərsizliyindən götürdüyündən, məişət zorakılığı ilə mübarizə sahəsində mövcud hüquqi mexanizmlərə ilk növbədə gender bərabərliyi prinsipinin hansı səviyyədə nəzərə alınması aspektindən yanaşılmalıdır.

Azərbaycan Respublikasının Konstitusiyası hamının qanun və məhkəmə qarşısında bərabər olduğunu, kişi ilə qadının eyni hüquqları və azadlıqları olduğunu təsbit edir. Konstitusiyaya əsasən, hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.[25]

Azərbaycanda gender bərabərliyinin təmin edilməsinin digər mühüm hüquqi vasitəsi 10 oktyabr 2006-cı ildə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliynin təminatları haqqında" qanundur.[26] Qanun gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edir. Qanunda "cinsi mənsubiyyətə görə ayrı-seçkilik" anlayışı "seksual qısnama, cinsi əlamətə görə hüquqların bərabər həyata keçirilməsini məhdudlaşdıran və ya inkar edən istənilən fərq, istisna və ya üstünlük" kimi müəyyən edilir. Bir sıra ekspertlərin rəyinə görə, bu anlayış həm birbaşa, həm də dolayı ayrı-seçkiliyi əhatə etmir və bu sahədə beynəlxalq tələblərə tam uyğun gəlmir.[27]

Ekspertlər hesab edir ki, Qadınlara Qarşı Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi Haqqında Konvensiyada "ayrı-seçkilik" anlayışı daha genişdir və yalnız birbaşa ayrı-seçkiliyi deyil, həm də dolayı ayrı-seçkiliyi ehtiva edir. Belə ki, Konvensiyanın 1-ci maddəsinə görə, qadınlar barəsində ayrı-seçkilik anlayışı qadınların ailə vəziyyətlərindən asılı olmayaraq, kişi və qadınların hüquq bərabərliyi əsasında insan hüquqlarının və siyasi, iqtisadi, sosial, mədəni, mülki və hər hansı digər sahələrdə əsas azadlıqların zəiflədilməsini, yaxud tanınmamasını, qadınların onlardan istifadə etməsini, yaxud onları həyata keçirməsini heçə endirməyə yönəlmiş cinsi əlamətə görə hər hansı fərqləndirmə, istisna, yaxud məhdudiyyət deməkdir.

Ekspertlər "ayr-seçkilik" anlayışının beynəlxalq tələblərə uyğunlaşdırılmasının vacibliyini vurğulayırlar. Şübhəsiz ki, ədalət mühakiməsinə səmərəli çıxış imkanları gender bərabərliyinin təmin edilməsinə və ayrı-seçkiliyin aradan qaldırılmasına yönəlik prinsip və standartların

---

[24] Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi - Mətbuat üçün açıqlama (scfwca.gov.az)

[25] Azərbaycan Respublikasının Konstitusiyası. Maddə 25.
00 - Azərbaycan Respublikasının Konstitusiyası (e-qanun.az)

[26] http://e-qanun.az/framework/12424

[27] 16808e9a28 (coe.int)

qanunvericilikdə təsbiti səviyyəsindən, həmin prinsip və standartların əks olunduğu anlayışların ifadə üsullarından da asılıdır. Lakin hesab edirik ki, başlıca maneə təsbit olunmuş prinsip və standartların təcrübədə tətbiq edilməməsi və ya düzgün tətbiq edilməməsidir.

Gender bərabərliyinin təmin edilməsi, qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması, məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə səmərəli çıxış imkanlarının təmin edilməsi istiqamətində atılan ən mühüm addımlardan biri də “Məişət zorakılığının qarşısının alınması haqqında” 22 iyun 2010-cu il tarixli qanunun qəbuludur.[28] Qanun yaxın qohumluq münasibətlərindən, birgə və ya əvvəllər birgə yaşayışdan sui-istifadə etməklə törədilən zorakılığın, onun doğurduğu mənfi hüquqi, tibbi və sosial nəticələrin qarşısının alınması, məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial müdafiəsi, hüquqi yardımla təmin edilməsi, habelə məişət zorakılığına səbəb olan halların aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir.

“Məişət zorakılığının qarşısının alınması haqqında” qanunun qəbulu beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilmişdir. Lakin onun bəzi müddəalarına münasibətdə fərqli yanaşmalar da var. Məsələn, qadınlara qarşı zorakılıq, onun səbəbləri və nəticələrinə dair Azərbaycan missiyası üzrə xüsusi məruzəçi Rəşidə Manjoo hesab edir ki, qanunun 7.0.4-cü maddəsi insan hüquqlarının müdafiəsi üzərində üstünlük yaradan vasitəçilik və barışıq kimi təfsir edilə bilər. Həmin maddəyə əsasən, araşdırmanın aparılması zamanı tərəflərin münasibətlərinin normallaşmasına və ailədə münasibətlərin bərpa olunmasına kömək göstərmək məişət zorakılığı ilə bağlı şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxıldıqda, cinayət təqibi ilə yanaşı görülməli tədbirlər sırasındadır.[29]

Hesab edirik ki, xüsusi məruzəçinin bu ehtimalı üçün müəyyən əsaslar var. Lakin yenə də əsas məsələ hüququn tətbiqi təcrübəsi ilə bağlıdır. Ümumi yanaşma ondan ibarətdir ki, cinayət təqibini həyata keçirən orqanın konkret iş üzrə səlahiyyətli şəxsi (təhqiqatçı, müstəntiq, prokuror, hakim) xüsusi hazırlıqlı şəxs olmalıdır. Belə ki, məişət zorakılığı ilə əlaqədar işlər xüsusi yanaşma tələb edir və belə yanaşmaya əsaslanmaqla hərəkət edən səlahiyyətli şəxs hansı hallarda tərəflərin münasibətlərinin normallaşmasına və ailədə münasibətlərin bərpa olunmasına kömək göstərmək lazım olduğunu, hansı hallarda isə bunun arzuolunmaz nəticələrə gətirib çıxara biləcəyini müəyyənləşdirə bilər. Əks halda, bu müddəanın qanunvericilikdə təsbit edilib-edilməməsindən asılı olmayaraq məişət zorakılığı qurbanının növbəti dəfə qurbana çevrilmək təhlükəsi hər zaman realdır.

Bərabərlik prinsipi digər qanunvericilik aktlarında – Cinayət Məcəlləsində (maddə 6)[30], İnzibati Xətalar Məcəlləsində (maddə 7)[31], Ailə Məcəlləsində (maddə 2)[32], Cinayət Prosessual Məcəlləsində (maddə 11)[33] və digər qanunvericilik aktlarında da təsbit olunub. Ədalət mühakiməsinə bərabər çıxış imkanlarının təmin edilməsi baxımından bu prinsipin müəyyənedici rolu var. Lakin bərabərlik prinsipinin qanunvericiliyin digər normalarında da gözlənilməsi, həmin normalar müəyyənləşdirilən zaman bərabərlik prinsipinə hansı səviyyədə cavab verməsinin diqqətdə saxlanılması vacib məsələlərdəndir.

Məişət zorakılığı ilə mübarizə sahəsində digər normativ-hüquqi aktlar da qəbul edilmişdir. Bunlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” 19 dekabr 2011-ci il tarixli[34], “Məişət zorakılığı ilə bağlı

[28] http://e-qanun.az/framework/20131

[29] Report of the Special Rapporteur on Violence against Women, Its Causes and Consequences, Rashida Manjoo : (un.org)

[30] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (e-qanun.az)

[31] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (e-qanun.az)

[32] Azərbaycan Respublikasının Ailə Məcəlləsi (e-qanun.az)

[33] Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi (e-qanun.az)

[34] http://e-qanun.az/framework/22718

məlumat bankının təşkili və aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" 19 dekabr 2011-ci il tarixli[35] və "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"nın təsdiq edilməsi haqqında" 24 fevral 2012-ci il tarixli[36] Qərarlarını və s. misal göstərmək olar.

Qeyd olunan qanunvericilik aktları məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəmələrə çıxış imkanları üçün əsas hüquqi bazanı təşkil edir. Lakin dövlətin bu istiqamətdə iradəsini, onun məişət zorakılığı sahəsində mövcud problemlərin həllinə yönəlik siyasətini əks etdirən əsas sənəd beynəlxalq konvensiyalardan irəli gələn prinsip və standartların da nəzərə alındığı "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"dır.[37]

**Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı**

**Əsas prinsiplər**

- zorakılığın bütün formalarının yolverilməzliyi;
- insan hüquqlarına və azadlıqlarına hörmətin təşviqi;
- gender bərabərliyinin təmin olunması;
- məişət zorakılığının qarşısının alınması;
- məişət zorakılığından zərər çəkmiş şəxslərin, xüsusən qadın və uşaqların təhlükəsizliyinin və müdafiəsinin prioritetliyi;
- bütün müdaxilə tədbirlərində zərər çəkmiş şəxslərin müstəqilliyinə hörmət edilməsi və onların öz həyatlarına dair qərar verə bilməsinin üstünlüyü;
- məişət zorakılığının uşaqlara mənfi təsirinin nəzərə alınması və onun nəticələrinin minimuma endirilməsi;
- məişət zorakılığı törətmiş şəxslərin məsuliyyəti.

Fəaliyyət Planında məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi məsələsi xüsusi yer tutur. Planın 7-ci bəndi "Məişət zorakılığından zərər çəkmiş şəxslərin səmərəli müdafiəsi sisteminin formalaşdırılması" adlanır. Bu istiqamət üzrə həyata keçirilməsi planlaşdırılan tədbirlər içərisində məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə çıxış imkanlarının təkmilləşdirilməsi ön planda durur.

[35] http://e-qanun.az/framework/22719

[36] http://e-qanun.az/framework/23241

[37] https://static.president.az/media/W1siZiIsIjIwMjAvMTEvMjcvNmM3YmI0ajUzMF9NX0xMX0ZfQUxfWVlfVF9QTEFOSS5wZGYiXV0?sha=5bfc481fe85dbbe7

# II. Məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə mövcud çıxış imkanları: hüquqi, institusional, sosial-iqtisadi və mədəni maneələr

## 2.1. Cinayət və inzibati qanunvericilik

BMT-nin Qadınlara Qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğvi Komitəsi hesab edir ki, qadınlara qarşı zorakılıq probleminin həllinə yönəlik qanunvericilik tədbirlərinin qəbulu üzrə öhdəliklər çərçivəsində qadınların fiziki, seksual və psixoloji sağlamlığının pozulmasında ifadə olunan gender zorakılığının bütün formalarına cinayət əməli statusunun verilməsi son dərəcə vacibdir.[38] Avropa Şurasının Qadınların zorakılıqdan müdafiə edilməsinə dair Rec (2002) 5 saylı Tövsiyəsində dəqiq göstərilib ki, üzv-dövlətlər cinayət qanunvericiliyinin bütün zorakılıq aktlarına, xüsusən şəxsə qarşı fiziki və ya seksual zorakılıq aktlarına aid edilməsini, milli qanunvericilikdə zorakılıq törətməkdə təqsirli şəxsə qarşı qısa müddətdə cinayət işi başlanmasına, həmçinin zorakılıq qurbanına vurulmuş ziyanın ödənilməsinə imkan verən müvafiq tədbir və sanksiyaların nəzərdə tutulmasını təmin etməlidirlər. Avropa İnsan Hüquqları Məhkəməsi üzv-dövlətlərə ailədə bütün zorakılıq formalarını cinayət əməli kimi təsnifləşdirməyi, cinayət qanunvericiliyinə əlavə olaraq, həmçinin məhkəmə orqanlarına qurbanların müdafiəsinə yönəlik müvəqqəti tədbirlər barədə qərar qəbul etmək, zorakılıq törətmiş şəxsə qurbanla əlaqəyə girməyi, onunla ünsiyyətdə olmağı və ya ona yaxınlaşmağı qadağan etmək imkanı verən mülki-hüquqi və ya inzibati-hüquqi tədbirlərin görülməsi məsələsini nəzərdən keçirməyi tövsiyə edir.[39]

Qanunvericilik yanaşması seçimi (ayrıca qanunun və ya normaların qəbulu və yaxud mövcud cinayət qanunvericiliyində dəyişikliklər) hər dovlətin öz ixtiyarındadır, lakin aşağıdakı elementlər qadınlara qarşı zorakılığa və ya məişət zorakılığına görə cinayət məsuliyyətini müəyyən edən effektiv qanunvericiliyin zəruri komponentləri hesab edilir:

– beynəlxalq hüquqa uyğun olaraq effktiv şəkildə qarşısını alma, müdafiə, cinayət təqibi, məhkəmə qərarının çıxarılması və hüquqi müdafiə vasitələrinin təmin edilməsi;

– ailə vəziyyətindən asılı olmayaraq intim münasibətlərdə olan və ya olmuş şəxslərə, habelə ailə münasibətlərində olan şəxslərə və eyni yaşayış yerində yaşayan şəxslərə tətbiq olunması;

– qadınlara qarşı zorakılığa aid işlər üzrə vaxtında və operativ məhkəmə araşdırması (məsələn, sürətləndirilmiş məhkəmə araşdırması);

– qurbanı təkrar və ikinci dəfə qurbana çevrilməkdən qoruyan, həmçinin qurbanın cinayət prosesində iştirakı haqqında müəyyən qərarlar qəbul etmək hüququna təminat verən normalar;

– hüquqi sanksiyalar və cəza siyasəti cinayətin ağırlığı ilə mütənasib olmalı, ən azı aşağıdakı məqsədlərə cavab verməlidir: qadınlara qarşı zorakılıqdan çəkindirmə, zorakı davranışların qarşısını alma, qurbanın təhlükəsizliyini təmin etmə;

– hökm çıxarılan zaman ağırlaşdırıcı hallar nəzərə alınmalıdır (məsələn, zorakı davranışların şoxsaylı xarakteri, qurbanın xüsusi həssaslığı);

– mühafizə sərəncamlarının pozulması cinayət əməli kimi tanınmalıdır;

– qurbanların maliyyə yükünü daşımadıqları kompensasiya hüququ (yəni zərər ailə büdcəsindən ödənilməməlidir);

[38] Qadınlara Qarşı Gender Zorakılığı Haqqında 35 saylı Ümumi Tövsiyə. Treaty bodies Download (ohchr.org)

[39] AİHM-nin “Bevakua və S. Bolqarıstana qarşı (Bevacqua and S. v. Buklgaria) (2008)”

– qadınlara qarşı zorakılıq və ya ailədaxili şiddət olduqda, boşanma prosesi də daxil olmaqla, qadınlara qarşı zorakılıq hallarında məcburi vasitəçiliyin qadağan olunması.[40]

Azərbaycanın mövcud cinayət qanunvericiliyinin təhlili onun qeyd olunan komponentlərə tam cavab vermədiyini və təkmilləşdirilməsi üçün zəruri islahatlara ehtiyac olduğunu göstərir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (CM) məişət zorakılığı ilə bağlı ayrıca maddə yoxdur. Cinayət Məcəlləsinin bir sıra normaları işin hallarından asılı olaraq konkret cinayətin məişət zorakılığı cinayəti kimi tövsif etməyə imkan verir. Lakin bu cür yanaşma subyektiv qiymətləndirməyə gətirib çıxarmaqla yanaşı, məişət zorakılığı kimi cinayət əməlinin statistikasını aparmağa və onun mürəkkəbliyini nəzərə almaqla xüsusi yanaşmanı özündə əks etdirən prosessual bacarıqları formalaşdırmağa imkan vermir. Məsələn, Cinayət Məcəlləsinin "Şəxsiyyət əleyhinə olan cinayətlər" bölməsində nəzərdə tutulmuş "Qəsdən adam öldürmə" (maddə 120), "Özünü öldürmə həddinə çatdırma" (maddə 125), "Qəsdən sağlamlığa ağır zərər vurma" (maddə 126), "Qəsdən sağlamlığa az ağır zərər vurma" (maddə 127), "Qəsdən sağlamlığa yüngül zərər vurma" (maddə 128), "Qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma" (maddə 129), "Əzab vermə" (maddə 133), "Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə" (maddə 134), "Zöhrəvi xəstəlikləri yayma" (maddə 139), "İnsan immunçatışmazlığı virusu ilə yoluxdurma" (maddə 140), "Məcburi əmək" (maddə 144-2), "Qanunsuz azadlıqdan məhrum etmə" (maddə 145), "Qanunsuz olaraq psixiatriya xəstəxanasına yerləşdirmə" (maddə 146), "Zorlama" (maddə 149), "Seksual xarakterli zorakılıq hərəkətləri" (maddə 150), "Seksual xarakterli hərəkətlərə məcbur etmə" (maddə 151) cinayətlərini bura aid etmək olar.

> Məişət zorakılığı ilə mübarizə sistemi hələ formalaşmayıb. Bunun əsas səbəblərindən biri məişət zorakılığı cinayətlərinin dəqiq statistikasının olmamamsıdır. Statistikanın olmaması bu sahədəki kriminogen vəziyyəti düzgün qiymətləndirməyə, qiymətləndirmənin nəticələrinə əsalanan preventiv addımları və effektiv mübarizə siyasətini müəyyənləşdirməyə imkan vermir. Statistikanın formalaşdırılması üçün isə bir sıra cinayətlərin məişət zorakılığı cinayətləri kimi təsnifləşdirilməsinə ehtiyac var.
>
> **Əsabəli Mustafayev**
> **Vəkil**

Qeyd olunan cinayətlər içərisində "qəsdən adam öldürmə" daha ağır cinayət hesab olunur. Baş vermiş cinayətlər haqqında rəsmi və qeyri-rəsmi məlumatlar onu göstərir ki, şəxsin bir yerdə yaşadığı ailə üzvü, yaxın qohumu, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxs tərəfindən qəsdən qətlə yetirilməsi kimi (CM-nin 120-ci maddəsində nəzərdə tutulmuş qəsdən adam öldürmə cinayəti) ağır cinayətlərə tez-tez rast gəlinir.[41]

Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim olunan məlumata əsasən, 2020-ci ildə prokurorluq orqanları tərəfindən məişət zorakılığı ilə bağlı ümumilikdə 90 cinayət işi üzrə istintaq aparılmışdır. Həmin cinayət işləri sırasında həm başa çatmış, həm də başa çatmayan, yəni cinayət etməyə cəhd kimi əməllərə rast gəlinir. 2020-ci ildə qəsdən adam öldürməyə görə 62, qəsdən adam öldürməyə cəhdə görə 25, özünü öldürmə həddinə çatdırma ilə bağlı isə 3 cinayət işi başlanmışdır. Təqdim olunmuş məlumatların təhlili göstərir ki, prokurorluq orqanları tərəfindən məişət zorakılığı ilə bağlı törədilmiş qəsdən adam öldürmə cinayətlərinin 1-i iştirakçılıqla adam öldürmə, 5-i xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə, 8-i iki və ya daha çox şəxsi öldürmə,

[40] Элизабет Дюбан. Исследование по вопросам предотвращения и борьбы с насилием в отношении женщин и домашним насилием, в том числе в ситуациях социального неблагополучия, в Российской Федерации. Стр.31

[41] Hədələnən, qətlə yetirilən qadınlar… — Ən böyük təhlükə yaxınlarıdır (qafqazinfo.az)

1-i isə hamilə vəziyyətdə olan qadını öldürmə kimi qiymətləndirilərək tövsif olunmuşdur. 2020-ci il ərzində prokurorluq orqanları tərəfindən qeydə alınan 25 cinayətə cəhd faktının 21-i ağırlaşdırıcı hallar olmadan adam öldürməyə, 1-i xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürməyə, 2-i iki və ya daha çox şəxsi öldürməyə, 1-i isə təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürməyə cəhd kimi qiymətləndirilmişdir. Təqdim olunmuş məlumatlara əsasən, təqsirləndirilən şəxslərdən 1 nəfər (oğlan), zərərçəkmişlərin isə 10-u (7-si qız, 3-ü isə oğlan) yetkinlik yaşına çatmayan şəxslərdir.

Məişət zorakılığı ilə bağlı törədilmiş cinayətlərdə cinayətkar və qurbanın qohumluq əlaqələri də müxtəlifdir. Ən çox ər tərəfindən öz həyat yoldaşının öldürülməsi (33 faktı) diqqəti çəkir.[42]

CM-nin 120-ci maddəsində nəzərdə tutulmuş cinayətlə bağlı rəsmi məlumatın real vəziyyətlə müqayisəsini aparmaq imkanlarımız olmasa belə, prokurorluq tərəfindən açıqlanan rəqəmlərin kifayət qədər yüksək olduğunu demək mümkündür və bu hal narahatlıq doğurmaya bilməz. Azərbaycan Respublikasının Baş Prokurorluğunun qadınlara qarşı zorakılıqla bağlı yuxarıda qeyd etdiyimiz maarifləndirici videomüraciətində təkcə 2021-ci ilin birinci yarımili ərzində baş vermiş qəsdən adamöldürmə cinayətləri nəticəsində 33 qadının qətlə yetirilməsi ilə bağlı səsləndirdiyi rəqəm də narahatlıq üçün ciddi əsasların olduğunu göstərir. Məhz bu səbəbdən də ekspertlər hesab edirlər ki, cinayətin "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun şamil edildiyi şəxslər barəsində törədilməsinin ağırlaşdırıcı hal kimi nəzərdə tutulmasına ehtiyac var.

Cinayət Məcəlləsinin 120.2-ci maddəsində adam öldürmə cinayətinin ağırlaşdırıcı hallarını nəzərdə tutan bəndlər öz əksini tapıb. Həmin bəndlər sırasında cinayətin bir yerdə yaşadığı ailə üzvü, yaxın qohumu, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxs tərəfindən törədilməsi yoxdur. Doğrudur, həmin bəndlərdə zorlama və ya seksual xarakterli başqa zorakı hərəkətlərlə əlaqədar adam öldürmə, təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadını və təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə ağırlaşdırıcı hal kimi nəzərdə tutulub. Lakin bu bəndlər cinayətin məişət zorakılığının subyektlərini tam və dəqiq əhatə etmir. Hesab edirəm ki, daha ağır məsuliyyəti nəzərdə tutan 120.2-ci maddəyə belə bir bəndin (cinayətin "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun şamil edildiyi şəxslər barəsində törədilməsi) əlavə edilməsinə ehtiyac var.

Eyni yanaşmanı Cinayət Məcəlləsinin "Şəxsiyyət əleyhinə cinayətlər" bölməsində nəzərdə tutulan maddələrə (maddə 120, 125, 126, 127, 128, 129, 133, 139, 140, 149 və s.) də şamil etmək olar.

**Rüstəm Zülfüqarov**
**Vəkil**

❖ ❖ ❖

CM-nin 61-ci maddəsi cəzanı ağırlaşdıran halları müəyyən edir. "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun şamil edildiyi şəxslər barəsində törədilməsinin konkret cinayət əməllərində ağırlaşdırıcı hal kimi nəzərdə tutulması deyil, bu halın CM-nin 61-ci maddəsinə əlavə edilməsi daha məqsədəuyğundur.

**Azərbaycan Respublikası Baş Prokurorluğunun mövqeyi**

CM-nin 125-ci maddəsinə gəlincə isə, il ərzində özünü öldürmə həddinə çatdırma ilə bağlı cəmi 3 cinayətin baş verməsi inandırıcı görünmür. Belə ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə ünvanlanmış müraciətlər əsasında aparılan araşdırma[43] çərçivəsində

[42] Məlumatlar 01.01.2020-15.12.2020-ci il dövrünü əhatə edir.

[43] Məişət zorakılığının yayılma səviyyəsinin və onu törədən səbəblərin monitorinqi çərçivəsində ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinə ünvanlanmış müraciətlər əsasında araşdırmaya dair hesabat. 2021.

“Qafqazinfo.az” saytının qısamüddətli monitorinqinin (2021-ci il aprelin 1-dən 20-dək olan dövr üzrə) nəticələri göstərir ki, 20 gün ərzində Azərbaycanda 17 intihar hadisəsi baş verib ki, onlardan da bəzilərinin məişət zorakılığı ilə bağlı olduğun elə məlumatın başlığından görünür. Ekspertlər şəxsin bir yerdə yaşadığı ailə üzvü, yaxın qohumu, qanuni nikahda olmadığı və ya əvvəllər birgə yaşadığı şəxs tərəfindən özünü öldürmə həddinə çatdırılmasının daha ağır cinayət kimi nəzərdə tutulmasının və bu cinayətə görə daha ağır cəzanın müəyyənləşdirilməsinin vacibliyini vurğulayırlar.

Dərinləşdirilmiş müsahibəyə cəlb edilmiş ekspertlər hesab edir ki, qəsdən sağlamlığa ağır zərər vurma, qəsdən sağlamlığa az ağır zərər vurma, qəsdən sağlamlığa yüngül zərər vurma, əzab vermə, öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə və s. kimi yuxarıda qeyd etdiyimiz cinayətlərlə bağlı rəsmi statistika reallığı əks etdirmir. Belə ki, zorakılıq qurbanlarının bir çoxu zorakılıq halları barədə məlumatlara gizlətməyə üstünlük verir. Onların bir qismi zorakılıq hallarının müvəqqəti olduğunu və gələcəkdə baş verməyəcəyini, digər qismi ailənin bütövlüyünü və uşaqların gələcəyini düşündüklərindən, başqa bir qismi isə digər səbəblərdən (kişilərin dominantlığını təbii qəbul etmələri, qorxu, el qınağı və s.) susmağı və zorakılığa dözməyi daha məqbul hesab edirlər. Təcrübə isə göstərir ki, zorakılığa məruz qalmış şəxslərin bu cür yanaşması daha ağır fəsadlara gətirib çıxarır.

> Əslində məişət zorakılığı ilə bağlı rəsmi statistika real vəziyyətdən çox uzaqdır. Bunun əsas səbəblərindən biri zorakılıq qurbanlarının onlara qarşı baş vermiş zorakılıq hallarını gizlətməsi, susqunluq nümayiş etdirməsidir. Bəzi qurbanlar, əsasən qadınlar kişinin ailədə dominant rolunu qəbul edərək zorakılığa təbii hal kimi baxırlar, digərləri ailənin bütövlüyünü və zorakılıq barədə məlumat verəcəyi halda ailənin dağılacağını düşünür, bir başqaları daha ağır zorakılıq halları ilə qarşılaşacaqlarından qorxurlar. Şikayətlərinin düzgün araşdırılmayacağını düşünərək dözməyə üstünlük verənlər də var. Bu məsələdə zorakılıqla mübarizə aparmalı olan qurumların fəaliyyətsizliyi də qeyd olunmalıdır.
>
> **Ruhəngiz Hüseynova**
> **“Qadınlar arasında həmrəylik” İB**

Məişət zorakılığı ilə bağlı daxili işlər orqanlarının icraatında olan cinayət işləri və sadələşdirilmiş icraat materiallarının sayı AQUPDK-ya təqdim olunan məlumatda 2020-ci il üzrə ümumilikdə 341 göstərilmişdir. Məişət zorakılığı ilə bağlı araşdırılması aparılan cinayət işləri və sadələşdirilmiş icraatın materialları üzrə 342 nəfər təqsirləndirilən şəxs (312 nəfəri kişi, 30 nəfər qadın), 344 zərərçəkmiş şəxs (82 nəfər kişi, 262 nəfər qadın) qismində tanınmışdır.

Azərbaycan Respublikasının daxili işlər orqanlarının icraatında məişət zorakılığı ilə bağlı olan cinayət işləri və sadələşdirilmiş icraat materiallarının xarakteri üzrə təhlilinə baxdıqda əməllərin Cinayət Məcəlləsinin müxtəlif maddələri üzrə qiymətləndirildiyini müşahidə edirik. Ən çox rast gəlinən hal qəsdən sağlamlığa yüngül zərər vurmadır (295 hal). Ən az rast gəlinən isə seksual xarakterli zorakılıq hərəkətləridir (cəmi 1 hal). 2020-ci il ərzində daxili işlər orqanları tərəfindən məişət zorakılığı ilə bağlı - qəsdən sağlamlığa ağır zərər vurma üzrə 7, qəsdən sağlamlığa az ağır zərər vurma üzrə 21, xuliqanlıq üzrə 3, əzab vermə üzrə 3, öldürülməklə və ya sağlamlığa zərər vurmaqla hədələmə üzrə 3 hal qeydə alınmışdır.

Prokurorluq orqanları tərəfindən araşdırılan məsələlər kimi, daxili işlər orqanları tərəfindən araşdırılan işlərdə də qohumluq əlaqələri müxtəlifdir. Həm yaxın qohumlar, həm də digər qohumluq münasibətlərinə rast gəlinir. Lakin say etibarilə ən çox zərərçəkmiş şəxs (167 nəfər olmaqla) qanuni nikahda olan ər-arvad dairəsindən olmuşdur.

Yuxarıda qeyd etdiyimiz məlumatdan da görünür kimi, rəsmi statistika real mənzərəni əks etdirmir. Belə ki, il ərzində, CM-nin 133 (əzab vermə) və 134-cü (öldürülməklə və ya sağlamlığa

zərər vurmaqla hədələmə) maddələrinin hər biri üzrə cəmi 3 cinayətin qeydə alınması inandırıcı deyil. Eyni zamanda onu da qeyd edək ki, bunu rəsmi qurumlar tərəfindən qeydə alınmış faktların təhrif edilməsi kimi qiymətləndirmək olmaz. Bu, daha çox zorakılıq qurbanlarının zorakılıq faktları barədə susmasının (o cümlədən barışığa məcbur edilərək şikayətdən imtina etməsinin) nəticəsidir. Lakin məişət zorakılığı ilə bağlı cinayətlərin statistikasına təkcə zorakılıq qurbanlarının zorakılıq halları barədə məlumatları gizlətməsi deyil, eyni zamanda zorakılıq cinayətlərinin bir çoxunun ictimai-xüsusi ittiham qaydasında təqib olunan cinayətlərə aid edilməsi, məişət zorakılığı cinayətlərinin sübut edilməsi ilə bağlı çətinliklər və belə cinayətlərlə bağlı işlərin təhqiqatı və istintaqını aparan səalhiyyətli şəxslərin həmin cinayətlərin spesifikliyini nəzərə ala bilməməsi kimi amillər də təsir göstərir. Konkret cinayətlərin timsalında bunu daha aydın görmək mümkündür.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin (CPM) 37-ci maddəsinə əsasən, CM-nin məişət zorakılığı cinayətlərini də əhatə edən 127, 128, 129.2, 133, 134, 149.1, 150.1, 151, 176-1-ci maddələrində göstərilən cinayətlərə görə ictimai-xüsusi ittiham qaydasında cinayət təqibi zərər çəkmiş şəxsin şikayəti əsasında və ya prokurorun təşəbbüsü ilə həyata keçirilir. CPM-in 37.5-ci maddəsi zərər çəkmiş şəxsin şikayəti olmadan ictimai-xüsusi ittiham qaydasında cinayət təqibinin prokuror tərəfindən yalnız aşağıdakı hallarda başlanıla bildiyini müəyyənləşdirir: törədilmiş cinayət dövlətin və ya cəmiyyətin mənafeyinə toxunduqda; cinayət hakimiyyət nümayəndəsi və ya dövlət orqanlarının digər vəzifəli şəxsləri tərəfindən, yaxud onlara qarşı törədildikdə; cinayət hamilə vəziyyətdə olan qadın, qoca və köməksiz vəziyyətdə olan şəxs barəsində törədildikdə; cinayət hədə-qorxu, məcburiyyət təsiri altında və ya onu törətmiş şəxsdən asılı vəziyyətdə olan digər şəxs barəsində törədildikdə; cinayət fəaliyyət qabiliyyəti olmayan və ya cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış şəxs tərəfindən və ya ona qarşı törədildikdə.

Göründüyü kimi, CPM-nin 37.5-ci maddəsi cinayətin "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanunun şamil edildiyi şəxslər barəsində törədilməsini birbaşa nəzərə almır. Bu norma qiymətləndirməni prokurorun ixtiyarına verir və subyektiv yanaşmalar üçün əsas yaradır. Halbuki CPM-nin 37.5-ci maddəsinə cinayətin "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun şamil edildiyi şəxs barəsində törədilməsi" bəndinin əlavə olunması belə subyektiv yanaşmanı istisna edə bilərdi.

CM-nin 73.2-ci maddəsinə əsasən, həmin Məcəllənin 127.1, 128, 129, 130, 131.2, 133.1, 134, 142.1, 143, 156.1, 157.1 və 158.1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir. Göründüyü kimi, bu maddədə nəzərdə tutulan əməllərin bir çoxu məişət zorakılığı zəmnində törədilən cinayətləridir. Araşdırmalar göstərir ki, məişət zorakılığına məruz qalmış şəxslər bir çox hallarda barışığa məcbur edilirlər. Bu baxımdan bir çox beynəlxalq təşkilatlar barışıq əsasında cinayət təqibinə xitam verməninin əleyhinədir.[44]

44 Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiya (*İstanbul Konvensiyası*), maddə 55. Full list (coe.int)

2021-ci il avqustun 3-də Sevinc Məhərrəmovanın əri tərəfindən paytaxtın Xəzər rayonu, Zirə qəsəbəsi ərazisində öldürülməsi barışığa məcburetmənin ağır fəsadlarının bariz nümunəsidir. S.Məhərrəmova əri tərəfindən dəfələrlə ağır fiziki zorakılığa məruz qalsa da, yalnız məsələ ictimailəşdirildikdən sonra polis araşdırmalara başlayıb. Qadın 3 dəfə əri ilə barışmağa məcbur edilib. Barışığa təşviq etmədə polisin də rolu olub. Əslində polis barışığa təşviq etməkdənsə, yerli icra hakimiyyəti orqanına məlumat verməli, ailəni münaqişəli ailə kimi nəzarətə götürməli, davamlı olaraq ailəyə baş çəkməli idi. Məsələ burasındadır ki, S.Məhərrəmova dəfələrlə ağır fiziki zorakılığa məruz qalsa da, mühafizə orderi verilməyib, barışıq problemin həll olunmasının yeganə yolu kimi seçilib.

**Zibeydə Zəkəryəyeva**
**Vəkil**

❖ ❖ ❖

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 39-cu maddəsində "zərər çəkmiş şəxslə barışmaqla bağlı inzibati məsuliyyətdən azad etmə" ilə bağlı müvafiq normalar nəzərdə tutulmuşdur.

Belə ki, İnzibati Xətalar Məcəlləsinin 157-ci (döymə) və 158-ci (məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulması) maddələrində nəzərdə tutulmuş inzibati xəta haqqında işlər üzrə icraat yalnız zərər çəkmiş şəxsin ərizəsinə əsasən başlanır. Zərər çəkmiş şəxslə barəsində inzibati icraat aparılan şəxs barışdıqda isə həmin iş üzrə icraata xitam verilir. Göründüyü kimi, qanunvericilikdə məişət zorakılığına məruz qalan şəxsin qarşı tərəflə barışması əsas meyar kimi qəbul olunur.

Gələcəkdə işin hallarından asılı olaraq, ailə-məişət zəminində baş vermiş hüquqpozmaların araşdırılması zamanı zərər çəkmiş şəxsin şikayətinin olub-olmamasından asılı olmayaraq təqsirləndirilən şəxs barəsində materialların tamamalanmasını özündə əks etdirən normativ hüquqi aktların qəbul edilməsi məqsədəmüvafiq hesab olunur.

**Rüstəm Nəsibov**
**Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisi**

CPM-in 21.3-cü maddəsinə əsasən, cinayət törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsiz olmasını sübuta yetirməyə borclu deyildir. İttihamı sübuta yetirmək, şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsi üçün irəli sürülən dəlilləri təkzib etmək vəzifəsi ittiham tərəfinin üzərinə düşür. Bu müddəa Azərbaycan Respublikası Konstitusiyanın 63-cü maddəsinin tələblərindən irəli gəlir. Həmin maddə müəyyən edir ki, hər kəsin təqsirsizlik prezumpsiyası hüququ vardır. Cinayətin törədilməsində təqsirləndirilən hər bir şəxs, onun təqsiri qanunla nəzərdə tutulan qaydada sübuta yetirilməyibsə və bu barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü yoxdursa, təqsirsiz sayılır. Şəxsin təqsirli olduğuna əsaslı şübhələr varsa, onun təqsirli bilinməsinə yol verilmir. Cinayətin törədilməsində təqsirləndirilən şəxs özünün təqsirsizliyini sübuta yetirməyə borclu deyildir.

Qeyd olunan qanunvericilik normaları ilə sübutetmə yükünün ittiham tərəfinin üzərinə düşməsi bir sıra məişət zorakılığı zəmnində törədilmiş cinayətlərindən zərər çəkmiş şəxslər üçün çətinliklər yaradır. Məsələn, öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə cinayətində (CM-nin 134-cü maddəsi) hədə şəxsiyyət üzərində psixi zorakılığın növü kimi çıxış edir. O, müxtəlif üsullarla – şifahi, yazılı, telefonla, jestlərlə ifadə oluna bilər və zərərçəkmişə bilavasitə və ya üçüncü şəxslər vasitəsilə çatdırıla bilər. Bu maddə üzrə cinayət tərkibinin mövcud olması üçün hədənin icra ediləcəyinə real əsaslar olmalıdır.[45]

[45] Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. Bakı, 2003. Səh.314

Təcrübə göstərir ki, məişət zorakılığından zərər çəkmiş şəxslərin ən çox rastlaşdığı problemlərdən biri onlara qarşı baş vermiş bir sıra cinayətləri sübut etmə ilə bağlıdır. İstər CM-nin 134-cü maddəsində, istərsə də digər maddələrində, məsələn, 133-cü (əzab vermə), 149-cu (zorlama), 150-ci (seksual xarakterli zorakılıq hərəkətləri), 151-ci (seksual xarakterli hərəkətlərə məcbur etmə) maddələrində nəzərdə tutulmuş cinayətlərin sübutu zərər çəkmiş şəxslər üçün çətinlik yaratdığından onların bir çoxu onlara qarşı törədilmiş cinayət əməlindən şikayət etməməyə üstünlük verirlər. Bu isə onların təkrar qurbana çevrilməsini şərtləndirən başlıca amillərdən biridir.

Bir sıra beynəlxalq təşkilatlar və ekspertlər hesab edirlər ki, zərər çəkmiş şəxsləri səmərəli şikayət qaydaları və hüquqi müdafiə vasitələri ilə təmin etmək üçün qanunvericilik qadınlara qarşı ayrı-seçkilik və zorakılıqla bağlı işlərdə şikayətçinin üzərindən sübut yükünü qaldırmalıdır.[46] Hesab edirik ki, bu, təqsirsizlik prezumpsiyası prinsipi ilə ziddiyyət yaratmaqla yanaşı, təcrübədə sui-istifadələr üçün şərait yarada və əsassız ittihamların ortaya çıxamasına səbəb ola bilər. Şübhəsiz ki, sübutetmə yükünün ittiham tərəfinin üzərində olması məişət zorakılığı zəmnində törədilən cinayətlərin sübutunu çətinləşdirir, lakin problemin həlli konkret cinayətlərin təhqiqatı və istintaqını aparan şəxslərin peşəkarlıq səviyyəsi ilə daha çox bağlıdır.

Məişət zorakılığı cinayəti kimi tövsif edilə biləcək bir sıra cinayətlərin sübutu ilə bağlı çətinliklər var. Məsələn, zorlama zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olmadır. Zor tətbiq etməklə hədələmə zərərçəkmiş şəxsə, onun yaxın qohumlarına, habelə zərərçəkmiş şəxsə əziz olan başqa şəxslərə qarşı fiziki zor tətbiq ediləcəyi ilə onları qorxutmada ifadə oluna bilər. Tətbiq edilən hədə real və bilavasitə həyata keçirilə bilən olmalıdır. Bunu sübut etmək çox çətindir, lakin mümkündür. Bu, təhqiqatçı və müstəntiqin peşəkarlığından asılıdır. Çünki sübutetmə yükü ittiham tərəfinin üzərindədir. Cinayət prosessual qanunverciliynə əsasən zərərçəkmiş şəxs də ittiham tərəfi hesab edilir. Sübut etmə yükünün ittiham tərəfinin üzərindən götürülməsi təqsirsizlik prezumpsiyası prinsipinə ziddir və gələcəkdə sui-istifadə halları və əsassız ittihamlar üçün zəmin yarada bilər.

**Rüstəm Zülfüqarov**
**Vəkil**

2012-ci ilədək “döymə” AR CM-də ayrıca maddə kimi təsbit olunmuşdur. 29 iyun 2012-ci il tarixli Qanunla həmin maddə Məcəllədən çıxarılmışdır. Hazırda “döymə” inzibati xəta hesab edilir və İnzibati Xətalar Məcəlləsinin (İXM) 157-ci maddəsində nəzərdə tutulmuşdur. İXM-in 157-ci maddəsinə əsasən, döymə və sair zorakı hərəkətlərlə qəsdən fiziki ağrı yetirməyə görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

Döymə fiziki zorakılığın ən çox yayılmış hallarından biridir. Döymə ilə bağlı inzibati xətaların statistikasının real mənzərəni əks etdirməsi mübahisəlidir. Bunun bir səbəbi döyülən şəxslərin bu xəta ilə bağlı şikayət etməməsidirsə, digər səbəbi isə döyülmə faktının sübutundakı çətinliklərlə bağlıdır.

[46] Azərbaycanda qadınların ədalət mühakiməsinə çıxışı üçün maneələr, hüquqi müdafiə vasitələri və ən yaxşı təcrübələr. 16808e9a28 (coe.int)

Fiziki zorakılığın ən geniş yayılmış forması döymədir. 2012-ci ilədək döymə cinayət hesab edilirdi. 2012-ci ildə qanunverciliyə edilmiş dəyişiklikdən sonra döymə inzibati xəta sayılır. Cinayət Məcəlləsinin liberallaşdırılması yaxşı hal olsa da, məişət zorakılığının spesifikliyi, ictimai təhlükəliliyi və daha çox döymə ilə müşaiyət olunması "Məişət zorakılığı haqqında" AR Qanunun şamil edildiyi şəxslərə münasibətdə döymənin cinayət əməli kimi, digər şəxslərə münasibətdə isə inzibati xəta kimi nəzərdə tutulması daha məqsədəuyğun olardı. Doğrudur, bu zaman zərər çəkdiyini iddia edən şəxslər tərəfindən sui-istifadə təşəbbüsləri ola bilər, lakin bunu qarşısını hüquq-mühafizə orqanları əməkdaşlarının peşəkarlığı ilə almaq mümkündür.

**Akif Əliyev**
**Vəkil**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 10.01.2001-ci il tarixli 07 saylı əmri ilə təsdiq edilmiş "Sağlamlığa zərər vurmanın məhkəmə-tibbi ekspertizası qaydaları"nın 21-ci bəndində göstərilir ki, döymə xəsarətin ayrıca xüsusi bir növünü təşkil etmir. Döymə dəfələrlə, çoxlu zərbələrin yetirilməsi ilə xarakterizə olunur. Döymə nəticəsində bədən xəsarətləri əmələ gələ bilər, ancaq döymə nəticəsində obyektiv aşkar edilə bilən xəsarətlər qalmaya da bilər. Əgər döymə nəticəsində obyektiv əlamətlər (iz) qalmırsa, onda məhkəmə-tibb eksperti rəydə müayinə olunanın şikayətlərinin, o cümlədən bədənin bu və ya başqa nahiyəsinin palpasiyasında (əlləmədə) ağrının olduğunu, xəsarətin obyektiv əlamətinin olmamasını qeyd edir və sağlamlığa zərər vurmanın dərəcəsini təyin etmir. Belə hallarda döymə faktının müəyyənləşdirilməsini təhqiqat, ilkin istintaq, prokurorluq və ya məhkəmə orqanları qeyri-tibbi sənədlər əsasında həyata keçirir.[47] Qaydalardan görünür ki, döymənin inzibati xəta faktı kimi müəyyənləşdirilməsi daha çox təhqiqat və istintaq orqanı əməkdaşının peşəkarlığı və səriştəsindən asılıdır. Dərinləşdirilmiş müsahibəyə cəlb edilmiş ekspertlərin bir çoxu hesab edir ki, döymənin çox geniş yayılmış məişət zorakılığı əməli olduğunu nəzərə alaraq, onun həm də cinayət qanunvericiliyində məişət zorakılığı cinayəti kimi xüsusi normada nəzərdə tutulması və ya inzibati xətaya görə məsuliyyətin ağırlaşdırılması daha məqsədəuyğun olardı.

Məişət zorakılığı qurbanlarının məruz qaldığı ciddi psixoloji zorakılıq formalarından biri təqibdir (qanunsuz izləmə). Bu, həm fiziki formada, həm də müxtəlif vasitələrdən (internet, sosial şəbəkələr, telefon və s.) istifadə etməklə həyata keçirilir. Təqib (stalking) artıq dünyanın bir çox ölkəsində cinayət sayılır, məsələn, Almaniya, Polşa, ABŞ, İngiltərə, Kanada, Avstraliya, Hindistan, Norveç və s. **(Bax: Əlavə 6).**

Məişət zorakılığı halları içərisində qadınların aborta məcbur edilməsinə çox rast gəlinir. Lakin mövcud cinayət qanunvericiliyində bu əməl kriminallaşdırılmamışdır. Cinayət Məcəlləsində "qanunsuz abort etmə" adlı 141-ci maddə var. Həmin maddədə nəzərdə tutulmuş cinayətin subyekti xüsusi tibbi təhsili olan həkim və xüsusi ali tibbi təhsili olmayan şəxs ola bilər. Bu maddə "Məişət zorakılığının qarşısının alınması haqqında" AR Qanunun şamil edildiyi şəxsləri (maddə 4) əhatə etmir. Bu səbəbdən də CM-də "aborta məcbur etmə"nin ayrıca cinayət əməli kimi nəzərdə tutulması məqsədəuyğun olardı.

[47] "Sağlamlığa zərər vurmanın məhkəmə-tibbi ekspertizası qaydaları". Sağlamlığa zərər vurmanın məhkəmə-tibbi ekspertizası qaydaları | De Jure

Təcrübədə aborta məcburetmə hallarına çox rast gəlinir, lakin bu kriminallaşdırılmamışdır. Cinayət Məcəlləsinin 141-ci maddəsi bu qanunazidd əməli əhatə etmir. Aborta məcbur etmə kifayət qədər ictimai təhlükəli əməldir. Bu səbəbdən də onun ya CM-nin 141-ci maddəsinə müstəqil norma kimi daxil edilməsinə, ya da CM-də ayrıca maddədə nəzərdə tutulmasına ehtiyac var.

**Bəhruz Kərimov**
**Hüquq üzrə fəlsəfə doktoru**

❖ ❖ ❖

Təcrübədə maddi çətinlik, qız uşağının arzu olunmaması, hamiləliyin nikahdan kənar baş verməsi və digər bu kimi hallar səbəbindən qadınların dölü abort etdirməsi ilə bağlı təzyiqlərlə üzləşməsi və abortun bəzi hallarda ananın sağlamlığını itirməsinə, hətta ölümünə belə səbəb olması baxımından əməlin ictimai təhlükəliliyi nəzərə alınmaqla CM-nə müvafiq maddənin əlavə edilməsi mümkündür.

**Azərbaycan Respublikası Baş Prokurorluğunun mövqeyi**

İXM-nin 158-ci maddəsi məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət müəyyən edir. Maddənin dispozisiyası iqtisadi və psixi zorakılıq hərəkətlərini nəzərdə tutur. İqtisadi və psixi zorakılıq kifayət qədər geniş yayılmış məişət zorakılığı növləridir. 158-ci maddə iqtisadi zorakılığa görə yüz manatdan üç yüz manatadək, psixi zorakılığa görə isə üç yüz manatdan beş yüz manatadək cərimə sanksiyasını nəzərdə tutur. Bu zorakılıq növlərinin, xüsusilə psixi zorakılığın ictimai təhlükəliliyi fiziki zorakılıqdan heç də az deyil, çünki təkcə fərdin deyil, cəmiyyətin də maraqlarına əhəmiyyətli ziyan vuran daha ağır fəsadlara gətirib çıxara bilir. Psixoloji zorakılığa demək olar ki, ailədə baş verən bütün zorakılıq hallarında rast gəlinir. Psixoloji zorakılıq depressiya və təşviş, qidalanma və yuxu pozuntuları, xəcalət və günah hissləri, fobiyalar və vahimə, fiziki apatiya, özünü aşağı qiymətləndirmə, posttravmatik stress pozuntuları, psixo-somatik pozuntular, intihar cəhdləri və özünə zərər yetirmə davranışı, təhlükəli cinsi davranış kimi təhlükəli nəticələrə səbəb olur.[48] İctimai təhlükəliliyi nəzərə alınaraq, psixoloji zorakılığa görə daha ağır sanksiyanın nəzərdə tutulmasına ehtiyac olduğu qənaətindəyik.

## 2.2. Ailə qanunvericiliyi

Məişət zorakılığına təkcə qadınlar deyil, eyni zamanda kişilər də məruz qalır. Ekspertlərin qənaətinə görə, kişilər daha çox psixoloji zorakılığın qurbanları olurlar. Bu baxımdan ədalət mühakiməsinə çıxış imkanları məişət zorakılığına məruz qalmış həm kişilər, həm də qadınlar üçün bərabər səviyyədə tanınmalıdır.

Azərbaycan Respublikasının Ailə Məcəlləsinin (Ailə Məcəlləsi) 15-ci maddəsi məişət zorakılığından zərər çəkmiş kişilərin məhkəməyə çıxış imkanlarını məhdudlaşdırır. Həmin maddəyə əsasən, arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ər nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz. Bu müddəa ayrı-seçkilik nümunəsidir və kişilərin ədalət mühakiməsinə çıxışını əngəlləyir.

Ailə Məcəlləsinin daha bir norması məişət zorakılığı qurbanlarının ədalət mühakiməsinə səmərəli çıxış imkanlarına maneə hesab oluna bilər. Məcəllənin 20-ci maddəsinə görə, ər-arvadın birgə yaşamasının və ailənin saxlanmasının qeyri-mümkünlüyü məhkəmə tərəfindən müəyyən edildikdə, nikah məhkəmə qaydasında pozulur. Tərəflərdən birinin nikahın pozulması haqqında razılığı olmadıqda, məhkəmə ər-arvadın barışması üçün 3 ay müddət müəyyən

[48] Ch_4.qxd (who.int)

etməklə işi təxirə sala bilər. Barışıq olmadıqda və ya onlar (onlardan biri) nikahın pozulmasında təkid etdikdə nikah pozulur.

Birincisi, normada qəti olaraq 3 ay müddətin müəyyənləşdirilməsi anlaşılan deyil. Çünki tərəflər arasındakı münasibətlərin xarakteri bütün hallarda eyni deyil. Əgər barışıq üçün müddətin müəyyənləşdirilməsi mütləq vacib hesab edilirsə, o zaman müddət tərəflər arasındakı münasibətlərin xarakterindən asılı olaraq müəyyənləşdirilə bilərdi (məsələn, 10 gün, 15 gün, 1 ay və s.). İkincisi, barışıq üçün 3 ay müddətin verilməsi məhkəmənin dispozitiv səlahiyyəti kimi müəyyənləşdirilib. Lakin məhkəmə təcrübəsi göstərir ki, tərəflərdən birinin nikahın pozulması haqqında razılığı olmadıqda, məhkəmə bütün hallarda ər-arvadın barışması üçün 3 ay müddət müəyyən edir. Bu təcrübə çox ciddi məişət zorakılığı hallarına, hətta adam öldürmə cinayətinə qədər gətirib çıxara bilər.

Məhkəmələrin ər-arvadın barışması üçün 3 ay müddət müəyyən etməsi təcrübəsi özünü doğrultmur. Bu, bəzən zorakılığın daha ağır fəsadlarına gətirib çıxarır. Müddət işin hallarından asılı olaraq müəyyənləşdirilməlidir. Əgər müddət müəyyənləşdirilməsi zəruri hesab edilirsə, bu zaman hər iki tərəflə işləmək üçün psixoloqlar və sosial işçilər cəlb olunmalıdır. Eyni zamanda hesab edirəm ki, problemin qarşısını almaq üçün hələ nikaha daxil olmamışdan öncə nikaha daxil olmaq istəyən şəxslər psixoloji testdən keçirilməli, əgər nikahı riskə ata biləcək hər hansı psixoloji problem aşkar olunarsa, cütlüklərin reabilitasiya proqramına cəlb olunması təmin edilməlidir.

**Mehriban Zeynalova**
**"Təmiz Dünya" Qadınlara Yardım İB**

2021-ci ilin iyul ayından qüvvəyə minən "Mediasiya haqqında" AR Qanunun[49] 28.1-ci maddəsinə əsasən, ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl tərəflər ilkin mediasiya sessiyasında iştirak etməlidirlər. Bu norma yeni olduğundan onun tətbiqi təcrübəsini, məişət zorakılığı qurbanlarının məhkəməyə çıxışına təsirini qiymətləndirmək hələlik mümkün deyil. "Hüquq təşəbbüsü"nün[50] ailədə zorakılıqla mübarizənin dünya təcrübəsi haqqında hesabatına əsasən, ailə işləri üzrə proseslərdə mediasiyanın bütün növləri aşağı effektivlik göstərib. Mediasiya problemi həll etmək əvəzinə tarixi silməyə xidmət edir. İştirakçılar "hər şey yaxşı olacaq" fikri ilə razılaşmaq və uşaqların naminə əməkdaşlıq etmək məcburiyyətində qalırlar. Zorakı şəxs özü üçün hər hansı mənfi nəticə görmədikcə zorakılıq davam edəcək. Ölkələrin tədqiq olunmuş təcrübəsi göstərir ki, zorakılığın ağırlıq dərəcəsi də artacaq.[51]

"Məişət zorakılığının qarşısının alınması haqqında" AR Qanuna əsasən, zərər çəkmiş şəxsə qısamüddətli və ya uzunmüddətli mühafizə orderi verilə bilər. Qısamüddətli mühafizə orderi müvafiq icra hakimiyyəti orqanı (rayon icra hakimiyyəti orqanı), uzunmüddətli mühafizə orderi isə məhkəmə tərəfindən verilir. Məişət zorakılığı ilə bağlı hərəkətləri törətmiş şəxs verilmiş xəbərdarlığa əməl etmədikdə, zərər çəkmiş şəxs və ya müvafiq icra hakimiyyəti orqanı uzunmüddətli mühafizə orderinin verilməsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (MPM) 305-ci maddəsinə əsasən, məişət zorakılığından zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi haqqında işlərə xüsusi icraat qaydasında baxılır

Mühafizə orderlərinin verilməsinin qanunvericilikdə nəzərdə tutulması yaxşı hal olsa da, onun verilməsi şərtləri və prosedurları təcrübədə, xüsusilə nikahın pozulması və uşaqlarla

[49] 1555-VQ - Mediasiya haqqında (e-qanun.az)

[50] Stichting Justice Initiative (srji.org)

[51] «Если государство хочет решить проблему домашнего насилия, нужно выделить на это деньги». Доклад «Правовой инициативы» о мировом опыте борьбы с насилием в семье (zona.media)

bağlı mübahisələr zamanı ciddi problemlər yaradır. Bu baxımdan, həmin mübahisələr üzrə məhkəmələrə tətəflərin münasibətlərinin xarakterini nəzərə alaraq hazırlıq iclasında mühafizə orderi barədə qərar qəbul etmək səlahiyyətinin verilməsi daha məqsədəuyğun olardı. Qətllə nəticələnən bir çox məişət zorakılığı halları buna kifayət qədər əsas yaradır.[52]

Hesab edirəm ki, mühafizə orderlərinin müddətinin artırılmasına ehtiyac var. Qısamüddətli mühafizə orderi ən azı 1 illik verilməlidir. Uzunmüddətli mühafizə orderlərinin də müddəti artırılmalıdır. Əgər məişət zorakılığı halı təkrarlanarsa, o zaman mühafizə orderinin ömürlük verilməsi imkanı qanunvericilikdə nəzərdə tutulmalıdır. Hindistanda belə bir təcrübə var. Qısamüddətli mühafizə orderinin tələblərinin pozulması uzunmüddətli mühafizə orderinin verilməsi üçün ilkin şərt hesab edilməməlidir.

**Məhluqə Rəhimova**
**"Əlil Qadınlar Cəmiyyəti" İctimai Birliyi**

❖ ❖ ❖

Mühafizə orderinin verilməsi bütün hallarda məhkəmənin səlahiyyətində olmalıdır. Praktika göstərir ki, icra hakimiyyəti orqanları mühafizə orderi verməkdə maraqlı deyillər. Onlar hesab edirlər ki, mühafizə orderlərinin sayının çox olması yaxşı hal deyil. Mühafizə orderinin müddətinin uzadılmasında problemlərlə qarşılaşırıq. Mühafizə orderləri qısamüddətli və uzunmüddətli orderlərə bölünməməlidir, müddətsiz verilməli və ona yalnız qurbanın razılığı ilə xitam verilməlidir.

**Zenfira Mustafayeva**
**"Qadın təşəbbüsü və sosial problemlərin həllinə yardım" İB**

❖ ❖ ❖

Tədqiqat və istintaq orqanlarının predmetinə çevrilmiş müraciətlər araşdırılarkən cinayət tərkibi yaratmadığına görə rədd edilmiş materiallar üzrə bildirişlər gələcəkdə belə hadisələrin təkrarlanmaması məqsədilə yerli icra hakimiyyəti orqanlarına göndərilərək zərərçəkmişin və yaxın qohumlarının razılığı əsasında qısamüddətli mühafizə orderlərinin verilməsi təmin edilir.

Baş vermiş hadisələr üzrə araşdırmaların polis orqanlarında aparılması və məişət zorakılığından zərər çəkmiş şəxslərin ilkin olaraq polis əməkdaşları ilə təmasda olması nəzərə alınaraq, gələcəkdə qısamüddətli mühafizə orderlərinin verilməsi səlahiyyətinin icra hakimiyyəti orqanları ilə yanaşı, polis orqanlarına da həvalə edilməsi məqsədəmüvafiq hesab edilir.

**Rüstəm Nəsibov**
**Daxili İşlər Nazirliyi Baş İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisi**

Ailə Məcəlləsinin 37.2-ci maddəsinə əsasən, ayrı-ayrı hallarda məhkəmə yetkinlik yaşına çatmayan uşaqların mənafeyini və (və ya) ərin (arvadın) diqqətəlayiq mənafeyini, o cümlədən ər-arvaddan biri üzürsüz səbəbdən gəlir əldə etmədiyi və ya birgə mülkiyyəti ailənin mənafeyinə zidd olaraq sərf etdiyi hallarda nəzərə alıb onların birgə mülkiyyətinin bölünməsi zamanı payları bərabər bölməyə bilər. Bu norma da dispozitiv xarakterlidir və təcrübədə nikah pozulduqdan sonra uşaqları yanında qalan tərəfin (ər və ya arvadın) maraqlarına uyğun olmayan qərarların qəbuluna gətirib çıxarır. Məsələn, məhkəmə qərarı ilə nikah pozulduqdan sonra 2 və ya 3, yaxud daha çox yetkinlik yaşına çatmayan uşağı yanında qalan ərə (arvada) birgə mülkiyyətdən

---

[52] Yeni xəbər Real TV-də Azərbaycanda DƏHŞƏT: kişi məhkəmənin qarşısında arvadını qətlə yetirdi (musavat.com)
Boşanmaq istəyən arvadını 10 bıçaq zərbəsi ilə öldürdü — Bakıda dəhşətli qətl (qafqazinfo.az)
Qeyd: Mətbuatda qətllə nəticələnən məişət zorakılığı halları ilə bağlı çoxsaylı məlumatlar dərc olunur. İstinadda verilən məlumatlar onların kiçik bir qismini təşkil edir və nümunə olaraq verilib.
Hədələnən, qətlə yetirilən qadınlar… – Ən böyük təhlükə yaxınlarıdır (qafqazinfo.az)

bərabər pay ayrılması ədalətli yanaşmanı özündə əks etdirmir. Bu səbəbdən də yetkinlik yaşına çatmayan uşaqların mənafeyini daha yaxşı nəzərə almaq məqsədilə həmin normanın imperativ norma kimi təsbit edilməsinə ehtiyac var.

## 2.3. Qanunvericiliyin və məhkəmə qərarlarının icrası praktikası

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanuna əsasən, məişət zorakılığı barədə şikayətdə törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlar olduqda həmin şikayətlərə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada baxılır. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətə yerli icra hakimiyyəti orqanları tərəfindən baxılır. Dövlət və yerli özünüidarə orqanlarının vəzifəli şəxsləri, yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar, qəyyumluq və himayə orqanları, təhsil və səhiyyə müəssisələri, yardım mərkəzləri xidməti vəzifələrinin həyata keçirilməsi zamanı məişət zorakılığının törədilməsi barədə aldığı şikayətləri yerli icra hakimiyyəti orqanlarına təqdim edirlər.

Yerli icra hakimiyyəti orqanı tərəfindən şikayətə baxılmasının nəticələrindən asılı olaraq qərarlar qəbul olunur. Bu qərarların sırasına məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi və zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməsi, məişət zorakılığı ilə bağlı hərəkətlər törətmiş şəxsin qanunvericiliklə müəyyən olunmuş qaydada valideynlik hüququndan məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması ilə bağlı məhkəməyə müraciət edilməsi, zərər çəkmiş şəxsə uzunmüddətli mühafizə orderinin verilməsi ilə əlaqədar məhkəməyə müraciət edilməsi, zərər çəkmiş şəxsin yardım mərkəzində sığınacaqla təmin edilməsi və s. daxildir.

Araşdırmaların nəticələri və statistik məlumatlar belə qənaətə gəlməyə əsas verir ki, "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunun icrasının təmin edilməsi istiqamətində müəyyən addımlar atılsa da, icra vəziyyətini qənaətbəxş hesab etmək olmaz. AR Ədliyyə Nazirliyindən AQUPDK-ya daxil olmuş məlumata əsasən, 2020-ci il ərzində məişət zorakılığından zərərçəkmiş şəxslərə məhkəmələr tərəfindən 2 uzunmüddətli (Bakı şəhəri Sabunçu rayonu və Tərtər rayonu üzrə), yerli icra hakimiyyəti orqanları tərəfindən isə 38 qısamüddətli mühafizə orderi təqdim olunmuşdur.

**Məişət zorakılığından zərərçəkmiş şəxslərə qısamüddətli mühafizə orderləri vermiş yerli icra hakimiyyəti orqanları**

| № | Yerli icra hakimiyyətləri | Mühafizə orderlərinin sayı |
|---|---|---|
| 1. | Bakı Şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti | 1 |
| 2. | Bakı Şəhəri Qaradağ Rayon İcra Hakimiyyəti | 1 |
| 3. | Bakı Şəhəri Xəzər Rayon İcra Hakimiyyəti | 2 |
| 4. | Bakı Şəhəri Səbail Rayon İcra Hakimiyyəti | 2 |
| 5. | Bakı Şəhəri Suraxanı Rayon İcra Hakimiyyəti | 2 |
| 6. | Bakı Şəhəri Nəsimi Rayon İcra Hakimiyyəti | 3 |
| 7. | Bakı Şəhəri Nizami Rayon İcra Hakimiyyəti | 3 |
| 8. | Bakı Şəhəri Sabunçu Rayon İcra Hakimiyyəti | 14 |

| | | |
|---|---|---|
| 9. | Siyəzən Rayon İcra Hakimiyyəti | 1 |
| 10. | Saatlı Rayon İcra Hakimiyyəti | 1 |
| 11. | Xızı Rayon İcra Hakimiyyəti | 1 |
| 12. | Sumqayıt Şəhər İcra Hakimiyyəti | 1 |
| 13. | Mingəçevir Şəhər İcra Hakimiyyəti | 1 |
| 14. | Salyan Rayon İcra Hakimiyyəti | 5 |

Təqdim edilən siyahıdan da görünür ki, mühafizə orderlərinin sayı ilə bağlı göstəricilər real vəziyyəti adekvat əks etdirmir. Məsələn, Azərbaycanın ən böyük şəhərlərindən biri olan Gəncənin, Lənkəran, Şirvan, Şəki kimi ərazi vahidlərinin siyahıda yer almaması onu göstərir ki, “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunnun icrası ilə bağlı ciddi problemlər mövcuddur.

Məişət zorakılığından zərər çəkmiş şəxslərə göstərilən xidmətlərlə bağlı da eyni vəziyyət müşahidə edilir. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən AQUPDK-ya daxil olmuş məlumatda 2020-ci il ərzində məişət zorakılığından zərərçəkmiş yanlız 6 nəfər qadına xidmət göstərilməsi əks olunmuşdur. Onlardan 4-ü fiziki zorakılıq, 2-si isə fiziki və iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərdən zərər çəkmişdir.

Məişət zorakılığından zərər çəkmiş şəxslərə ödənişsiz dövlət yardım mərkəzi (Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində *Sosial Xidmətlər Agentliyinin tabeliyində olan İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi)* tərəfindən 4 nəfərə tibbi, 3 nəfərə hüquqi, 2 nəfərə isə psixoloji aşağıdakı yardım göstərilmişdir. Bundan əlavə, 2 nəfər peşə kursuna, 1 nəfər isə məşğulluğunun təmin edilməsi üçün yönləndirilmişdir.

“Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunun 6.3-cü maddəsinə əsasən, məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayət yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır. Qanunun bu tələbi formal baxımdan məişət zorakılığından zərər çəkmiş şəxsin iradəsinə uyğun davranışı özündə əks etdirsə də, məcburiyyət qarşısında şikayətdən imtina kimi ehtimalı böyük olan reallığı nəzərə almır. Araşdırmalar göstərir ki, şikayət etmiş zorakılıq qurbanlarının bir çoxu yaxınlarının təzyiqi nəticəsində şikayətdən imtina etmək məcburiyyətində qalır. Bu səbəbdən də şikayətdən imtinada, xüsusilə əlilliyi olan şəxslərə və uşaqlara münasibətdə məcburiyyət amilinin olub-olmamasının səlahiyyətli orqanlar tərəfindən araşdırılmasına ehtiyac olduğu qənaətindəyik.

Məişət zorakılığından zərər çəkmiş şəxslərin rastlaşdıqları ən ciddi məsələlərdən biri də aliment öhdəliklərinin icrası ilə bağlıdır. Alimentin ödənilməməsi məişət zorakılığından zərər çəkmiş şəxsi yenidən məhkəməyə müraciət etmək məcburiyyətində qoyur. Yenidən məhkəməyə müraciət aliment öhdəliyinin birmənalı olaraq icra ediləcəyinə təminat vermir. Nəticədə məişət zorakılığından zərər çəkmiş şəxsin əlavə maddi itkilərə, psixoloji sarsıntılara məruz qalmasına gətirib çıxarır. Bu səbəbdən də dövlət tərəfindən aliment fondunun təsis edilməsi, aliment məbləğinin həmin fonddan ödənilməsi, dövlətin borclu şəxsə qarşı tələbkar kimi çıxış etməsi daha məqsədəuyğun olardı. Aliment fondunun təsis edilməsi həm zərər çəkmiş şəxsləri növbəti məhrumiyyətlərdən azad edə, həm də məhkəmə qərarlarının icrası prosesinin sürətləndirilməsinə, onun keyfiyyət və səmərəliliyinin artmasına səbəb ola bilər.

Aliment öhdəliklərinin icrasında ciddi problemlər var. Bu təkcə aliment öhdəliyi olan şəxslərin öhdəliyin icrasından qəsdən yayınması ilə bağlı deyil. Bir çox hallarda həmin şəxslərin maddi imkansızlıq səbəbindən həqiqətən də öhdəliyi yerinə yetirmək imkanları olmur və bu zaman öhdəliyin icrasının təmin edilməsinə yönəlik tədbirlər də heç bir effekt vermir. Ona görə də aliment fondunun yaradılması vacibdir. Aliment fondunun yaradılması ilə yanaşı dövlətin aliment öhdəliyi olan şəxslərin ödəmə qabiliyyətini təmin etmək üçün xüsusi proqramı olmalıdır. Məsələn, həmin şəxslər ictimai işlərə cəlb oluna və ya onların məşğulluğu başqa formalarda təmin edilə bilər.

**Əsabəli Mustafayev**
**Vəkil**

Bir sıra hallarda məişət zorakılığından zərər çəkmiş şəxslər nikahın pozulması zamanı uşaqlarla bağlı ortaya çıxan mübahisələr üzrə məhkəmə qərarlarının icrası zamanı da problemlə üzləşirlər. Ər-arvad arasındakı mübahisələr zamanı bir çox hallarda uşaqlardan sui-istifadə olunur. Uşaqlar yanında qaldıqları valideynləri (əksər hallarda ataları) tərəfindən ağır və davamlı psixoloji təsir altında digər valideyninə (əsasən anaya) qarşı nifrət ruhunda "tərbiyə" olunurlar və bu, həm iddianın təmini tədbiri kimi məhkəmə qərardadlarının, həm də məhkəmə qətnamələrinin uşaqlarla bağlı hissəsinin icrasını çətinləşdirir. Bu səbəbdən də nikahın pozulması ilə bağlı məhkəmə mübahisəsi zamanı prosesə təxirə salınmadan psixoloqların məcburi cəlbinə ehtiyac var.

Məhkəmə qərarlarının icrası prosesində bilavasitə uşaqların mənafeyinə toxunan çox ciddi problemlər ortaya çıxır. Uşaqların hansı valideynin yanında qalması məsələsi həll olunanadək uşaq çox ciddi psixoloji təsirlərə məruz qalır.

Mənzilə köçürülmə, əmlak bölgüsü və s. kimi məslələrlə bağlı məhkəmə qərarlarının icrası zamanı da yaranan problemlər uşaqlara təsirsiz ötüşmür. Belə ki, bu qərarların icra olunmaması nəticəsində uşaqlar yanında qaldıqları valideyi ilə birlikdə ağır şəraitdə yaşamağa məcbur olurlar. Bu səbəbdən də icra işinin keyfiyyətinin artırılmasına, o cümlədən icra məmurlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsinə ehtiyac var.

**Fariz Əkbərov**
**Azərbaycan Uşaqlar Birliyinin hüquqşünası**

Məişət zorakılığından zərər çəkmiş şəxslər, bir qayda olaraq qadınlar birgə nikah dövründə əldə edilmiş əmlakın bölgüsü zamanı da çətinliklərlə rastlaşırlar. Belə ki, bir sıra hallarda nikahı pozulmuş məişət zorakılığı qurbanı əmlak bölgüsü nəticəsində hər hansı əmlaka sahib olmaq imkanınından məhrum olur. Bunun əsas səbəbi birgə nikah dövründə əldə edilmiş əmlakın digər şəxslərin adına rəsmiləşdirilməsi, əvvəlcədən nikahı pozmaq niyyətində olan tərəfin (bir qayda olaraq ərin) müxtəlif vəd və bəhanələrlə digər tərəfin razılığını almaqla birgə nikah dövründə əldə edilən əmlakı özgəninkiləşdirməsidir. Məhkəmə təcrübəsində bu halların dəqiq araşdırılması və zorakılıq qurbanının maraqlarına uyğun düzgün qərarın qəbul edilməsi üçün məhkəmələrin bütün mümkün prosessual vasitələrdən istifadə etməsi olduqca vacibdir.

Qüvvədə olan cinayət prosessual qanunvericilikdə məişət zorakılığı ilə bağlı cinayətlərin təhqiqatı və istintaqı, eləcə də məhkəmə prosesləri zamanı məişət zorakılığından zərər çəkmiş şəxslərin xüsusi ehtiyaclarını nəzərə alan və onları təkrar qurbana çevrilmək təhlükəsindən qoruyan xüsusi normalar yoxdur. Doğrudur, CPM-in 2-ci fəslində ("Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri") bir sıra mühüm prinsiplər (Qanunçuluq (maddə 10), Hər

kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi (maddə 11), Konstitusiya ilə təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması (maddə 12), Şəxsin şərəf və ləyaqətinə hörmət edilməsi (maddə 13), Şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi (maddə 15), Şəxsi həyatın toxunulmazlığı hüququnun təmin edilməsi (maddə 16) və s.) müəyyən edilmişdir, lakin bu prinsiplər ümumi xarakterlidir və məişət zorakılığı qurbanlarının spesifik ehtiyaclarını nəzərə almır. Bunun nəticəsidir ki, istər ibtidai istintaq, istərsə də məhkəmə prosesləri zamanı bir çox hallarda zərər çəkmiş şəxs ilə təqsirləndirilən şəxs arasında təmasın qarşısının alınması üçün lazımi tədbirlər görülmür, bu isə zərər çəkmiş şəxs üçün potensial təhlükə yaradır.

İbtidai istintaq və məhkəmə prosesləri zamanı məişət zorakılığına məruz qalmış şəxslərin təhlükəsizliyi kifayət qədər nəzərə alınmır, onların təkrar fiziki və psixoloji zorakılığın qurbanına çevrilmək riski qalır. İştirak etdiyim məhkəmə proseslərindən birində öz qızına qarşı cinsi zorakılıq etmiş ata ilə qızı eyni məhkəmə zalında dindirilirdi. Ata zərərçəkmiş qızının həssas duyğularına toxunan sözlərlə ona təsir etməyə çalışırdı. Bu praktikaya son qoyulmasına böyük ehtiyac var.

**Fariz Əkbərov**
**Azərbaycan Uşaqlar Birliyinin hüquqşünası**

Bunu nəzərə alaraq, hüquq mühafizə orqanları zərər çəkmiş şəxslə həssas şəkildə iş aparmalıdırlar. Məhkəmədə sübutların tətbiqi üsullarına, xüsusilə də zərər çəkmiş şəxsin sarsıntısını və stressini azalda biləcək metodlara diqqət yetirilməlidir. Məsələn, sübut qismində zərər çəkmiş şəxsin əvvəlcədən qeydə alınmış video ifadəsindən istifadə etmək, video rabitəsi və ya təhlükəsizlik-müşahidə (qapalı dövrəli) televiziyası vasitəsilə başqa bir otaqdan ifadə almaq və s.

Hüquq mühafizə orqanları qətimkan tədbirlərinin seçilməsi, cəza təyin etmə, cəzadan azad etmə və s. kimi məslələrlə bağlı qərar qəbul edərkən risk qiymətləndirilməsinə əsaslanmalıdırlar. Əks halda zərər çəkmiş şəxsin yenidən qurbana çevrilmə ehtimalı yüksək olaraq qalacaq.

Məişət zorakılığı ilə bağlı işlər üzrə məhkəmə prosesində erkən mərhələdə polis tərəfindən risk qiymətləndirilməsi aparılmalıdır, ədliyyə orqanları arasında əlaqələndirməni və zərər çəkmiş şəxslərin iştirakını tələb edən prosesdən ibarət məhkəmə qərarlarının yenilənməsi vacibdir. Hakimlər azadlığa buraxılma şərtlərinə dair qərar verərkən təqsirləndirilən şəxsin təhlükəli olması barədə ekspert hesabatlarına əsaslanır. Həbs qətimkan tədbirinin seçilməsini nəzərdən keçirən zaman zərər çəkmiş şəxsə qarşı həbsxanadan zərər yetirmək üçün edilən təhdidlər nəzərə alınmalıdır. Zərər çəkmiş şəxslərə və ailə üzvlərinə qarşı təhlükə mövcud olduğu hallarda hakimlər təqsirləndirilən şəxsin həbsdən qaçması və ya müvəqqəti və ya həmişəlik azadlığa buraxılması barədə zərər çəkmiş şəxslərin məlumatlandırılmasını təmin etməlidirlər.

**Dr Şazia Çoudri. Qadınların ədalət mühakiməsinə çıxışıı praktik hüquqşünaslar üçün bələdçi. 16809c8283 (coe.int)**

## 2.4. Ədalət mühakiməsinə çıxışda sosial-iqtisadi və mədəni maneələr

Araşdırmalar göstərir ki, məişət zorakılığından zərər çəkənlərin ədalət mühakiməsinə çıxış imkanlarını məhdudlaşdıran səbəblər içərisində sosial-iqtisadi və mədəni maneələr mühüm yer tutur. Bunlara maliyyə resurslarına əlçatanlığın aşağı olmasını, iqtisadi asılılığı, gender stereotiplərini, hüquqlara dair məlumatlılığın az olmasını və s. aid etmək olar.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2019-cu ildə iqtisadi fəal əhalinin sayı 5190100 nəfər olmuşdur. Onlardan 2526000 nəfərini qadınlar, 2664100 nəfərini isə kişilər təşkil etmişdir. Beynəlxalq Əmək Təşkilatının metodologiyasına əsasən, işsiz qadınlar 144300 nəfər, işsiz kişilər isə 107300 nəfər olmuşdur. İşsiz qadınların 30700 nəfərinə, kişilərin isə 50600 nəfərinə işsiz statusu verilmişdir (Dövlət məşğulluq agentliyinin yerli qurumlarında qeydiyyata alınmış işsiz şəxslərin sayı).[53]

Göründüyü kimi, iqtisadi fəal əhali göstəricisində kişilər və qadınlar arasında kəskin fərq olmasa da, işsizlik göstəricisində ciddi fərq mövcuddur. Nəzərə alsaq ki, məişət zorakılığında zərər çəkənlərin böyük əksəriyyətini qadınlar təşkil edir (***Bax: Əlavə 1***) və işsizlik göstəricisindəki fərq rəsmi məlimatları əhatə edir, o zaman qeyd olunan iqtisadi amilin məhkəməyə çıxış imkanlarına təsirinin əhəmiyyətli olduğunu görərik.

İşsizlər arasında qadınların payının yüksək olması Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 30 oktyabr tarixli 602 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”nda da qeyd olunur. Strategiyada qeyd edilir ki, işsizlər arasında qadınların və gənclərin payının yüksək olması əmək bazarında müşahidə edilən əsas problemlərdəndir. Son on ildə 15-24 yaşlı gənclər arasında işsizlik səviyyəsi nisbətən azalaraq 2017-ci ildə 12,9 faiz (qadınlar arasında 14,9 faiz) təşkil etmişdir və bu, ölkə üzrə orta göstəricidən 2,6 dəfə çoxdur. 15-29 yaşlı gənclər arasında isə bu göstərici 2017-ci ildə 9,2 faiz (qadınlar arasında 11,0 faiz), yəni ölkə üzrə orta göstəricidən 1,8 dəfə çox olmuşdur.[54]

Əmək bazarında müşahidə olunan problem gender stereotipləri ilə də sıx bağlıdır. 2018-2023-cü illər üçün Avropa Şurasının yeni gender strategiyasında bu amilə xüsusi diqqət yetirilir. Strategiyada qeyd olunur ki, struktur bərabərsizlikləri və qadınlara və kişilərə, qızlara və oğlanlara təsirini göstərən davamlı gender stereotipləri təhsil və uşaq bağçaları sistemində mövcud olmaqda davam edir və bütün əmək bazarına nüfuz edir. Əmək bazarında horizontal təcridetmə açıq-aydın görünür: müəyyən peşələrdə və iqtisadi fəaliyyətin müəyyən sahələrində (məsələn, elm və texnologiyalar sahəsində, ağır sənayedə, tikintidə, orduda) təmsil olunmada kişilər böyük üstünlüyə malikdirlər. Eynilə, digər fəaliyyət sahələrində qadın işçi qüvvəsi üstünlük təşkil edir (çox zaman bunlar az ödənişli işlər olur, məsələn, dayəlik xidmətləri, təhsil sahəsi, katiblik və ya ofis işi, tibb bacısı xidmətləri və ya insan resursları (kadrlar) bölmələri). Əksər hallarda qadınların ənənəvi qulluqçu rolunu özündə əks etdirən peşə seçimi imkanlarına stimullaşdırıcı addımlar, pozitiv siyasət və qanunvericilik tədbirləri, məsələn, atalıq məzuniyyəti öz təsirini göstərə bilər ki, bununla da "ənənəvi" qadın peşələri sayılan peşələrdə çalışan kişilər digər kişilər üçün nümunə rolunu oynaya bilərlər. Əmək bazarında vertikal təcridetmə də açıq-aşkardır. Eyni sektorda, hətta qadınlar üstünlük təşkil etsələr belə, adətən əməkhaqqı və iyerarxiya baxımından daha yüksək vəzifələri kişilər tutur, iyerarxiya və əməkhaqqı baxımından daha aşağı işləri isə qadınlar yerinə yetirirlər (məsələn, təhsil və pərakəndə satış sahələrində). Bu hal əsas etibarı ilə evdarlıq və qulluqçuluq vəzifələrinin qeyri-mütənasib dərəcədə çox hissəsinin qadınların üzərinə düşməsinin, təhsil və peşə seçimlərində gender qərəzliliyinin və stereotiplərinin nəticəsidir ki, bu da həm kişilərə, həm də qadınlara öz təsirini göstərir.

---

[53] Əmək bazarı | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

[54] 602 - “2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası”nın təsdiq edilməsi haqqında (e-qanun.az)

Gender stereotipləri qadınların iqtisadi və sosial həyatdan kənarlaşdırılmasını daimiləşdirir. Onlar ödənişsiz ev təsərrüfatı və ailə üzvlərinə qulluq vəzifələrinin və az ödənişli və ya qeyri-rəsmi işlərin qeyri-mütənasib bölgüsünün təsirinə məruz qalırlar. Bundan başqa, Avropada qadınların təhsil səviyyəsinin orta hesabla daha yüksək olması avtomatik olaraq bərabər qaydada əməkhaqqı və pensiyaların ödənilməsinə, onların yüksək ixtisaslı işlərdə çalışmasına və rəhbər vəzifələri tutmaqda bərabər imkanlara malik olmasına gətirib çıxarmır. Bəzi qadın qrupları (xüsusən təhsil səviyyəsi aşağı olan qadınlar, tənha analar, miqrant və qaraçı qadınlar, etnik azlıqlardan olan qadınlar, əlilliyi olan qadınlar) xüsusi problemlərlə üzləşir, xüsusən əmək bazarına çıxış imkanı baxımından böyük çətinliklərlə, habelə məşğulluq imkanlarının yüksək dərəcədə qeyri-sabitliyi ilə və bununla əlaqədar yoxsulluq riskləri ilə, həmçinin sosial təcrid halları ilə qarşılaşırlar.[55]

Məişət zorakılığından zərər çəkmiş iqtisadi cəhətdən asılı şəxslərin (əsasən qadınların) məhkəmələrə çıxış imkanları azalır. Onlar keyfiyyətli hüquqi yardım üçün vəkilə ödənilməli vəsaiti tapmaqda çətinlik çəkir və bu çətinlik səbəbindən məruz qaldıqları zorakılıqla bağlı şikayət hüququndan imtina edirlər.

İqtisadi amil həm məişət zorakılığı hallarının səbəblərindən biri kimi, həm də zorakılıq qurbanlarının ədalət mühakiməisinə çıxışını əngəlləyən amillərdən biri kimi çıxış edir. Ailədə yaranan narazılıqlar bir çox hallarda maddi problemlər üzündən ortaya çıxır. Eləcə də maddi imkansızlıq, yəni vəkil xidmətləri, rüsum, yol xərcləri və s. üçün zəruri vəsaitin olmaması zorakılıq qurbanlarını zorakılıq halları barədə şikayətdən çəkindirir. Bu səbəbdən də ödənişsiz hüquqi xidmət almaq imkanları genişləndirilməlidir.

**Əsabəli Mustafayev**
**Vəkil**

Məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə çıxış imkanlarına təsir edən digər amil məlumatlılıq səviyyəsi ilə bağlıdır. Araşdırmalar göstərir ki, zorakılıqdan zərər çəkmiş şəxslərin bir çoxu zorakılığa məruz qaldıqları halda hara və necə müraciət etməli olduqlarını, müraciət edəcəkləri halda növbəti zorakılığa məruz qalmamaları üçün hansı addımları atmalı olduqlarını bilmirlər.[56] Mütəxəssislərin bir çoxu hesab edir ki, orta məktəblərdə gender bərabərliyi və qadın hüquqları ilə bağlı xüsusi fənnin tədris olunmasına ehtiyac var. Bu, baş verərsə bir sıra məişət zorakılığı hallarının, xüsusən də erkən nikahların sayının azaldılmasına nail olmaq mümkündür. Ümumiyyətlə, məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə çıxış imkanlarını artırmaq üçün kütləvi xarakterli xüsusi maarifləndirmə proqramlarının keçirilməsi və onların davamlılığının təmin edilməsi mühüm şərtdir.

Qadınların qərar qəbuletmədə iştirakçılıq səviyyəsi də ədalət mühakiməsinə çıxış imkanlarına öz təsirini göstərir.

Rəhbər vəzifələrdə çalışan qadınların sayı ilə bağlı rəsmi statistik rəqəmlər vəziyyətin o qədər də ürəkaçan olmadığını göstərir ***(Bax: Əlavə 2)***. Rəhbər vəzifələr sırasında yalnız yerli icra hakimiyyəti başçısının müavini statusuna malik qadınların sayı çoxdur.

Qanunverici orqanda da qadınların rəhbər vəzifələrdə təmsilçilik səviyyəsi aşağıdır. Belə ki, 15 komitə sərindən yalnız iki nəfəri qadındır, komissiya sədrlərinin isə hər ikisi kişidir ***(Bax: Əlavə 3)***.

Dövlət qulluğuna gəlincə, rəhbər vəzifələrdə çalışanların cins üzrə bölgüsündə kişilərin üstünlüyü açıq-aşkardır. Belə ki, 2019-cu il üzrə dövlət qulluğunun 4-7-ci təsnifatları üzrə rəhbər vəzifəlrdə çalışanların 89,9%-ni kişilər, yalnız 10,1%-ni qadınlar təşkil edib ***(Bax: Əlavə 4.)***.

[55] 16808b47e1 (coe.int)

[56] Məişət zorakılığının yayılma səviyyəsinin və onu törədən səbəblərin monitorinqi çərçivəsində ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinə ünvanlanmış müraciətlər əsasında araşdırmaya dair hesabat. 2021.

Göründüyü kimi, qərar qəbuletmə prosesində qadın iştirakçılığının səviyyəsi aşağıdır və bu amil bir tərəfdən məişət zorakılığına məruz qalmış qadınların zorakılıqdan şikayət etmələri üçün əlverişli mühitin yaranmasını əngəlləyir, digər tərəfdən məişət zorakılığı ilə bağlı şikayətlərin araşdırılması zamanı xüsusi həssas yanaşmanın tətbiqi imkanlarını çətinləşdirir. Bu problem hüquq mühafizə orqanlarında qadınların təmsilçilik səviyyəsində özünü daha qabarıq göstərir. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyindən verilən məlumata görə,[57] hazırda daxili işlər orqanlarında 3714 qadın xidmət edir. Onlardan 4-ü müstəntiq, 5-i təhqiqatçı vəzifəsində işləyir. Şəhər, rayon polis orqanlarında rəis və rəis müavini vəzifəsini tutan qadın əməkdaş yoxdur.

Təhqiqatçı və müstəntiqlərin məişət zorakılığı hallarının araşdırılmasında əsas rol oynadığını nəzərə alsaq, bu vəzifələrdə qadınların demək olar ki, təmsil olunmaması məişət zorakılığı ilə bağlı işlərin təhqiqatı və istintaqı zamanı gender stereotiplərinə əsaslanan birtərəfli yanaşmanı (kişi təhqiqatçı və müstəntiqlər tərəfindən) şərtləndirməsi istisna deyil.

Məişət zorakılığı ilə bağlı işlərin bir çox hallarda arşdırılmaması və ya səthi araşdırılması hüquq mühafizə orqanları əməkdaşlarının problemə zorakılıq qurbanlarının maraqlarını nəzərə almayan yanaşması ilə bağlıdır. Belə ki, sahə müvəkkilləri, təhqiqatçı və müstəntiqlər əsasən kişilərdir və onların bir çoxu gender stereotiplərindən hələ də azad ola bilməyiblər. Polislər zorakılıq hallarını araşdırmaqdansa daha çox tərəfləri barışdırmağa, zorakılığa məruz qalan qadınları "ailə dəyərləri", "adət-ənənə" və s. kimi yanlış arqumentlərlə öz şikayətlərini geri götürməyə təşviq etməyə çalışırlar. Bu praktika əks effekt verir və zorakılıq hallarının təkrarlanmasına və daha ağır nəticələrin baş verməsinə zəmin yaradır.

**Zenfira Mustafayeva**
**"Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım" İctmai Birliyi**

Məhkəmələrdə də qadın təmsilçiliyinin aşağı olması xüsusi qeyd edilməlidir. 2019-cu il üzrə hakimlərin 86%-ni kişilər, 14%-ni isə qadınlar təşkil edib ***(Bax: Əlavə 5)***.

## 2.5. Ədalət mühakiməsinə çıxışda institusional problemlər

Məişət zorakılığının qurbanları üçün ədalət mühakiməsinin təmin edilməsi normativ-hüquqi bazanın və hüquqi prosedurların mövcudluğu ilə yanaşı, həm də qadınların üzləşdikləri movcud maneələrinm (qərarların qəbulu zamanı hüquq işçilərinin stereotiplərdən istifadə etməsi, hüquqi prosedurlar və mümkün yardımlar barədə məişət zorakılığı qurbanlarının lazımi biliklərə malik olmaması, onları məhkəməyə müraciət etməkdən çəkindirən qorxu və utancaqlıq hissi və s.) aradan qaldırılmasını da tələb edir. Həmin maneələr ədalət mühakiməsi sisteminə zorakılıq qurbanlarının inamının azalmasına, hətta bəzən bu inamın tamamilə itməsinə gətirib çıxarır. Bunun qarşısını almaq üçün mövcud institusional təsisatların imkanlarından yetərincə istifadə olunmalıdır.

Azərbaycanda məişət zorakılığına məruz qalmış şəxslərin müraciət edə biləcəyi ünvanlar əsasən tibb müəssisələri, yardım mərkəzləri, sığınacaqlar, müvafiq dövlət və hüquq-mühafizə orqanlarıdır. Bu təsisatlar arasında əlaqələndirilmiş fəaliyyət məişət zorakılığı qurbanlarının müdafiəsi, onların təhlükəsizliyinin təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu, beynəlxalq sənədlərlə təsbit olunmuş dövlətlərin öncədən nəzərə alınmalı tədbirlər prinsipindən doğan öhdəliyinin tərkib hissəsidir və dövlətdən "qurbanlara heç bir ayrı-seçkilik olmadan və onlar tərəfindən şikayətin olub-olmamasından asılı olmayaraq razılaşdırılmış, çoxyönlü və peşəkar formada təxirəsalınmaz və hərtəftərəfli yardım göstərilməsi üçün zəruri olan bütün

[57] AQUPDK tərəfindən DİN-ə ünvanlanmış sorğuya 19.07.2021-ci il tarixli, 001-46001-1221 saylı cavab məktubu

tədbirləri görməyi tələb edir... Bu kömək pulsuz, konfidensial əsasda göstərilməli və fasiləsiz təmin edilməlidir."[58]

Məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə müraciət səviyyəsi mövcud institusional problemlərin aradan qaldırılmasından, ilk növbədə yardım mərkəzlərinin fəaliyyətinin səmərəliliyinin artırılmasından, pulsuz hüquqi yardımın əhatə dairəsinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsindən, məhkəmə sisteminin bütün komponentlərinin məişət zorakılığı qurbanlarının tələbatlarına cavab verməsinin təmin edilməsindən asılıdır.

Hazırda məişət zorakılığından zərər çəkmiş şəxslərə sosial xidmət göstərilməsi üçün akkreditasiya olunmuş 10 qeyri-dövlət mərkəzi fəaliyyət göstərir.[59] Onların fəaliyyəti əsasən Bakı, Gəncə və Sumqayıt şəhərlərini əhatə edir. Bu isə digər ərazilərdə yaşayan məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə çıxış imkanlarını azaldır. Belə ki, yardım mərkəzləri zorakılıq qurbanlarının zəruri hüquqi prosedurlara başlaması üçün onlara məsləhət xidməti göstərə və onların ədalət mühakiməsinə çıxışını asanlaşdıra bilər. Təcrübə göstərir ki, yardım mərkəzlərinə müraciət edən zorakılıq qurbanlarının şikayət prosedurlarına başlamasında onlara  göstərilən hüquqi məsləhətlərin rolu böyükdür.

Ekspertlər məişət zorakılığı qurbanları üçün kompleks xidmətləri təmin edən mərkəzlərin yaradılmasına ehtiyac olduğu qənaətindədirlər. BMT-nin Qadınalara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi də kompleks mərkəzlərin fəaliyyətinə müsbət yanaşır. "Ədalət mühakiməsinin qadınlaq üçün kompleks mərkəzləri "bir pəncərə" prinsipi üzrə fəaliyyət göstərə bilir və çox zaman işlərin müvafiq orqanlara verilməsi mexanizminin tərkib hissəsi kimi çıxış edir. Bu cür mərkəzlərin tərkibinə qadınların ədalət məhkəməsinə müraciət edə bilməsi üçün zəruri olan prosedurların sayının azaldılması məqsədilə hüquqi və sosial xidmət mərkəzləri də daxildir. Həmin mərkəzlərdə hüquqi məsləhətlər vermək, hüquqi yardım göstərmək, məhkəmə təhqiqatını başlatmaq və bütün uyğun fəaliyyətləri əlaqələndirmək mümkündür".[60]

Bu qiymətləndirmənin aparıldığı dövrdə məişət zorakılığı qurbanlarına kompleks xidmətlər təqdim edən sturkturun yaradıldığı barədə ictimaiyyətə məlumat verildi. Belə ki, verilən məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində Məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial reabilitasiyası şöbəsi açılıb.[61] Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, həmin şöbə Milli  Fəaliyyət Planına uyğun olaraq yaradılıb. Məişət zorakılığından zərər çəkmiş şəxslər şöbədə sığınacaqla təmin olunmaqla bərabər, onlara psixo-sosial dəstək və məsləhət yardımı xidməti göstəriləcək. Həmin şəxslərin sosial reabilitasiyası, sosial statuslarının bərpası istiqamətində fərdi iş planı üzrə işlər aparılacaq. Onların ilkin tibbi müayinəsi, psixoloji-emosional vəziyyətinin qiymətləndirilməsi, ilkin  tibbi yardımla təmin edilmələri, hüquqlarının müdafiəsi və s. üçün də tədbirlər görüləcək. S.Babayev məişət zorakılığından zərər çəkmiş şəxslərlə bağlı məlumatın operativ əldə olunması və təcili müdaxilə edilərək onların şöbəyə cəlbi məqsədilə "Qaynar xətt"in də tezliklə işə salınacağını deyib.

30 nəfər üçün nəzərdə tutulan şöbəyə qəbul üçün məişət zorakılığından zərər çəkən şəxslər, habelə həmin şəxslərin razılığı ilə qohumları, qanuni nümayəndələri, bələdiyyələr, QHT-lər və ya digər şəxslər bu barədə yerli İH orqanlarına, yaxud polis orqanlarına müraciət etməlidirlər. Sosial işçi də dəvət edilməklə onunla birlikdə şəxsin məişət zorakılığına məruz qalması faktı təsdiqləndikdən sonra həmin şəxs şöbəyə qəbul ediləcək.

Belə bir şöbənin yaradılması şübhəs iz ki, təqdirəlayiq haldır, lakin onun yalnız paytaxtda deyil, regionlar üzrə də yaradılması daha məqsədəuyğun olardı.

---

[58] Recommendation Rec(2002)5 of the Committee of Ministers to member states on the protection of women against violence. COUNCIL OF EUROPE (coe.int)

[59] Akkreditasiya olunmuş qeyri-dövlət mərkəzləri - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

[60] Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi (2015), qadınların ədalət mühakiməsinə çıxışına dair 33 saylı Ümumi tövsiyə, §17(f)

[61] Məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial reabilitasiyası şöbəsi açılıb - AZƏRTAC – Azərbaycan Dövlət İnformasiya Agentliyi (azertag.az)

Məişət zorakılığı qurbanlarının ədalət mühakiməsinə çatımlılığına təsir göstərən amillərdən biri də vətəndaş cəmiyyəti təşkilatlarının rolunun məhdudluğu ilə bağlıdır. Məişət zorakılığı problemləri ilə məşğul olan QHT-lərin zorakılıq qurbanlarının müdafiəsi ilə bağlı mülki, inzibati və cinayət proseslərində iştirakına imkan verən prosessual imkanlar məhduddur. Bu, təkcə Azərbaycan üçün deyil, bir çox digər Avropa Şurası ölkələri üçün də aktual problemdir. Bu səbəbdən də bir sıra beynəlxalq sənədlərdə məişət zorakılığı qurbanlarının, o cümlədən qadınların ədalət mühakiməsinə çatımlılığının yaxşılaşdırılması məqsədilə konkret işdə maraqlı olan vətəndaş cəmiyyəti təşkilatlarına vəsatətlər verməyə və prosesdə iştirak etməyə imkan verən prosessual hüquq qabiliyyətliliyinə aid qaydaların genişləndirilməsi tövsiyə olunur. Bəzi ölkələrdə (məsələn, Macarıstanda)[62] qurbanlara yardım göstərmək məqsədilə qadın təşkilatlarına məişət zorakılığı işləri üzrə məhkəmə proseslərində iştirak etməyə icazə verilir. Bir qayda olaraq, belə QHT-lər zorakılıqdan zərər çəkmiş və öz vəkili olmayan şəxslərin qeyri-rəsmi vəkili qismində çıxış edirlər. QHT tərəfindən təqdim edilmiş vəkil məhkəmə prosedurlarını izah edir, qurbanın adından ədalət mühakiməsi sisteminə aid müxtəlif orqanlarla əlaqə yaradır, zorakılıq qurbanını məhkəməyəqədər proseslərdə və məhkəmədə müşaiyət edir.[63]

Məişət zorakılığı ilə mübarizədə vətəndaş cəmiyyətinin, xüsusilə QHT-lərin rolu böyükdür. İstər maarifləndirmə, istərsə də məişət zorakılığı qurbanların hüquqlarının müdafiəsi işlərində QHT-lər mühüm töhfə verə bilirlər. Lakin məişət zorakılığı qurbanlarının ədalət mühakiməsinə çıxışının təmin olunmasında QHT-lərin iştirak imkanları müəyyən qədər məhduddur. Biz zorakılıq qurbanlarının maraqlarını polis, prokurorluq və məhkəmə orqanlarında bilavasitə təmsil etmək imkanında deyilik. Bunun üçün qanunvericiliyə müvafiq dəyişiklik edilməli, QHT-lərə zorakılıq qurbanlarının maraqlarını bilavasitə müdafiə etmək hüququ verilməlidir.

**Ruhəngiz Hüseynova**
**"Qadınlar arasında həmrəylik" İB**

❖❖❖

Bizim sığınacaqda orta hesabla 30 nəfər qalır. Onların böyük əksəriyyəti uşaqlardır. Bəzən uşaqla birlikdə ananı da qəbul etmək məcburiyyətində qalırıq. Onlara prsixoloji, hüquqi, tibbi yardım göstəririk. Nümayəndəlik institutu ləğv olunanadək sığınacağa yerləşənlərin hüquq mühafizə və məhkəmə orqanlarında maraqlarını təmsil edə bilirdik. Nümayəndəlik institutu ləğv olunduqdan sonra bu imkanımız yoxdur. Ödənişsiz hüquqi yardım üçün vəkilin cəlb olunmasına çalışırıq. Bunun üçün isə bir sıra prosedurları keçmək tələb olunur.

**Fariz Əkbərov**
**Azərbaycan Uşaqlar Birliyinin hüquqşünası**

Bu yanaşma İstanbul Konvensiyasının 55-ci maddəsində də öz əksini tapıb: "Tərəflər öz milli qanunvericiliyində nəzərdə tutulan şərtlərə uyğun olaraq hökumət və qeyri-hökumət təşkilatlarının və məişət zorakılığı məsələləri ilə məşğul olan məsləhətçilərin bu Konvensiya üzrə müəyyən edilmiş cinayət əməlləri ilə əlaqədar aparılan istintaq və məhkəmə prosesləri zamanı istək əsasında zərərçəkmişlərə yardım və/və ya dəstək göstərmə imkanını təmin etmək üçün zəruri qanunvericilik tədbirləri və digər tədbirlər görürlər".[64]

---

[62] The role of civil society in the development of victims' rights and delivery of victims' services. Role of NGOs in providing victim support _ FINAL_27112018_clean (mdtfjss.org.rs)

[63] TrainingManualAccessJustice_EN.pdf (ohchr.org)

[64] Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiya (İstanbul Konvensiyası), maddə 55. Full list (coe.int)

Məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət məhkəməsinə çıxışında mühüm rol oynayan təsisatlardan biri də Vəkillər Kollegiyasıdır. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən, inzibati qaydada tutulmuş şəxslərə, cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxslərə və məhkəmədə vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxslərə hər hansı bir məhdudiyyət qoyulmadan vəkil tərəfindən göstərilən hüquqi yardım dövlət hesabına həyata keçirilir. Ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkil tərəfindən göstərilən hüquqi yardımın ödənilməsi də, məhkəmə tərəfindən məhkumun üzərinə qoyulduğu hallar istisna olmaqla Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına təmin edilir.[65]

Vəkillər Kollegiyası tərəfindən pulsuz hüquqi yardımın göstərilməsi üçün 2020-ci ildə dövlət büdcəsindən ayrılan vəsaitin yarıdan çoxunun istifadəsiz qalması məişət zorakılığından zərər çəkmiş şəxslərin bu imkandan istifadə etməməsinin səbəbləri barədə düşünməyə əsas verir. Belə ki, 2020-ci ilin dövlət büdcəsindən Vəkillər Kollegiyasına bank xidməti daxil 5519250 manat ayrılsa da, sözügedən qərarlar üzrə ümumilikdə 2664167 manat vəsait xərclənmiş, istifadə edilməmiş vəsaitin ümumi qalığı 2855083 manat təşkil etmişdir, ilin sonuna xəzinə hesabının qalığı vahid xəzinə hesabına geri qaytarılmışdır.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov 2020-ci ildə dövlət hesabına göstərilən hüquqi yardım işinin təhlili ilə bağlı müvafiq statistik hesabatlar barədə məlumat verərkən bu sahədə mövcud olan bəzi problemləri, xüsusilə də bürolar tərəfindən sənədlərin düzgün tərtib olunmaması, növbətçilik siyahılarına riayət edilməməsi, vəkil qurumlarına və fərdi vəkillərə təyinat üzrə qərarların göndərilməsi zamanı aidiyyəti dövlət qurumları tərəfindən seçkili yanaşma, formal vəkillik və s. kimi nöqsanları qeyd edib.[66]

Pulsuz hüquqi yardımın göstərilməsi üçün 2020-ci ildə dövlət büdcəsindən ayrılan vəsaitin bir hissəsinin istifadəsiz qalması ilk növbədə COVİD-19 pandemiyası ilə bağlıdır. 2021-ci ildə karantin qaydalarının yumşaldılması və bir sıra məhdudiyyətlərin götürülməsi pulsuz hüquqi yardımdan istifadənin artmasına səbəb olub. Bununla yanaşı, məişət zorakılığından zərər çəkmiş şəxslərin zəruri hüquqi prosedurlar barədə kifayət qədər məlumatlı olmaması kimi amilin də rolu qeyd olunmalıdır.

Pulsuz hüquqi yardımla təminetmə qaydaları və prosedurları ilə bağlı mövcud tələblər də öz təsirini göstərir. Bilirik ki, məişət zorakılığına məruz qalan şəxslər cinayət işlərində əsasən zərərçəkmiş şəxs qismində tanınırlar. Mövcud qanunvericilik şübhəli və təqsirləndirilən şəxslərin pulsuz hüquqi yardımla təmin olunmasını nəzərdə tutur. Bu səbəbdən də məişət zorakılığından zərər çəkmiş şəxslərin pulsuz hüquqi yardımdan istifadə imkanları məhdudlaşır. Məişət zorakılığından zərər çəkmiş şəxslərin də pulsuz hüquqi yardımdan istifadə imkanları qanunvericilikdə xüsusi nəzərdə tutulmalıdır.

**Gülşən Salmanova**
**Vəkil**

Dərinləşdirilmiş müsahibəyə cəlb edilmiş ekspertlərin qənaətinə görə isə, pulsuz hüquqi yardımdan istifadə səviyyəsinin aşağı olmasının əsas səbələri məişət zorakılığından zərər çəkmiş şəxslərin zəruri hüquqi prosedurlar barədə məlumatsız olması, dövlət hesabına həyata keçirilən hüquqi yardımın keyfiyyətinin bir çox hallarda aşağı olması səbəbindən zərər çəkmiş şəxslərin bu xidmətdən istifadədə kifayət qədər maraqlı olmaması və pulsuz hüquqi yardımla təminetmə ilə bağlı mövcud prosedurlardır.

Məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə çıxış imkanlarına təsir göstərən ən mühüm institusional təsisatlar hüquq mühafizə orqanlarıdır. Hüquq mühafizə

[65] 783-IQ - Vəkillər və vəkillik fəaliyyəti haqqında (e-qanun.az)

[66] Barassociation.az - Xəbərlər - Dövlət hesabına hüquqi yardım sahəsində problemlər gündəmdə

orqanlarının strukturunda ixtisaslaşdırılmış bölmələrin olmaması məişət zorakılığı qurbanlarının ədalət mühakiməsinə səmərəli çıxış imkanlarını çətinləşdirir. Həm prokurorluq, həm də polis orqanlarında ixtisaslaşdırılmış struktur vahidlərinin yoxluğu məişət zorakılığı ilə mübarizə sahəsində xüsusi bilik və bacarıqlara sahib işçi heyətinin formalaşdırılmasına da öz təsirini göstərir. BMT-nin Qadınalara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi də hesab edir ki, hüquq mühafizə orqanlarının tərkibində belə ixtisaslaşdırılmış bölmələrin yaradılmasına ehtiyac var. "Qadınlara münasibətdə zorakılıq/məişət zorakılığı ilə mübarizə üzrə "hüquq-mühafizə orqanları, islah müəssisələri və prokurorluq orqanları sistemi" çərçivəsində fəaliyyət göstərən ixtisaslaşmış bölmələr qadınlara münasibətdə zorakılıq və məişət zorakılığı ilə bağlı işlərin aparılması üçün xüsusi işçi heyət ayırmağa imkan verir. Bu bölmələr təkrar qurbana çevrilmək hallarını minimuma endirir və işlərə müəyyən olunmuş müddətlərdə baxmaq imkanı yaradır."[67]

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, istər cinayət və inzibati, istərsə də mülki işlərdə gender aspektlərini nəzər alan xüsusi məhkəmə prosedurlarının olmaması zorakılıq qurbanlarının spesifik tələbatlarına cavab verməyən məhkəmə proseslərinə gətirib çıxarır. "Gender aspektlərini nəzər almaqla, xüsusi məhkəmə prosedurlarının və işlərin idarə edilməsi təcrübəsinin tətbiqi məhkəmə təhqiqatında qadınların zorakılıq qurbanı və ya tərəf kimi spesifik tələbatlarına cavab verməyən məhkəmə prosesləri problemini həll edə bilər. Hüquqşünaslar məişət zorakılığı qurbanlarının ədalət mühakiməsi sistemi ilə toqquşan maraqlarını bilib dərk etdikləri halda, bütün məhkəmə prosesi ərzində onların təhlükəsizliyinin təmin edilməsi və ləyaqətinin müdafiə olunması üçün praktik tədbirlər görə bilirlər".[68]

İstər mülki, istərsə də cinayət işləri üzrə məhkəmə təcrübəsi onu göstərir ki, məhkəmə prosesləri məişət zorakılığı qurbanlarının spesifik tələbatları nəzərə alınmadan keçirilir. Nəinki ixtisaslaşmış məhkəmələr yoxdur, hakimlərin əksəriyyəti məişət zorakılığı qurbanlarının tərəf olduğu işlərdə prosesi işin spesifikliyini nəzərə almadan aparırlar. Məişət zorakılığı ilə bağlı işlərin düzgün və ədalətli həlli hakimlərdən həssas yanaşma, xüsusi hazırlıq, bilik və vərdişlər tələb edir. Bu baxımdan hər bir məhkəmə orqanında ixtisaslaşmış hakimlər olmalı, məişət zorakılığı ilə bağlı işlər onların icraatına verilməlidir.

**Akif Əliyev**
**Vəkil**

BMT-nin Qadınalara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi də hesab edir ki, qadınlara münasibətdə zərərli və ya ədalətsiz gender stereotiplərinə əsaslanan ayrı-seçkilik onların ədalət məhkəməsinə müraciət qabiliyyətinə mənfi təsir göstərə bilər. Qadınlara münasibətdə zorakılığın və məişət zorakılığının qurbanları digər cinayətlərin qurbanları ilə müqayisədə daha çox hallarda geniş yayılmış stereotip və yanlışlıqlara əsaslanan inamsızlıq və məzəmmətlə qarşılaşırlar. Ədalət mühakiməsi sistemi bilməyərəkdən bu cür miflərin və zərərli stereotiplərin möhkəmlənməsinə səbəb ola bilər. Buna görə də bütün hüquq-mühafizə və məhkəmə orqanları ayrı-seçkiliyin istənilən formasında iştirakdan çəkinməli və əmin olmalıdırlar ki, qadınlara münasibətdə zorakılıq və məişət zorakılığı ilə bağlı işlərdə bütün məhkəmə prosedurları "tərəfsizlik və ədalət prinsipləri əsasında həyata keçirilir və gender stereotiplərinin və ya beynəlxalq hüquq normaları da daxil, bütün hüquqi normaların qərəzli şərhinin təsirirnə məruz qalmır. [69]

---

[67] Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi (2015), Qadınların ədalət mühakiməsinə çıxışına dair 33 saylı Ümumi tövsiyə, §51(c).

[68] Avropa Şurası (2017), Hakimlər və prokurorlar üçün qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsi üzrə tədris vəsaiti. Ümumi hissə. 16807626a5 (coe.int)

69 Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi (2015), Qadınların ədalət mühakiməsinə çıxışına dair 35 saylı Ümumi tövsiyə, §26(c).

# 3. Məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə çıxış imkanlarının təkmilləşdirilməsi istiqamətləri

## 3.1. Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətləri

1. **Məişət zorakılığı barədə şikayətə baxılması səlahiyyətinin yerli icra hakimiyyəti orqanlarından alınaraq hüquq mühafizə orqanlarına həvalə edilməsi.** “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunun 5.2-ci maddəsinə əsasən, məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətə müvafiq icra hakimiyyəti orqanları tərəfindən baxılır.

   Təcrübə göstərir ki, məişət zorakılığı barədə şikayətlərin yerli icra hakimiyyətləri tərəfindən araşdırılması səmərəli deyil. 2020-ci il ərzində cəmi 38 qısamüddətli mühafizə orderinin verilməsi və onların da xeyli qisminin (28 order) Bakı şəhərinin payına düşməsi də bu təcrübənin özünü doğrultmadığını təsdiq edir.

   Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətlərinin olub-olmamasının müəyyənləşdirilməsi hüquq mühafizə orqanlarının səlahiyyətinə aid məsələdir və bu baxımdan şikayətlərə baxılması və uyğun qərarın qəbul edilməsi səlahiyyəti də hüquq mühafizə orqanlarına verilməlidir.

2. **Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayətin yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılması tələbinin qanunvericilikdən çıxarılması və məişət zorakılığı barədə şikayət üzrə araşdırmanın zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığından və şikayətdə cinayət tərkibi əlamətlərinin olub-olmamasından asılı olmayaraq davam etdirilməsi tələbinin qanunvericiliyə daxil edilməsi.** “Məişət zorakılığının qarşısının alınması haqqında” qanunun 6.3-cü maddəsinə əsasən, məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda həmin şikayət yalnız zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin razılığı olduqda araşdırılır. Qanunun bu tələbi formal baxımdan məişət zorakılığından zərər çəkmiş şəxsin iradəsinə uyğun davranışı özündə əks etdirsə də, məcburiyyət qarşısında şikayətdən imtina kimi ehtimalı böyük olan reallığı nəzərə almır. Araşdırmalar göstərir ki, şikayət etmiş zorakılıq qurbanlarının bir çoxu yaxınlarının təzyiqi nəticəsində şikayətdən imtina etmək məcburiyyətində qalır. Bu səbəbdən də şikayətdən imtinada məcburiyyət amilinin olub-olmaması sılahiyyətli orqanlar tərəfindən araşdırılmalıdır.

3. **Mühafizə orderlərinin daha uzun müddətə nəzərdə tutulması və qısamüddətli mühafizə orderlərinin verilməsi səlahiyyətinin polis orqanlarına həvalə edilməsi.** “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunda zərər çəkmiş şəxsə 30 gün müddətinədək qısamüddətli, 30 gündən 180 günədək isə uzunmüddətli mühafizə orderinin verilməsi nəzərəd tutulur. Məişət zorakılığına məruz qalmış, xüsusilə mühfizə orderi verilmiş şəxslərin, həmçinin ekspertlərin rəyinə görə, nəzərdə tutulan müddətlərin ən azı iki dəfə artırılmasına ehtiyac var.

   Məişət zorakılığının qarşısının alınması haqqında” Qanunda qısamüddətli mühafizə orderinin verilməsi yerli icra hakimiyyəti orqanlarının səlahiyyətindədir. Lakin yerli icra hakimiyyəti orqanları polis orqanları ilə müqayisədə çevik deyil və zorakılıq hallarına dərhal reaksiya verə bilmirlər. Polis isə zorakılıq faktına dərhal reaksiya vermək və tədbirlər görmək üçün lazım olan bütün resurslara malikdir. Bu səbəbdən də qısamüddətli mühafizə orderlərinin polis orqanları tərəfindən verilməsi daha məqsədəuyğun olardı.

4. **Cinayət Məcəlləsinin "Şəxsiyyət əleyhinə olan cinayətlər" bölməsində nəzərdə tutulmuş "Qəsdən adam öldürmə" (maddə 120), "Özünü öldürmə həddinə çatdırma" (maddə 125), "Qəsdən sağlamlığa ağır zərər vurma" (maddə 126), "Qəsdən sağlamlığa az ağır zərər vurma" (maddə 127), "Qəsdən sağlamlığa yüngül zərər vurma" (maddə 128), "Qəflətən baş vermiş güclü ruhi həyəcan vəziyyətində qəsdən sağlamlığa ağır və ya az ağır zərər vurma" (maddə 129), "Əzab vermə" (maddə 133), "Öldürməklə və ya sağlamlığa ağır zərər vurmaqla hədələmə" (maddə 134), "Zöhrəvi xəstəlikləri yayama" (maddə 139), "İnsan immunçatışmazlığı virusu ilə yoluxdurma" (maddə 140), "Məcburi əmək" (maddə 144-2), "Qanunsuz azadlıqdan məhrum etmə" (maddə 145), "Qanunsuz olaraq psixiatriya xəstəxanasına yerləşdirmə" (maddə 146), "Zorlama" (maddə 149), "Seksual xarakterli zorakılıq hərəkətləri" (maddə 150), "Seksual xarakterli hərəkətlərə məcbur etmə" (maddə 151) cinayətlərinin tövsifedici əlaməti kimi həmin maddələrdə nəzərdə tutulmuş əməllərin "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun şamil edildiyi şəxslər barəsində törədilməsinin nəzərdə tutulması və həmin cinayətlərə görə daha ağır cəzaların müəyyənləşdirilməsi.** Qüvvədə olan Cinayət Məcəlləsində məişət zorakılığı ilə bağlı ayrıca norma yoxdur. Məişət zorakılığının kriminallaşdırılmaması məişət zorakılığı ilə bağlı işlər üzrə cinayət təqibi zamanı xüsusi yanaşmanın tətbiqini çətinləşdirir, məişət zorakılığı cinayətlərinin statistikasını formalaşdırmaq imkanlarını azaldır. Statistikanın olmaması bu sahədəki kriminogen vəziyyəti düzgün qiymətləndirməyə, qiymətləndirmənin nəticələrinə əsaslanan preventiv addımları və effektiv mübarizə siyasətini müəyyənləşdirməyə imkan vermir.

   Azərbaycan Respublikası Baş Prokurorluğunun bu məsələ ilə bağlı mövqeyi bir qədər fərqlidir. Prokurorluq hesab edir ki, CM-nin 61-ci maddəsi cəzanı ağırlaşdıran halları müəyyən edir. "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun şamil edildiyi şəxslər barəsində törədilməsinin konkret cinayət əməllərində ağırlaşdırıcı hal kimi nəzərdə tutulması deyil, bu halın CM-nin 61-ci maddəsinə əlavə edilməsi daha məqsədəuyğundur. Hesab edirik ki, təklifə alternativ olaraq bu variant da nəzərdən keçirilə bilər.

5. **Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə "aborta məcbur etmə" maddəsinin əlavə edilməsi.** Məişət zorakılığı halları içərisində qadınların aborta məcbur edilməsinə çox rast gəlinir. Lakin mövcud cinayət qanunvericiliyində bu əməl kriminallaşdırılmamışdır. Cinayət Məcəlləsindəki "qanunsuz abort etmə" adlı 141-ci maddədə nəzərdə tutulmuş cinayətin subyekti xüsusi tibbi təhsili olan həkim və xüsusi ali tibbi təhsili olmayan şəxs ola bilər. Bu maddə "Məişət zorakılığı haqqında" Qanunun şamil edildiyi şəxsləri (maddə 4) əhatə etmir. Bu səbəbdən də CM-də "aborta məcbur etmə"nin ayrıca cinayət əməli kimi nəzərdə tutulması məqsədəuyğun olardı.

6. **Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə "Qanunsuz təqib (izləmə)" maddəsinin daxil edilməsi.** Yuxarıda qeyd etdiyimiz kimi, məişət zorakılığı qurbanlarının məruz qaldığı ciddi psixoloji zorakılıq formalarından biri təqibdir (qanunsuz izləmə). Bu, həm fiziki formada, həmdə müxtəlif vasitələrdən (internet, sosial şəbəkələr, telefon və s.) istifadə etməklə həyata keçirilir. Təqib (stalking) artıq dünyanın bir çox ölkəsində cinayət sayılır, məsələn, Almaniya, Polşa, ABŞ, İngiltərə, Kanada, Avstraliya, Hindistan, Norveç və s. Onun Azərbaycan qanunvericiliyinə də daxil edilməsi məqsədəuyğun olardı. Mühafizə orderlərinin tələblərinin sistematik (ən azı 3 dəfə pozulması) pozulması da təqib hesab edilməli və cinayət məsuliyyətinə səbəb olmalıdır.

7. **"Məişət zorakılığı haqqında" Azərbaycan Respublikasının Qanunun şamil edildiyi şəxslərə münasibətdə döymənin İnzibati Xətalar Məcəlləsinin (İXM) 157-ci maddəsində ağırlaşdırıcı hal kimi nəzərdə tutulması və daha ağır inzibati məsuliyyətin (iki aydan üç ayadək inzibati həbsin tətbiqi) müəyyənləşdirilməsi.** 2012-ci ilədək "döymə" CM-də ayrıca maddə kimi təsbit olunmuşdu. 29 iyun 2012-ci il tarixli qanunla həmin maddə

Məcəllədən çıxarılmışdır. Hazırda "döymə" inzibati xəta hesab edilir və bu xətanı törədən üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir və ya işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

Məişət zorakılığının spesifikliyi, ictimai təhlükəliliyi və daha çox döymə ilə müşaiyət olunması nəzərə alınaraq "Məişət zorakılığı haqqında" Qanunun şamil edildiyi şəxslərə münasibətdə döymənin ağırlaşdırıcı hal kimi nəzərdə tutulması daha məqsədəuyğun olardı.

8. **Məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulmasına görə daha ağır inzibati tənbehin müəyyənləşdirilməsi**. İXM-nin 158-ci maddəsi məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət müəyyən edir. 158-ci maddə iqtisadi zorakılığa görə yüz manatdan üç yüz manatadək, psixi zorakılığa görə isə üç yüz manatdan beş yüz manatadək cərimə sanksiyasını nəzərdə tutur. İctimai təhlükəliliyi nəzərə alınaraq, psixoloji zorakılığa görə daha ağır inzibati tənbehin, o cümlədən inzibati həbsin nəzərdə tutulması daha məqəsəduyğun olardı.

9. **Cinayət Prosessual Məcəlləsinin zərər çəkmiş şəxsin şikayəti olmadan ictimai-xüsusi ittiham qaydasında cinayət təqibinin prokuror tərəfindən başlanıla bilməsi halların nəzərdə tutan 37.5-ci maddəsinə cinayətin "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun şamil edildiyi şəxslər barəsində törədilməsi bəndinin əlavə edilməsi.** CPM-nin 37.5-ci maddəsi cinayətin məişət zorakılkığından zərər çəkmiş şəxslər barəsində törədilməsini birbaşa nəzərə almır. Bu norma qiymətləndirməni prokurorun ixtiyarına verir və subyektiv yanaşmalar üçün əsas yaradır. Təklif olunan bəndin əlavə olunması belə subyektiv yanaşmanı istisna edə bilər.

10. **Cinayət Məcəlləsinin 73.2-ci maddəsinə "Məişət zorakılığı cinayətini törətmiş şəxsin zərərçəkmiş şəxslə barışması və ona dəymiş ziyanı tamamilə ödəməsi onu cinayət məsuliyyətindən azad etmir" qeydinin əlavə edilməsi *(Cinayət Məcəlləsində müvafiq dəyişiklik edildikdən sonra qeyddə konkret maddələrə də istinad etmək olar)*.** CM-nin 73.2-ci maddəsinə əsasən, həmin Məcəllənin 127.1, 128, 129, 130, 131.2, 133.1, 134, 142.1, 143, 156.1, 157.1 və 158.1-ci maddələrində nəzərdə tutulmuş əməli (əməlləri) törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir. Göründüyü kimi, bu maddədə nəzərdə tutulan əməllərin bir çoxu məişət zorakılığı cinayətləridir. Araşdırmalar göstərir ki, məişət zorakılığına məruz qalmış şəxslər bir çox hallarda barışığa məcbur edilirlər. Bu baxımdan bir çox beynəlxalq təşkilatlar da barışıq əsasında cinayət təqibinə xitam verməninin əleyhinədir.

11. **Azərbaycan Respublikasının Ailə Məcəlləsinin (Ailə Məcəlləsi) 15-ci maddəsinin Məcəllədən çıxarılması.** Bu maddə məişət zorakılığından zərər çəkmiş kişilərin məhkəməyə çıxış imkanlarını məhdudlaşdırır. Həmin maddəyə əsasən, arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ər nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz. Bu müddəa pozitiv diskriminasiya nümunəsi kimi görünsə də, əslində ayrı-seçkilik nümunəsidir və kişilərin ədalət mühakiməsinə çıxışını əngəlləyir. Qanunvericiliyin bu tələbi eyni zamanda qadınların məişət zorakılığına məruz qalma riskini artırır. Təcrübə göstərir ki, boşanmaq istəyən və buna hüquqi imkanı olmayan ərin birgə yaşamaq məcburiyyətində qalması arvadına qarşı zorakılıq hərəkətləri ilə müşayiət oluna bilən mənfi münasibətinin yaranmasına gətirib çıxarır.

12. **Ailə Məcəlləsinin 20.2-ci maddəsində "3 ay müddət müəyyən etməklə" sözlərinin "3 ayadək müddət müəyyən etməklə" sözləri ilə əvəz edilməsi.** Həmin maddəyə əsasən, tərəflərdən birinin nikahın pozulması haqqında razılığı olmadıqda, məhkəmə ər-arvadın barışması üçün 3 ay müddət müəyyən etməklə işi təxirə sala bilər. Bu norma məişət zorakılığı qurbanlarının ədalət mühakiməsinə səmərəli çıxış imkanlarına maneə hesab oluna bilər. Çünki tərəflər arasındakı münasibətlərin xarakteri bütün hallarda eyni deyil. Əgər barışıq

üçün müddətin müəyyənləşdirilməsi mütləq vacib hesab edilirsə, o zaman müddət tərəflər arasındakı münasibətlərin xarakterindən asılı olaraq müəyyənləşdirilə bilər (məsələn, 10 gün, 14 gün, 1 ay və s.). Həmin müddət ərzində isə tərəflərin xüsusi reabilitasiya proqramlarına cəlb edilməsi təmin edilməlidir. Məhkəmə təcrübəsində bütün işlər üzrə bir qayda olaraq, barışıq üçün 3 ay vaxt verilir. Bu, bəzən daha ciddi zorakılıq hallarına, hətta qətlə qədər gətirib çıxara bilir. Bu səbəbdən də məhkəmələr barışıq üçün vaxt verilməsi məsələsinə çox həssaslıqla yanaşmalı, əgər barışıq üçün real əsaslar yoxdursa, məişət zorakılığı qurbanlarının mənafelərini əsas götürməklə hər hansı vaxt verilməsindən çəkinməlidirlər.

13. **Nikahın pozulması və uşaqlarla bağlı mübahisələr üzrə hazırlıq iclasında məhkəməyə mühafizə orderi barədə qərar qəbul etmək səlahiyyətinin verilməsi.** Həmin mübahisələr üzrə məhkəmələrə tətəflərin münasibətlərinin xarakterini nəzərə alaraq mübahisə üzrə yekun məhkəmə qərarı qəbul edilənədək olan dövr üçün mühafizə orderinin verilməsi barədə qərarın qəbul edilməsi səlahiyyətinin verilməsi ağır nəticələrə gətirib çıxaran məişət zorakılığı hallarının azaldılmasında böyük rol oynaya bilər. Təcrübə göstərir ki, ağır nəticələrə gətirib çıxaran zorakılıq hallarının bir çoxu nikahın pozulması ilə bağlı məhkəmə mübahisəsinin getdiyi dövrə təsadüf edir.

14. **Ailə Məcəlləsinin 37.2-ci maddəsində nəzərdə tutulmuş normanın imperativ norma kimi nəzərdə tutulması məqsədilə aşağıdakı şəkildə verilməsi:** *Birgə mülkiyyətinin bölünməsi zamanı məhkəmə yetkinlik yaşına çatmayan uşaqların mənafeyini və (və ya) ərin (arvadın) diqqətəlayiq mənafeyini, o cümlədən ər-arvaddan biri üzürsüz səbəbdən gəlir əldə etmədiyi və ya birgə mülkiyyəti ailənin mənafeyinə zidd olaraq sərf etdiyini nəzərə almalı, bu hallar birgə mülkiyyəti bərabər paylara bölməyi istisna edirsə, payları həmin halları nəzərə almaqla bölməlidir.* Azərbaycan Respublikasının Ailə Məcəlləsinin qüvvədə olan 37.2-ci maddəsinə əsasən, ayrı-ayrı hallarda məhkəmə yetkinlik yaşına çatmayan uşaqların mənafeyini və (və ya) ərin (arvadın) diqqətəlayiq mənafeyini, o cümlədən ər-arvaddan biri üzürsüz səbəbdən gəlir əldə etmədiyi və ya birgə mülkiyyəti ailənin mənafeyinə zidd olaraq sərf etdiyi hallarda nəzərə alıb onların birgə mülkiyyətinin bölünməsi zamanı payları bərabər bölməyə bilər. Bu norma da dispozitiv xarakterlidir və təcrübədə nikah pozulduqdan sonra uşaqları yanında qalan tərəfin (ər və ya arvadın) maraqlarına uyğun olmayan qəraraların qəbuluna gətirib çıxarır. Məsələn, məhkəmə qərarı ilə nikah pozulduqdan sonra 2 və ya 3, yaxud daha çox yetkinlik yaşına çatmayan uşağı yanında qalan ərə (arvada) birgə mülkiyyətdən bərabər pay ayrılması ədalətli yanaşmanı özündə əks etdirmir. Bu səbəbdən də yetkinlik yaşına çatmayan uşaqların mənafeyini daha yaxşı nəzərə almaq məqsədilə həmin normanın imperativ norma kimi təsbit edilməsinə ehtiyac var.

## 3.2. Hüquq tətbiqetmə praktikasının təkmilləşdirilməsi istiqamətləri

15. **Polis və prokurorluq orqanlarında ixtisaslaşmış strukturların yaradılması.** Hazırda polis və prokurorluq orqanlarında məişət zorakılığı ilə mübarizə üzrə ixtisaslaşmış strukturlar yoxdur. Bu strukturların olmaması ilk növbədə məişət zorakılığı cinayətlərinin kriminallaşdırılmaması ilə bağlıdır. Bu, həyata keçirildikdən sonra, yəni məişət zorakılığı cinayətləri xüsusi olaraq Cinayət Məcəlləsinə daxil edildikdən sonra belə strukturların yaradılması məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə səmərəli çıxış imkanlarını artıra bilər.

16. **Ailə mübahisələri və məişət zorakılığı işləri üzrə hakimlərin ixstisaslaşması.** Hazırda məhkəmə sistemində belə ixtisaslaşma yoxdur. Bu, hələ də gender stereotiplərindən azad olmamış bəzi hakimlərin məişət zorakılığı ilə bağlı işlərin spesifikliyini nəzərə almadan

qərarlar qəbul etməsinə gətirib çıxarır. Bu səbəbdən də xüsusi məhkəmələrin yaradılmasının real görünmədiyi hazırkı vəziyyətdə hakimlərin ixtisaslaşması daha məqsədəuyğun görünür.

17. **Təhqiqatçıların, müstəntiqlərin, prokurorların və hakimlərin xüsusi hazırlığı üzrə proqramların hazırlanması.** Təkcə bu kateqoriyaya daxil olan şəxslər üçün deyil, məişət zorakılığı halları ilə məşğul olan digər mütəxəssislərə yardımçı ola biləcək yazılı vəsaitlərin, təlim proqramlarının hazırlanmasına və təlim kurslarının təşkilinə ehtiyac var.[70] Lakin məişət zorakılığı qurbanlarının məhkəməyə çıxış imkanlarının təmin edilməsində təhqiqatçıların, müstəntiqlərin, prokurorların və hakimlərin xüsusi rolu olduğundan və onların işi öz spesifikliyinə görə fərqləndiyindən onlar üçün xüsusi hazırlıq proqramlarının olması mühüm əhəmiyyət kəsb edir. Bu ehtiyacı nəzərə alan Avropa Şurası tərəfindən artıq bir sıra vəsaitlər hazırlanmışdır. Bunlara «Qadınların ədalət mühakiməsinə çıxış imkanlarının təmin edilməsi haqqında hakimlər və prokurorlar üçün təlim vəsaiti»ni (Müəlliflər: E. Duban və İ Radağiç)[71] və onun əsasında tərtib edilmiş "Qadınların ədalət mühakiməsinə çıxışı: praktik hüquqşünaslar üçün bələdçini"[72] və "Qadınların ədalət mühakiməsinə çatimlılıq mövzusunda mentorluq proqramının hazırlanmasına dair hüquqşünaslar üçün bələdçi"ni[73] misal göstərmək olar. Xüsusi hazırlıq proqramlarının tərtibində həmin vəsaitlərdən istifadə etmək mümkündür.

### 3.3. Milli hüquq müdafiə vasitələrinin təkmilləşdirilməsi istiqamətləri

18. **Məişət zorakılığı qurbanları üçün kompleks xidmətləri təmin edən regional mərkəzlərin yaradılması.** Hazırda **məişət zorakılığından zərər çəkmiş şəxslərə sosial xidmət göstərilməsi üçün akkreditasiya olunmuş qeyri-dövlət mərkəzləri fəaliyyət göstərir. Onların fəaliyyəti əsasən Bakı, Gəncə və Sumqayıt şəhərlərini əhatə edir.** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində Məişət zorakılığından zərər çəkmiş şəxslərin sosial reabilitasiyası şöbəsi də açılıb. Lakin bu təsisatlar bütün ölkəni əhatə etmək və kompleks xidmətləri (hüquqi, psixoloji, sosial və s.) tam təmin etmək gücündə deyildirlər. Bu səbəbdən də dövlət büdcəsinin vəsaiti hesabına "bir pəncərə" prinsipi əsasında fəaliyyət göstərən və kompleks xidmətləri təmin edən regional mərkəzlərin yaradılmasına ehtiyac var.

19. **Ödənişsiz hüquqi yardım haqqında qanunun qəbul edilməsi.** Hazırda dövlət hesabına hüquqi yardımın göstərilməsi "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanununun 20-ci, İXM-nin 66.3-cü, MPM-in 67.2-ci maddəsinə, CPM-in 19.4, 87.2, 193.2 və 92.3.2-92.3.13-cü maddələrinə əsasən həyata keçirilir. CPM-də nəzərdə tutulmuş normalar əsasən şübhəli və təqsirləndirilən şəxslərin pulsuz hüquqi yardımla təmin olunmasını nəzərdə tutur. Bu səbəbdən də məişət zorakılığından zərər çəkmiş şəxslərin pulsuz hüquqi yardımdan istifadə imkanları məhdudlaşır, çünki məişət zorakılığına məruz qalan şəxslər cinayət işlərində əsasən zərərçəkmiş şəxs qismində tanınırlar. Ödənişsiz hüquqi yardım haqqında qanun dövlət hesabına hüquq yardımla təmin olunmanın daha konkret şərtlərini və daha aydın prosedurlarını nəzərdə tutmaqla məişət zorakılığından zərər çəkmiş şəxslər üçün də ödənişsiz hüquqi yardımdan istifadə imkanlarını tanımalıdır.

20. **Məişət zorakılığından zərər çəkmiş şəxslərin məhkəməyə çıxışında QHT-lərin rolunun artırılması.** Digər ölkələrdə olduğu kimi Azərbaycanda da məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarının müdafiəsində QHT-lər böyük rol oynayırlar. Lakin mövcud prosessual

[70] Məişət zorakılığının yayılma səviyyəsinin və onu törədən səbəblərin monitorinqi çərçivəsində ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinə ünvanlanmış müraciətlər əsasında araşdırmaya dair hesabat. 2021.

[71] 16807626a5 (coe.int)

[72] 16809c8283 (coe.int)

[73] A4_AZE_version_Methodology_16072020 (coe.int)

qaydalar məişət zorakılığından zərər çəkmiş şəxslərin ədalət mühakiməsinə çatımlılığında QHT-lərin imkanlarını məhdudlaşdırır. Belə ki, QHT-lərin zorakılıq qurbanlarının maraqlarını hüquq mühafizə orqanlarında bilavasitə təmsil etmək hüququ yoxdur. Bəzi ölkələrdə (məsələn, Macarıstanda) qurbanlara yardım göstərmək məqsədilə QHT-lərin bu hüquq tanınır. QHT tərəfindən təqdim edilmiş vəkil məhkəmə prosedurlarını izah edir, qurbanın adından ədalət mühakiməsi sisteminə aid müxtəlif orqanlarla əlaqə yaradır, zorakılıq qurbanını məhkəməyəqədər proseslərdə və məhkəmədə müşaiyət edir. Qiymətləndirmə zamanı müsahibəyə cəlb edilmiş QHT rəhbərləri onlar üçün bu imkanın yaradılmasını vacib hesab ediblər.

### 3.4. Məlumatlılıq səviyyəsinin artırılması

21. **Gender bərabərliyi və qadın hüquqları fənninin ümumtəhsil məktəblərinin tədris proqramına daxil edilməsi**. Ekspertlərin əksəriyyəti məlumatlılıq səviyyəsinin artırılmasına orta məktəblərdən başlanılmasını daha məqsədəuyğun hesab edirlər. İlk növbədə bu sahədə xüsusi təcrübəsi olan ekspertlər cəlb olunmaqla tədris proqramı tərtib olunmalıdır. Tədris proqramları elə tərtib olunmalıdır ki, nəzəri biliklər əsasında praktiki vərdişlərə yiyələnmək mümkün olsun. Yəni proqram nəzəri və praktiki hissələrdən ibarət olmaqla zəruri məlumatlılıq səviyyəsi formalaşdırmağa imkan verməlidir.
22. ***Bütün ölkə üzrə maarifləndirmə kampaniyalarının aparılması.*** Belə kampaniyalarda əsas məqsəd cəmiyyətdə hələ də mövcud olan və güclü təsirə malik stereotipləri aradan qaldırmaq, geniş auditoriyaya zorakılığın qəbuledilməz və zərərli olduğunu anlatmaq, onları mümükün hüquqi müdafiə vasitələri haqqında bilgiləndirməkdir. Belə maarifləndirmə kampaniyalarında KİV-in və vətəndaş cəmiyyətinin imkanlarından geniş istifadə olunmalıdır.[74]

[74] Məişət zorakılığının yayılma səviyyəsinin və onu törədən səbəblərin monitorinqi çərçivəsində ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinə ünvanlanmış müraciətlər əsasında araşdırmaya dair hesabat. 2021.

# ƏLAVƏLƏR

**Əlavə 1.**

**2019-cu ildə məişət zorakılığı ilə bağlı cinayətlər nəticəsində zərərçəkənlərin cins bölgüsü**

| Cinayət növləri | Yekuna görə faizlə | | Faizlə | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Qəsdən adam öldürmə | 3,6 | 2,2 | 84,1 | 15,9 |
| Adam öldürməyə cəhd | 2,3 | 4,1 | 64,9 | 35,1 |
| Qəsdən sağlamlığa ağır zərər vurma | 2,2 | 5,6 | 56,1 | 43,9 |
| Qəsdən sağlamlığa az ağır zərər vurma | 9,0 | 11,2 | 72,3 | 27,7 |
| Qəsdən sağlamlığa yüngül zərər vurma | 80,1 | 72,8 | 78,1 | 21,9 |
| Əzab vermə | 0,8 | 0,3 | 88,9 | 11,1 |
| Digər | 2,0 | 3,8 | 63,6 | 36,4 |
| Cəmi, faizlə | 100,0 | 100,0 | 76,4 | 23,6 |
| nəfər | 1038 | 320 | × | × |

**Əlavə 2.**

**Rəhbər vəzifədə çalışan qadınların sayı, nəfərlə**

| | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|
| Vitse-prezident | – | 1 | 1 | 1 |
| Qadın nazir[1)] | 1 | 1 | 1 | 1 |
| Qadın nazir müavini | 3 | 3 | 6 | 8 |
| Qadın Dövlət Komitəsi sədri[2)] | 2 | 2 | 2 | 2 |
| Qadın Dövlət Komitəsi sədrinin müavini | 2 | 3 | 3 | 3 |
| Qadın Yerli icra hakimiyyəti başçısı[3)] | 1 | 1 | 1 | 1 |
| Yerli icra hakimiyyəti başçısının qadın müavini | 79 | 77 | 79 | 76 |
| Ombudsman[4)] | 2 | 2 | 2 | 2 |

[1)] Naxçıvan MR Məd.və Turizm naziri
[2)] AR və Naxçıvan MR QUPDK-nin sədrləri
[3)] Abşeron RİH-nin başçısı
[4)] AR və NMR ombudsmanları

**Əlavə 3.**

## Parlamentdə komitə və komissiya sədrlərinin cins üzrə bölgüsü[1)]

| | Sayı, nəfərlə | | Cins bölgüsü, faizlə | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| Komitə sədrlərinin sayı | 2 | 13 | 13,3 | 86,7 |
| Komissiya sədrlərinin sayı | – | 2 | – | 100,0 |

1) 9 fevral 2020-ci il vəziyyətinə

**Əlavə 4.**

## Dövlət qulluğunun 4-7-ci təsnifatları üzrə rəhbər vəzifələrdə çalışanların cins üzrə bölgüsü (nəfər, faizlə)

| İllər | Sayı, nəfərlə | | Cins bölgüsü, faizlə | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| 2010[1)] | 742 | 6941 | 9,7 | 90,3 |
| 2011[1)] | 696 | 6777 | 9,3 | 90,7 |
| 2012[1)] | 693 | 6973 | 9,0 | 91,0 |
| 2013 | 762 | 7188 | 9,6 | 90,4 |
| 2014 | 773 | 7364 | 9,5 | 90,5 |
| 2015 | 797 | 7301 | 9,8 | 90,2 |
| 2016 | 798 | 7246 | 9,9 | 90,1 |
| 2017 | 768 | 7097 | 9,8 | 90,2 |
| 2018 | 796 | 7000 | 10,2 | 89,8 |
| 2019 | 792 | 7030 | 10,1 | 89,9 |

1) 5-9-cu təsnifatlar üzrə inzibati vəzifələr

**Əlavə 5.**

## Hakimlərin cins üzrə bölgüsü

| İllər | Sayı, nəfərlə | | Cins bölgüsü, faizlə | |
|---|---|---|---|---|
| | qadınlar | kişilər | qadınlar | kişilər |
| 2015 | 62 | 451 | 12 | 88 |
| 2016 | 61 | 444 | 12 | 88 |
| 2017 | 57 | 423 | 12 | 88 |
| 2018 | 84 | 487 | 15 | 85 |
| 2019 | 78 | 460 | 14 | 86 |

Mühafizə orderi 1996-cı ildə BMT tərəfindən “Ailədə zorakılıq haqqında model qanunvericilk”[75] qəbul edildikdən sonra geniş yayılmağa başladı.

75 untitled (cawater-info.net)

# Xarici təcrübə

## 1. Cinayət qanunvericilıyinin islahatı ilə bağlı

(Mənbə: Коллектив авторов. Домашнее насилие
по законодательству зарубежных стран. Ответственность и превенция.
«Юриспруденция», 2013)

**Polşa** qanunvericiliyində, yaxınlarına qarşı zorakı hərəkətlərlə əlaqədar cinayətlərin əsas tərkibləri Cinayət Məcəlləsinin "Ailə və qəyyumluğa qarşı cinayətlər" adlı ayrıca fəslində təsbit olunmuşdur. Bununla yanaşı, cinayət məsuliyyəti həm yaxınlarına, həm də kənar şəxslərə münasibətdə törədilə bilən zorakı hərəkətlərə görə müəyyən edilir. Bundan çıxış edərək Cinayət Məcəlləsinin digər fəsilləri ilə tənzimlənən bir sıra tərkiblər də şəxsin evdə törətdiyi əməllərə görə məsuliyyət daşıması üçün əsas ola bilər. Onların sırasında sağlamlığa zərər vurma (maddələr 156, 157); cinayət törətmək təhdidi (maddə 190); cinsi əlaqəyə məcbur etmə və ya seksual xarakterli digər hərəkətlər (maddə 197); azyaşlılara qarşı cinsi təcavüz (Maddə 200) kimi cinayətlər var.

Ailədə zorakılıq anlayışı ilə əlaqədar hərəkətlərin daha dəqiq tərkibi CM-nin 207-ci maddəsində göstərilmişdir: "ən yaxın şəxs və ya təqsirli şəxsdən daimi və ya müvəqqəti asılılıq altında olan şəxs, yaxud azyaşlı və ya fiziki vəziyyəti ilə əlaqədar köməksiz şəxslər üzərində fiziki və ya psixoloji təsir vasitəsilə zorakılıq…" Belə davranışa görə təqsirli şəxs 3 aydan 5 ilədək müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edilir. Əgər bu əməl xüsusi amansızlıqla törədilirsə təqsirli şəxs 1 ildən 10 ilədək azadlıqdan məhrum edilir.

Məişət zorakılığı kimi təsnifləşdirilən əməllərin sayı 2010-cu ildə Ailə Məcəlləsinin yenilənməsindən sonra artırıldı. 2010-cu ildən valideynlik və qəyyum hüquqlarını həyata keçirən şəxslər tərəfindən azyaşlı uşaqlara münasibətdə bədən cəzalarının tətbiqinə qadağa qoyuldu. Bu normanın pozulması halında sosial işçi polis və səhiyyə xidməti əməkdaşlarının iştirakı ilə uşağı götürə, məhkəmə isə 24 saat ərzində valideynlik hüquqlarından məhrumetmə haqqında qərar qəbul edə bilər.

Polşada məişət zorakılığı törədənlərə təsir tədbirləri törədilən əməlin ağırlığından asılı olaraq tərbiyəvi, inzibati və cinayət xarakterli ola bilər. Son illərdə Polşa qanunvericiliyinin inkişafı profilaktik xarakterli tədbirlərin genişləndiyini və əhəmiyyətinin artdığını, məişət zorakılığı sahəsində inzibati xəta və cinayətlərə görə məsuliyyətin ağırlaşdırıldığını göstərir. Məsələn, məhkəmə məişət zorakılığı törətməkdə təqsirli olan şəxslərə zorakılıq hərəkətlərinin qurbanına 15 il ərzində yaxınlaşmanı qadağan etmək hüququna malikdir.

**Kanadanın** məişət zorakılığı ilə mübarizə siyasətinin hazırlanmasında və həyata keçirilməsində tanınmış bir lider hesab edilməsinə baxmayaraq, bu sahədə xüsusi federal qanun yoxdur və belə bir qanunun yaradılması öz-özlüyündə məqsəd olmamışdır, lap əvvəldən əsas diqqət regional qanunlarının və bu bəla ilə mübarizəyə istiqamətlənmiş yerli sosial proqramların hazırlanmasına yönəldilmişdir.

Məişət zorakılığından müdafiə sahəsində cinayət qanunvericiliyi normalarının hazırlanmasına gəlincə, ilk növbədə cinsi cinayətlərlə bağlı qanunvericiliyə diqqət yetirməyə dəyər. Demək lazımdır ki, 1983-cü ilədək hətta ayrı yaşasalar öz arvadına təcavüz edən və ya ona münasibətdə cinsi istismara yol verən kişi yalnız qadının zorakılıq nəticəsində şikəst olması halında cinayət məsuliyyətinə cəlb olunurdu. 1983-cü ildə zorlama haqqında qanun dəyişdirildi və evlilik (nikah) dövründə zorlama da cinayət hesab edildi.

Kanada Cinayət Məcəlləsinə 1994-cü ildə edilən dəyişikliklər ona gətirib çıxardı ki, zorlama

artıq ictimai əxlaqa və ictimai asayişə qarşı bir cinayət deyil, şəxsiyyət və nüfuza qarşı cinayət hesab edilir.. Bundan əlavə, üç yeni cinayət tərkibi tətbiq edildi: sadə cinsi təcavüz; silah və ya digər vasitələrdən istifadə etməklə bədən xəsarəti ilə nəticələnən cinsi təcavüz və ağır cinsi təcavüz. Beləliklə, Kanada cinayət hüququnun həyat yoldaşları arasındakı münasibətlərdə cinsi təcavüz cinayət hesab edilə bilməz kimi inama söykənən seksist və köhnəlmiş aspektlərindən biri ləğv edildi.

Cəzanın növü və miqdarı Kanada Cinayət Məcəlləsində nəzərdə tutulmuş cəza prinsiplərinə, habelə islah proqramının nəticələrinə əsasən müəyyən edilir. Cinayətkarlar üçün üç növ islah proqramı geniş istifadə olunur: 24 saatlıq qrup məsləhətləşmələri (6 dildə verilir); 84 saatlıq intensiv terapiya proqramı (sınaq müddəti olanlar üçün); 300 saatlıq proqram (həbsdə olanlar üçün). Məişət zorakılığı törədənlər üçün fərdi məsləhət proqramları da mövcuddur.

Məişət zorakılığı işləri üzrə məhkəmə adətən müəyyən sınaq müddəti ilə və ya müddət müəyyən etmədən yalnız sınaq müddəti şəklində şərti həbs cəzası təyin edir. Təqsirləndirilən şəxs sınaq müddəti üçün cəzanın tələblərini pozarsa, real həbs müddətini çəkməklə cəzalandırıla bilər. Cəza təyin edərkən təqsirləndirilən şəxsin günahını etiraf etməsi də nəzərə alınır.

1997-ci ildə **Almaniyada** cinayət hüququnun normaları, mülkiyyət əleyhinə cinayətlərə görə sanksiyaların həyat və sağlamlığa qarşı olan cinayətlərə görə sanksiyaları aşmaması üçün yeniləndi. Almaniya qanunvericiliyində məişət zorakılığı və ya qadınlara qarşı zorakılığın normativ tərifi yoxdur.  Bununla birlikdə, federal hökumətin 2001-ci ildə parlamentə verdiyi ilk müntəzəm hesabatda qadınların zorakılıqdan qorunması məsələsindən bəhs edilir. Hesabat, böyüklərə qarşı cinsi cinayətlərə, uşaqlara qarşı cinsi cinayətlərə və insan alverinə xüsusi diqqət yetirərək, zorakı cinayətlərin inkişafına dair müasir qanunvericilik dilini ehtiva edir. Hesabat, Federal Hökumətin cinayət siyasəti ilə bağlı tapıntılarını da əks etdirir.

Almaniyada cinsi zorakılıq və zorlama bir qadının öz cinsi müqəddəratını təyin etmə hüququna son dərəcə təhlükəli zorakılıq aktı kimi qiymətləndirilir. Öz cinsi müqəddəratını təyin etmənin əsas xüsusiyyəti toxunulmazlığıdır - qadının evlənməsi faktı ilə nə ləğv edilə, nə də məhdudlaşdırıla bilər.

Zorlama və cinsi zorakılığa görə (Almaniya Cinayət Məcəlləsinin 177-ci maddəsinin 1-ci hissəsi) o şəxs məsuliyyət daşıyır ki, o, həyat və sağlamlıq üçün təhlükəli zorakılıq və ya bilavasitə zorakılıq tətbiq etmə hədəsi ilə, yaxud qurbanın köməksiz vəziyyətindən istifadə etməklə onu özünün və üçüncü şəxslərin seksual hərəkətlərinə dözməyə məcbur edir.

1997-ci ilin iyul ayında uzun debat və mübahisələrdən sonra CM-nin 177-ci maddəsinin formulirovkası onun qüvvəsinin nikah dövründə zorlama hallarına aid edilməsi ilə dəyişdirildi. Qanunun əvvəlki formulirovkası yalnız ekstramarital (nikahdan kənar) zorlamanı cinayət kimi müəyyən edirdi.

Alman qanunvericiliyində uşaqlara, yəni 14 yaşına çatmamış şəxslərə qarşı zorakılığa dair normalar mühüm yer tutur. Bu cür zorakılığın tərkibi Almaniya Cinayət Məcəlləsinin 176-cı maddəsində nəzərdə tutulmuşdur. 1 aprel 1998-ci ildə qüvvəyə minən cinayət qanunvericiliyinin islahatı haqqında altıncı Qanun uşaqlara qarşı cinsi zorakılığa görə daha sərt cəzalar müəyyənləşdirdi. Yeni Qanunun mənası daxilində uşaqlara qarşı ciddi cinsi zorakılıq halları bundan sonra adi cinayətlər kimi deyil, ağır cinayətlər kimi qiymətləndiriləcək və hər bir işin ağırlığından asılı olaraq tətbiq edilən minimum həbs cəzası bir, iki, ya da beş ilə bərabər olacaq. Bundan əlavə, əgər müəyyən bir vəziyyətdə uşağa qarşı cinsi zorakılıq onun həyatı üçün təhlükə yaradırsa, məhkəmənin verdiyi həbs müddəti daha yüksəkdir. Əgər uşaq cinsi istismar nəticəsində ölərsə, cəza 10 ildən ömürlük azadlıqdam məhrum etməyədək cəza nəzərdə tutulur.

Almaniyada məcburi evlilik kimi məişət zorakılığı forması ilə də  mübarizə aparılır. O, cinsi istismarın bir forması kimi nəzərdən keçirilir və adətən köhnə adətlərin qaldığı müsəlman mühacir

ailələrində rast gəlinir. 2004 -cü ildə Berlində mühacirlər arasında aparılan sosioloji araşdırmalar nəticəsində 300-ə yaxın məcburi evlilik və 30 zorla nişanlanma hadisəsi ortaya çıxdı. Oxşar rəqəmlər digər böyük şəhərlərdə, məsələn, Gamburg, həmçinin Baden-Württemberg federal əyalətində də müşahidə edilir. Almaniyanın cinayət qanunvericiliyində hamiləliyin qanunsuz kəsilməsi, istəyə görə öldürmə (əgər şəxs davamlı və sistematik təzyiq nəticəsində öldürülməsini xahiş edirsə), müdafiə altında olan şəxslərləpis davranış, fiziki vı psixi zorakılıq, insan alveri və s. kimi məişət zorakılığı cinayətləri də öz əksini tapıb.

**Sloveniyada** Cinayət Məcəlləsi ilkin olaraq ailədə zorakılığı "İctimai qayda və sülh əleyhinə cinayətlər" bölməsində aqressiv davranış kimi nəzərdə tuturdu. Məcəllədə deyilirdi ki, başqa şəxsi təhqir etmək, onunla pis rəftar etmək və ya onun təhlükəsizliyini təhlükə altında qoyan və cəmiyyətdə və ya ailədə qorxu və qəzəb atmosferi yaradan qanunsuz zorakı hərəkətlər törətmək iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

2008-ci il noyabrın 1-dən qüvvəyə minən Cinayət Məcəlləsinə düzəlişlər məişət zorakılığını müstəqil cinayət kimi təsbit etdi. Hazırda müvafiq norma "Nikah, ailə və gənclər əleyhinə cinayətlər" bölməsində öz əksini tapıb. Sloveniyanın Cinayət Məcəlləsinin yeni redaksiyası nəinki məişət zorakılığına görə cinayət məsuliyyəti müəyyən edir, həm də onun tərifini verir.

Qeyd edək ki, məişət zorakılığı cinayətinin tərkibi nisbətən geniş müəyyənləşdirilir, belə ki, maddədə ailə və ya digər uzunmüddətli birgə yaşayış formaları şəraitində törədilən və təhqirdə, döymədə, ağrı yetirmədə, alçaltmaqda, fiziki güc təhdidi altında ümumi yaşayış yerindən qovmaq cəhdində, təqibdə, işə məcburetmədə və ya işdən imtinada, yaxud hüquq bərabərliyinin zorakılıqla məhdudlaşdırılması cəhdlərində ifadə olunan hərəkətlərə görə beş ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulur.

### 2. Təqibin cinayət hesab edilməsi ilə bağlı

Avropa Birliyinin Əsas Hüquqlar Agentliyi 2014-cü ilin mart ayında qadınlara qarşı zorakılıqla bağlı statistikanın toplanması və təhlilinə həsr olunmuş araşdırma nəşr etdi. Araşdırma göstərdi ki, Aİ-nin 28 üzv ölkəsində 42.000 respondentdən 18%-i təqibə (izlənməyə) məruz qalıb; respondentlərin 21%-nə münasibətdə təqib 2 ildən çox davam edib.[76] Almaniyada hər il qurbanlar tərəfindən polisə ünvanlanan 25.000 müraciət qeydə alınır, lakin Agentliyin apardığı araşdırmaya görə, qadınların yalnız 26%-i cinayət haqqında məlumat verir və buna görə də əslində təqib (stalking) halları faktiki olaraq dəfələrlə çoxdur, təqiblə bağlı cinayətlərin latentliyi isə çox yüksəkdir.[77]

Təqib (stalking) dünyanın bir çox ölkəsində cinayət sayılır, məsələn, Almaniya, Polşa, ABŞ, İngiltərə, Kanada, Avstraliya, Hindistan və s. 2016 -cı ilin iyul ayında Norveçdə izləmə cinayət sayıldı.

**Almaniyada** təqibə görə cinayət məsuliyyəti 2007-ci ildə Cinayət Məcəlləsinin 238-ci paraqrafında (§238 StGB) təsbit edildi. Almaniyada təqib aşağıdakı kimi başa düşülür: qurbanla müxtəlif ünsiyyət vasitələrindən istifadə etməklə və ya üçüncü şəxslər vasitəsi ilə arzuolunmaz əlaqə cəhdləri; şəxsi məlumatların istifadəsindən sui-istifadə; arzuolunmaz hədiyyələr; qurbanla yaxınlıq axtarma; qurbana və ya yaxınlarına zərər vermə təhdidi, azadlıqdan məhrumetmə hədəsi, öldürmə təhdidi; adi həyat tərzinə əhəmiyyətli dərəcədə təsir edən digər fəaliyyətlər. Almaniyada təqibə görə məsuliyyətə cəlb etmənin mürəkkəbliyi təqibçinin hərəkətlərinin qurbanın gündəlik həyatına əhəmiyyətli təsiri kimi mənfi nəticələrin (məsələn, başqa yerə köçmə və ya iş yerinin dəyişdirilməsi) mövcudluğunu sübut etmək zərurəti ilə bağlıdır.

[76] European Union Agency for Fundamental Rights Violence against women: an EU-wide survey Survey methodology, sample and fieldwork Technical report, 2013 – 103 p.

[77] Преследование как новый вид уголовно-наказуемого деяния. – Статьи – Публикации ВШЭ – Национальный исследовательский университет «Высшая школа экономики» (hse.ru)

1993-cü ildən etibarən **Kanada** Cinayət Məcəlləsində böhtan (defamatory libel, section 300 of the Criminal Code of Canada), zərər vurma (mischief, section 430), zor tətbiq etmə hədəsi (uttering threats, section 264.1), məcburetmə (intimidation, section 423) kimi tərkiblərlə yanaşı 264-cü maddədə təqib cinayəti təsbit edildi.[78] Kanadada qanunsuz təqibin (izləmənin) əlamətlərinə aşağıdakılar aid edilir: təqib üçün qanuni əsasın olmaması; təqib bezdirici, sistematik olmalıdır, lakin əgər stalker (təqib edən) öz hərəkətləri ilə qurbanı həyatı üçün təhlükə hiss etməyə məcbur edirsə, o zaman tək bir epizod da kifayətdir. Cinayət hesab edilən təqib nümunələrinə davamlı zənglər və cavabdan sonra dəstəyin asılması, İnternet şəbəkəsində (elektron poçt, çatlar, sosial şəbəkələr və s.) istənilən arzuolunmaz əlaqələr, sms-məlumatlar, səsli məlumatlar, arzuolunmaz hədiyyələr, dostlardan və qohumlardan məlumatların alınması və s. Təqib edənin davranışı arzuolunmaz xarakter daşımalı və diskomfort, stres doğurmalıdır.

**Böyük Britaniyada** təqib (stalkinq) anlayışı 25 noyabr 2012-ci ildə qüvvəyə minən “Azadlığın müdafiəsi haqqında” qanunla (Protection of Freedoms Act) qanunvericiliyə daxil edildi. Hazırda Böyük Britaniyada təqiblə bağlı cinayət hesab edilən bir neçə əməl var: təcavüz; izləmə; zorakılıq təhdidi hissi doğuran hərəkətlər; qorxu, həyəcan hissi və stres doğuran zorakılıq təhdidi ilə əlaqəli təqib; təqibə mülki qaydada qadağanın pozulması; mühafizə orderinin pozulması.

1996-cı ildə **ABŞ** Konqresi təqibi federal cinayət olaraq müəyyən etdi. Sonradan qanunvericiliyə mühüm mənəvi zərər yetirən təqib; GPS sisteminin köməyi ilə elektron kommunikasiyadan istifadə etməklə təqib kimi yeni tərkib növləri daxil etməklə təqibdən cinayət-hüquqi müdafiəni genişləndirən düzəlişlər edildi.[79] Qanunlar Məcəlləsinin 2261A maddəsində qadağan olunmuş hərəkətlərin siyahısı verilir: qurbanın, onun yaxınlarının, qohumlarının, həyat yoldaşının, intim partnyorunun ölümü və ya sağlamlığına zərər yetirilməsi qorxusu yaradan hərəkətlər; əhəmiyyətli mənəvi zərər vurulmasına, zərər vurulması cəhdinə yönəlik və ya təqsirkarın davranışının belə zərər vurulması ehtimalına əsas verən hərəkətləri; stres və panika yaradan hərəkətlər; öldürməyə cəhdə və ya təhdidə, zərər vurulmasına, təqib etməyə və ya insanın oğurlanmasına yönəlik hərəkətlər; İnternet şəbəkəsi və ya digər texnologiyaların köməyi ilə həyata keçirilən təqib. Cinayətkar təqibi bir neçə ştatın hüdudlarında həyata keçirirsə federal qanunvericilik, əgər əməl bir ştatın ərazisi ilə məhdudlaşırsa ştatın qanunvericiliyi tətbiq edilir.

**Polşada** təqibə görə cinayət məsuliyyəti 25 fevral 2011-ci ildə müəyyən edilib və azadlıq əleyhinə cinayətlər bölməsində (maddə 190a) öz əksini tapıb. Polşa qanunvericiliyində təqibin tərifi yoxdur. Məcəllədə həmçinin qadağan edilmiş hərəkətlərin təxmini siyahısı da yoxdur, lakin maddənin normaları təqib nəticəsində mütləq baş verməli olan “əsaslandırılmış narahatlıq halları”, “şəxsi həyatın mühüm pozuntusu” kimi arzuolunmaz nəticələri nəzərdə tutur. Mənfi nəticələrin olmaması cinayət məsuliyyətinə cəlb etməmək üçün əsasdır.[80]

Norma həmçinin şəxsiyyətə əmlak və ya digər zərər vurmaq məqsədilə insanın şəxsi məlumatlarını istifadə etməyə qadağanı nəzərdə tutur. Cinayətkar təqibdən və ya şəxsi məlumatlarının istifadəsi səbəbindən zərərçəkmişin intihara cəhd etməsinə görə isə Polşanın Cinayət Məcəlləsi 10 il müddətinə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutur.

---

[78] http://yourlaws.ca/criminal-code-canada/264-criminal-harassment

[79] Code of Laws of the United States of America, Title 18 § 2261A, 18 U.S.C. § 2261A(2)(B), 18 U.S.C. § 2261A(2)(A). https://www.law.cornell.edu/uscode/text/18/2261A

[80] Голонка А. Упорное преследование ка новый тип запрещенного деяния // Уголовное право и современность. Сборник статей. Вып. 4. Том 2. М.: Национальный исследовательский университет «Высшая школа экономики»: Издательство «Юрист», 2012. С. 46- 59

**Əlavə 7.**

## Avropa İnsan Hüquqları Məhkəməsinin məişət zorakılığı ilə bağlı işlər üzrə qərarlarından seçmələr[81]

### Yaşamaq hüququ (İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 2-ci maddəsi) Kontrovà Slovakiyaya qarşı

**31 may 2007**

02 noyabr 2002-ci il tarixində ərizəçi (iddiaçı) əri tərəfindən zorakılığa məruz qaldığına və elektrik kabeli ilə döyüldüyünə görə cinayət işinin qaldırılması üçün şikayət etmişdir. Daha sonra ərinin müşayiəti ilə cinayət işi ilə bağlı şikayət ərizəsini geri götürməyə çalışmışdır. Nəticə etibarı ilə o, öz şikayət ərizəsini dəyişdirərək ərinin ona qarşı iddia edilən hərəkətləri heç bir tədbir görülməsini tələb etməyən xırda qanun pozuntusu kimi dəyərləndirildi. 31 dekabr 2002-ci ildə onun əri 1997 və 2001-ci il təvəllüdlü qızı və oğlunu odlu silahla qətlə yetirdi. Avropa İnsan Hüquqları Məhkəməsi qarşısında ərizəçi ərinin təhqiredici və təhdidedici davranışından məlumatlı olan polisin onun uşaqlarının həyatının qorunmasının təmin edilməsi üçün lazımi tədbirlərin görmədiyini iddia etdi. O, daha sonra təzminat alınmasının mümkün olmadığı barədə şikayət etdi.

Avropa İnsan Hüquqları Məhkəməsi hakimiyyət orqanlarının ərizəçinin uşaqlarının həyatlarının qorunması üçün zəruri addımların atılmaması ilə bağlı İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 2-ci maddəsinin (yaşamaq hüququ) pozulması faktını müəyyən etmişdir. Məhkəmə qeyd etmişdir ki, noyabr 2002-ci il tarixli cinayət barədə şikayət ərizəsivə dekabr 2002-ci il tarixində polisə telefon zənglərini nəzərə alaraq, ərizəçinin ailəsindəki vəziyyət barədə yerli polis məlumatlı olub. Buna cavab olaraq, qüvvədə olan qanuna əsasən, polis aşağıdakı zəruri tədbirləri görməyə borclu idi: şikayətçinin cinayət barədə müraciətini qeydə almaq; şikayətçinin əri barədə təxirəsalınmaz zəruri istintaq və cinayət-prosessual tədbirləri həyata keçirmək; fövqəladə çağırışların müvafiq qaydada qeydə alınması və növbətçi hissədə növbəni təhvil alan polis həmkarlarını vəziyyət barədə məlumatlandırmaq və şikayətçinin ərinin odlu silaha sahib olması və bu silahdan istifadə etməklə hədələmə iddiası ilə bağlı zəruri tədbirlər görmək. Buna baxmayaraq, bu işdə iştirak edən polis əməkdaşlarından biri törədilmiş cinayət hərəkətinin cinayət tərkibi olmayanvə heç bir tədbir görülməsini tələb etməyən xırda qanun pozuntusu kimi xarakterizə olunması üçün hətta şikayətçiyə və ərinə 2002-ci ilin noyabrında baş vermiş cinayət barədəiddia ərizəsinin dəyişdirilməsində köməklik göstərmişdir. Nəticədə, polisin vəzifə borclarının lazımınca yerinə yetirməməsi ucbatından bilavasitə ərizəçinin uşaqlarının həyatlarının itirilməsi faktı yerli məhkəmələr tərəfindən müəyyən edilmiş və Slovakiya hökuməti tərəfindən etiraf edilmişdir. Əlavə olaraq, məhkəmə Konvensiyanın **13-cü Maddəsinin pozulduğunu**müəyyən etmişdir (effektiv hüquqi müdafiənin təmin edilməsi), belə ki, dəymiş mənəvi zərərə görə təzminatın alınması üçün ərizəçi məhkəməyə müraciət etmə imkanına malik olmalı idi, lakin bu cür hüquqi müdafiə vasitəsi şikayətçi üçün təmin edilməyib.

[81] Məişət Zorakılığı (coe.int)

## Branko Tomašić və Digərləri Xorvatiyaya qarşı

**15 yanvar 2009**

Ərizəçilər körpənin və onun anasının qohumları idi, qadının əri ailəsinə qarşı ölümlə hədələməilə bağlı cəza çəkdiyi cəzaçəkmə müəssisəsindən azad edildikdən bir ay sonra həm körpəni, həm də onun anasını qətlə yetirmiş və daha sonra özü də intihar etmişdir. İlkin olaraq, onun həbsxanada və həbsdən azad edildikdən sonra zərurət yaranarsa, məcburi psixiatrik müalicədən keçməsi barədə qərar qəbul edilmişdir, lakin apellyasiya məhkəməsi onun həbsdən azad edildikdən sonra müalicəsinin dayandırılması barədə qərar qəbul etmişdir. Ərizəçilər xüsusilə şikayət edib ki, Xorvatiya dövləti tərəfindən qətlə yetirilən uşaq və onun anasının qorunması istiqamətində adekvat tədbirlər görülməyib və onların ölümlərinə görə Dövlətin məsuliyyəti lazımi qaydada araşdırılmayıb.

Məhkəmə qərara gəlib ki, Xorvatiya hökumətinin uşağın və anasının ölümünün qarşısının alınması istiqamətində lazımi tədbirləri görməməsi səbəbindən Konvensiyanın **2-ci maddəsinin** (“Yaşamaq hüququ”) **pozulması** baş verib. Xüsusilə qeyd olunub ki, yerli məhkəmələrin qənaətləri və psixiatrik müayinə nəticələrini özündə əks etdirən həkim rəyləriheç şübhəsiz ki, hakimiyyət orqanlarının ana və uşağın həyatına qarşı təhdidlərin ciddi xarakter daşıdığından və onların qorunması üçün bütün zəruri tədbirlərin görülməsinin vacibliyindən məlumatlı olduqlarını göstərib. Məhkəmə həmçinin aidiyyəti orqanların işə münasibətində və davranışlarında bir sıra çatışmazlıqları da qeyd edib: baxmayaraq ki, cinayət təqibi məqsədləri üçün tərtib edilmiş həkim-psixiatrik komissiyasının rəyində cinayəti törətmiş şəxsin davamlı olaraq psixiatrik müalicə alma ehtiyacı xüsusilə vurğulanıb, Xorvatiya hökuməti belə müalicəninfaktiki olaraq və düzgün təmin edildiyini sübuta yetirə bilməyib; təqdim olunan sənədlər onu göstərir ki, ərin cəza çəkmə müəssisəsində aldığı psixiatrik müalicə ixtisaslı həkim-psixiator tərəfindən deyil, həbsxana heyəti ilə şifahi danışıq seanslarından ibarət olub; nə müvafiq göstərişlərdə, nə də məcburi psixiatrik müalicəni təyin edən məhkəmə qərarında müalicənin necə aparılması və təmin edilməsi barədə kifayət qədər ətraflı məlumat verilməyib; və ən nəhayət, ərin hələ uşaq və anasının həyatına təhlükə yaradıb-yaratmadığını qiymətləndirmək üçün cəzaçəkmə müəssisəsindən azad edilməzdən əvvəl həkim müayinəsindən keçməsi təmin edilməyib. Məhkəmə buna görə də belə bir qənaətə gəldi ki, müvafiq yerli orqanlar uşaq vəanasının həyatlarını qorumaq üçün lazımi tədbirləri görməyib.

## Durmaz Türkiyəyə qarşı

**13 noyabr 2014**

Ərizəçinin qızı həyat yoldaşı tərəfindən təcili yardım məntəqəsinə aparıldıqdan sonra xəstəxanada ölüb, həkimlərə isə onun dərman preparatlarından dozadan artıq istifadə etdiyi barədə məlumat verib. O, polisə verdiyi ifadəsində bildirib ki, həmin gün onların arasında mübahisə baş verib və nəticədə onu vurduğunu bildirib. Mərhumun atası nəticədə onun qızının intihar etmədiyini və onun ölümünə görə məhz ərinin məsuliyyət daşıdığını iddia edərək prokurora şikayət ərizəsi ilə müraciət edib. Prokuror tərəfindən aparılmış istintaq nəticəsində

qızın intihar etdiyi qənaətinə gəlinib. Ərizəçinin buna etirazı yerli məhkəmələr tərəfindən rədd edilib. Məhkəmə qarşısında ərizəçi qızının ölümü ilə bağlı aparılan istintaqın effektiv olmadığı iddiası ilə şikayət edib.

Məhkəmə, Türkiyənin hakimiyyət orqanları tərəfindən ərizəçinin qızının ölümü ilə bağlı istintaqın aparılmasında aşkar səriştəsizliyi (effektiv rəsmi istintaq aparmaq öhdəliyi) səbəbindən və cinayət-prosessual baxımından Konvensiyanın **2-ci maddəsinin** (yaşamaqhüququ) tələblərinin **pozulduğuna** dair qərarını qəbul edib. Opuzun Türkiyə hökumətinə qarşı işində xüsusilə qeyd edildiyi kimi, məhz daha çox qadınlar məişət zorakılığının qurbanına çevrilirlər və Türkiyədə ayrı-seçkiliyin yol verildiyi ümumi məhkəmə (ədalət mühakiməsi) passivliyi məişət zorakılığı hallarının geniş yayılması üçün əlverişli mühit yaradır.

## Talpis İtaliya hökümətinə qarşı

**2 mart 2017-ci il**

Bu şikayət ərizəçinin əri tərəfindən fiziki zorakılığa məruz qalması, oğlunun qətlə yetirilməsi və özünün ölümünə cəhdlə nəticələnən məişət zəminində törədilmiş zorakılıq işi ilə bağlıdır.

Məhkəmə qərara alıb ki, ərizəçinin oğlunun öldürülməsi və onun özünün ölümünə cəhd edilməsi Konvensiyanın **2-ci maddəsinin** (Yaşama hüququ) **pozulması** hesab edilir. Xüsusən də İtaliyanın hakimiyyət orqanları ərizəçinin şikayətinə müvafiq qaydada baxılmaması və təxirəsalınmaz zəruri qoruma tədbirlərinin görülməməsi ərizəçinin oğlunun ölümünə və anasının ölümünə cəhdlə nəticələnən zorakılıq əməlinin baş verməsinə səbəb olmuş və bununla da cəzasızlıq mühiti yaratmışlar. Buna görə də hakimiyyət orqanları iş üzrə sözügedən şəxslərin həyatlarının qorunması ilə bağlı dövlətin rəsmi öhdəliyinin yerinə yetirilməsini təmin edə bilməyiblər. Məhkəmə həmçinin müəyyən edib ki, hakimiyyət orqanları tərəfindən ərizəçinin məişət zorakılığı aktlarından qorunmasını təmin etməklə bağlı dövlətin rəsmi öhdəliyinin yerinə yetirilməməsi nəticəsində Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan edilməsi) **pozulması** halı baş verib.Bu münasibətdə, ərizəçi öz uşaqları ilə zorakı davranış kimi xarakterizə edilə bilməsi üçün kifayət qədər ciddi hesab olunan məişət zorakılığı mühitində yaşamaq məcburiyyətində qaldığını xüsusilə vurğulayıb. Buradan da məhkəmə icraatında nümayiş etdirilən passivlik də daxil olmaqla cinayət prosesini həyata keçirən orqanların fəaliyyətinin qənaətbəxş olmadığı və Konvensiyanın 3-cü maddəsinin tələblərinə cavab vermədiyi qənaətinə gəlinib. Məhkəməyekun olaraq, ərizəçinin aidiyyəti orqanları tərəfindən sözügedən zorakılığı az əhəmiyyətli hesab etmiş və sonda onu təsdiq edən dövlət orqanlarının fəaliyyətsizliyi (hərəkətsizliyi) nəticəsində bir qadın kimi ayrı-seçkilik qurbanına çevrilməsini əsas gətirərək Konvensiyanın**2-ci və 3-cü maddələri ilə birlikdə 14-cü** maddənin (ayrı-seçkiliyin qadağan edilməsi) **pozulduğunu** müəyyən edib.

## İşgəncə və qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi (Konvensiyanın 3-cü maddəsi)

## Hakimiyyət orqanları tərəfindən zərər çəkmiş şəxslərin məişət zorakılığından qorunması üçün tədbirlərin yetərsiz olması ilə bağlı iddia

### E.S. və Digərləri Slovakiyaya qarşı (8227/04 saylı iş)

**15 sentyabr 2009**

2001-ci ildə ilk ərizəçi öz ərini tərk etdikdən sonra ona və uşaqlarına (1986, 1988 və 1989-cu il təvəllüdlü) qarşı pis rəftara, qızlarından birinə qarşı isə cinsi zorakılığa yol verdiyinə görə ərinin cinayət məsuliyyətinə cəlb olunması üçün hüquq-mühafizə orqanlarına şikayətərizəsi ilə müraciət etmişdir. İki ildən sonra isə onun əri zorakılıq və və cinsi zorakılığa yol verdiyinə görə məhkum edilmişdir. Ərizəçinin onun həyat yoldaşının evdən çıxmasının göstəriş verilməsi üçün etdiyi müraciət təmin edilməmiş, bununla belə məhkəmə onun ərinin əmlaka (şikayətçi yalnız nikahın pozulması zamanı əmlak payına xitam verə bilərdi) girişini məhdudlaşdırmaq səlahiyyətinə malik olmadığı qənaətinə gəlmişdir. Buna görə birinci ərizəçi və onun uşaqları öz dostlarını və ailəsini tərk etmək məcburiyyətində qalmış və uşaqlardan ikisi məktəblərini dəyişdirməli olmuşlar. Onlar, dövlət orqanları tərəfindən onların məişət zorakılığından qorunması üçün zəruri tədbirlərin görülməsini təmin etmədikləri barədə şikayət ediblər.

Məhkəmə qərara alıb ki, Slovakiya dövləti birinci ərizəçinin və onun uşaqlarının həyat yoldaşının zorakı davranışından qorunması üçün adekvat tədbirlərin görülməsini təmin etməyib və bu hal Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi) və **8-ci maddəsinin** (şəxsi və ailə həyatı hüququ) **pozulması** ilə nəticələnib. Məhkəmə həmçinin qeyd edib ki, iddiaların mahiyyətini və şiddətini nəzərə alaraq, birinci ərizəçi və uşaqlar bir və ya iki ildən sonra deyil, dərhal zəruri qoruma tədbirlərinin görülməsini tələb ediblər. Bundan başqa, birinci ərizəçi, 2002-ci ilin may ayında boşanma prosesi yekunlaşana qədər əmlak bölgüsü üçün müraciət edə və ya 2003-cü ilin yanvar ayında qanuna düzəliş edildikdən sonra keçmiş ərinin birgə yaşadıqları ailə evindən çıxarılması üçün məhkəmə qarşısında vəsatət qaldıra bilməmişdir. Buna görə də o,bu müddət ərzində özünün və uşaqlarının effektiv şəkildə qorunmasına nail ola bilməmişdir.

## Məişət zorakılığı ilə bağlı şikayətlər üzrə aparılan araşdırmaların qeyri-qənaətbəxşliyi

### E.M. Rumıniyaya qarşı (43994/05 saylı)

**30 oktyabr 2012**

Ərizəçi bir yaş yarımlıq qızının gözləri qarşısında törədilmiş məişət zorakılığı ilə bağlı cinayət işi üzrə aparılan istintaqın səmərəli olmadığını iddia edib. Rumıniya məhkəmələri ərizəçinin əri tərəfindən zorakılığa məruz qalması haqqında iddiaların sübuta yetirilmədiyini əsas gətirərək ərizəçinin şikayətlərini rədd etmişdir.

Məhkəmə qərara alıb ki, istintaqın aparılma qaydası ərizəçinin maddə 3 üzrə tələb olunan effektiv müdafiəsinin təmin edilməsi üçün adekvat olmadığını nəzərə alaraq prosessual sonluq üzrə Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi) **pozulması** baş verib. Xüsusilə də qeyd olunur ki, ərizəçi ilk şikayətini edərkən özünü və qızını ərinin aqressiv və zorakı davranışından qorumaq məqsədilə aidiyyəti dövlət qurumlarına zəruri yardım və müdafiə tədbirlərinin görülməsi üçün müraciət etmişdir. Müxtəlif dövlət orqanları arasında əməkdaşlığı və məişət zorakılığına qarşı tədbirlərin müəyyən edilməsi və yerinə yetirilməsini təmin etmək üçün qeyri-məhkəmə tədbirlərini nəzərdə tutan qanunvericilik çərçivəsinin mövcud olmasına və ərizəçinin ittihamlarını təsdiq edən mötəbər sübutları (prima facie) təqdim edən tibbi arayışın olmasına baxmayaraq, iş üzrə materiallardan da göründüyü ki, bu məqsədlə hər hansı səmərəli tədbir görülməyib.

## Valiulienė Litvaya qarşı

**26 mart 2013**

Bu şikayət məişət zorakılığı qurbanı olan qadının hakimiyyət orqanlarının onun partnyoru tərəfindən yol verilən pis rəftarın araşdırılmaması və partnyorunu məsuliyyətə cəlb etməməsi iddiaları ilə bağlıdır.

Məhkəmə tərəfindən Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan olunması) **pozulmasına** dair qərar qəbul edilib və bu işdə tətbiq olunan hüquqi praktikaların və həyata keçirilən cinayət qanunu mexanizmlərinin ərizəçinin məişət zorakılığı hallarına qarşı adekvat qorunması üçün yetərli sayılmayıb. Xüsusən də, iş üzrə cinayət araşdırmasında gecikmələrin baş verdiyi və prokuror tərəfindən istintaqın dayandırılması barədə qərar qəbul edildiyi bildirilir.

# Ədalətli məhkəmə araşdırması hüququ (Konvensiyanın 6-cı maddəsi)

## D.M.D. Rumıniyaya qarşı (№ 23022/13)

**oktyabr 2012**

Bu şikayət ərizəçi tərəfindən atasına qarşı verilməklə ərizəçinin atasının məişət zorakılığına yol verməsi iddiası ilə əlaqədardır. Sözügedən iş üzrə məhkəmə çəkişməsi səkkiz ildən artıq müddət ərzində davam edib və ataya öz övladına qarşı fiziki və mənəvi zorakılığa yol vermə ittihamı ilə nəticələnib. Ərizəçi şikayət edib ki, məhkəmə icraatı səmərəli olmayıb və ona dəymiş zərərin ödənilməsi təmin edilməyib. Xüsusən də zərər çəkmişə dəymiş mənəvi zərərə

görə təzminatın ödənilməsi ilə bağlı müraciət etdiyi yerli son instansiya məhkəmələritərəfindən müəyyən edilmişdir ki, onlar təzminat məsələsinin araşdırılmasına baxmalı deyillər, belə ki, nə o, nə də dövlət ittihamçısı (prokuror) daha aşağı instansiya məhkəmələriqarşısında bu tələbi qaldırmamışdır.

Məhkəmə qərara alıb ki, sui-istifadə ittihamları ilə başlanan istintaq prosesinin çox uzun çəkməsi və digər ciddi nöqsanlarla müşayiət olunması nəticəsində Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi) **pozulması** halı baş vermişdir. Bu baxımdan, üzv Dövlətlərin uşaqların şərəf və ləyaqətinin qorunması üçün səy göstərmələrini və praktik olaraq, uşaqların məişət zorakılığı hallarına qarşı qorunmasıüçün adekvat hüquqi çərçivənin tələb edildiyini xüsusilə qeyd edib. Məhkəmə bu qərarında  həmçinin qeyd edib ki, yerli məhkəmələr tərəfindən ərizəçinin təzminat ödənilməsi barədə şikayətinə baxılmaması nəticəsində Konvensiyanın **6-cı maddəsinin 1-ci bəndinin** (Ədalətli məhkəmə araşdırması hüququ) pozulması baş verib, yerli qanunvericilikdə açıq-aydın şəkildə ifadə olunmasına baxmayaraq, onlar hətta zərərçəkmişin rəsmi tələbi olmadan belə, azyaşlı uşaqların işi üzrə təzminat məsələsində qərar qəbul etmək öhdəliyi daşıyır.

## Şəxsi və ailə həyatına hörmət hüququ  (Konvensiyanın 8-ci maddəsi)
## Uşağın zorakı davranışdan qorunması

### Y.C. Birləşmiş Krallığa qarşı (№ 4547/10)

**13 mart 2012**

Bir neçə ildir bir yerdə yaşayan ərizəçi və onun partnyorunun 2001-ci ildə övladları dünyaya gəlir. 2003-cü ildə spirtli içkinin təsiri ilə partnyorlar arasında yaranan insident sosial xidmət orqanlarının diqqətini cəlb edib. Sonrakı vaxtlar ərzində məişət zorakılığı və alkoqol aludəçiliyi ilə müşayiət edilən insidentlər baş vermiş, 2007-ci ilin sonlarından bu cür insidentlərin sayı artaraq bir neçə dəfə polisin evə çağırılması ilə nəticələnmişdir. Valideynlər arasında  baş verən zorakı münaqişə oğlanın xəsarət alması ilə nəticələnmiş və 2008-ci ilin iyununda yerli orqanlar təcili müdafiə orderi əldə etmişlər. Uşağa qayğı prosesinin nəticəsiolaraq uşağın övladlığa verilməsinə icazə verildi. Ərizəçi şikayət edib ki, məhkəmənin onun oğlunun yeganə baxıcısı kimi tanınması barədə qərarı qəbul etməkdən imtina etməsi vəuşağın yerləşdirilməsinə dair sərəncam verildikdə bütün vacib faktları nəzərə almaması Konvensiyanın 8-ci maddəsi üzrə (şəxsi və ailə həyatı) hüquqların pozulmasına səbəb olub.

Məhkəmə, uşağın yerləşdirmə göstərişi ilə bağlı qərarın səbəblərinin məqsədəmüvafiq və yetərli olduğunu və ərizəçiyə öz işini təqdim etməsi və qərar qəbuletmə prosesindəfəal iştirak etməsi üçün hər cür imkan yaradıldığını əsas gətirərək, Konvensiyanın **8-ci maddəsinin** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulmadığına** dair qərar qəbul edib.Məhkəmə xüsusilə də iş üzrə toplanan materialları və hesabatları, habelə ərizəçinin atası iləəlaqəsinin bərpasının uşağın

rifahı üçün təhlükə yarada biləcəyi ehtimalını nəzərə alaraq, Dairə Məhkəməsi hakiminin qəbul etdiyi qərarın əsassız olmadığı qənaətinə gəlib. Müvafiq olaraq, mümkün olduğu halda onun və ya onun ailə əlaqələrinin uşağın ən yaxşı maraqlarına xidmət etməsi üçün saxlanılmasının vacibliyini nəzərə alaraq, buradan belə məlum olur ki, uşağın təhlükəsiz mühitdə inkişafının təmin edilməsi ehtiyacı daha vacib əhəmiyyət kəsb edir. Bu baxımdan Məhkəmə, spirtli içki aludəçiliyinə son qoymaq və valideynlik işinə yardım edilməsi istiqamətində köməklik göstərilməsi ilə ailəni yenidən bir araya gəlməsi üçün edilən cəhdləri xüsusilə qeyd etmişdir. Ərizəçi uşağın atasından ayrıldığını bildirdikdə, ona məişət zorakılığından qorunmaq üçün əlavə yardım barədə məlumat verilmişdir. Buna baxmayaraq, məlum olmuşdur ki, o, bu yardımdan istifadə etməmiş və uşağın atası ilə barışmışdır.

### Dövlətin fərdlərin fiziki və mənəvi toxunulmazlığını qorunmasını təmin etmək vəzifəsi

## Bevacqua və S. Bolqarıstana qarşı

**12 iyun 2008**

Əri tərəfindən müntəzəm olaraq fiziki zorakılığa məruz qaldığını iddia edən birinci ərizəçi, üç yaşlı oğlunu (ikinci ərizəçi) özü ilə birlikdə götürərək yoldaşını tərk edib və boşanma (nikahın pozulması) üçün məhkəməyə müraciət edib. Bununla belə o, əri tərəfindən davamlı olaraq döyüldüyünü bildirirdi. O, oğlu ilə birlikdə zorakılıq qurbanı olan qadınlar üçün nəzərdə tutulan sığınacaqda dörd gün qalmış, lakin ona oğlunu oğurladığına görə cinayət məsuliyyətinə cəlb edilə bilmə ehtimalı barədə xəbərdarlıq edildiyi bildirildiyindən uşaq üzərində birgə qəyyumluq məsələsinə məhkəmə qaydasında baxılmış, lakin qadının dediyinə görə onun əri məhkəmənin bu qərarını yerinə yetirməmişdir. Fiziki zorakılığa məruzqaldığına görə ərinə qarşı irəli sürdüyü ittihamlar sonrakı zorakılıq hallarının baş verməsinə səbəb oldu. Onun müvəqqəti qəyyumluqla bağlı müraciətləri prioritet kimi qəbul edilməmiş və yalnız bir ildən artıq müddət keçdikdən sonra ona qəyyumluq etmək hüququ verilmişdir. Növbəti ildə o, öz keçmiş əri tərəfindən yenidən döyülmüş və zərərçəkmiş şəxsin cinayət təqibinin həyata keçirilməsi ilə bağlı müraciətləri, şikayətin "şəxsi məsələ" olduğunu və yalnız məhkəmə tərəfindən xüsusi ittiham qaydasında baxılmalı olduğunu əsas gətirilərək rədd edilmişdir.

Məhkəmə, yerli məhkəmələr tərəfindən ərizəçilərə mənfi təsir edən vəziyyətlərdə müvəqqəti saxlama tədbirlərinin gecikdirilmədən qəbul edilməməsinin ümumi təsirlərini və ən başlıcası, ikinci ərizəçinin rifahını, habelə birinci ərizəçinin keçmiş ərinin davranışına reaksiya ilə bağlı hakimiyyət orqanları tərəfindən eyni dövrdə həyata keçirilən tədbirlərin yetərli olmamasınnəzərə alaraq, Konvensiyanın **8-ci maddəsinin** (ailə həyatına hörmət hüququ) **pozulması** faktını müəyyən etmişdir. Məhkəmənin fikrincə, bu, şəxsi və ailə həyatına hörmətin təmin edilməsi üçün dövlətin Konvensiya çərçivəsində nəzərdə tutulan (Konvensiyanın 8-cimaddəsi) pozitiv öhdəliklərinə və ictimai maraqlarına zidd olaraq ərizəçilərə zəruri yardımıngöstərilməməsinə gətirib çıxarmışdır. Məhkəmə xüsusilə vurğulamışdır ki, mübahisənin xarakterinin "şəxsi məsələ" olması hakimiyyətin ərizəçilərin ailə həyatının qorunmasıöhdəliyi ilə uyğun gəlmir.

## A. Xorvatiya hökumətinə qarşı (55164/08 saylı iş)

**14 oktyabr 2010**

Ərizəçinin keçmiş əri (travma sonrası stres pozğunluğu, paranoya, psixoloji narahatlıq və epilepsiya xəstəliyindən əziyyət çəkən), iddiaya görə, ona qarşı uzun illər ərzində müxtəlifdərəcəli bədən xəsarətləri ilə nəticələnən fiziki zorakılıq hərəkətləri törətmiş, ölümlə hədələmiş və azyaşlı qızlarının qarşısında daimi olaraq təhqir etmişdir. Ərizəçi gizləndikdənsonra, əri tərəfindən təqib və ya narahat edilməsinin qarşısını almaq üçün məhkəmədən qoruma tədbirlərinin görülməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir. Ərizəçinin həyatı üçün biləvasitə potensial riskin olmadığını əsas gətirərək məhkəmə bu müraciəti nəzərə almamışdır.

Məhkəmə müəyyən etmişdir ki, ərizəçinin müdafiə edilməsi və ya onun keçmiş ərinin zorakıdavranışlarına səbəb olan psixi problemlərin həllinə istiqamətlənmiş bir çox məhkəmə qərarlarının Xorvatiya hakimiyyət orqanları tərəfindən yerinə yetirilməməsi Konvensiyanın **8-ci Maddəsinin** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulmasına** səbəb olmuşdur. Onun psixi müalicə alıb almadığı da məlum deyil. Məhkəmə, ərizəçinin Konvensiyanın **14- cü maddəsi üzrə** (ayrı-seçkiliyin qadağan edilməsi) **şikayətini**, xüsusilə də, Xorvatiyada məişət zorakılığına qarşı qəbul edilmiş tədbirlərin və ya praktikaların və ya həmin tədbirlərin və hüququ praktikaların təsirlərinin ayrı-seçkiliyə səbəb olduğunu sübuta yetirmək üçün yetərli dəlillər (məsələn, hesabat və statistik məlumatlar) təqdim edilmədiyinə görə **qəbuledilməz** elan edib.

## Hajduovà Slovakiyaya qarsı

**30 noyabr 2010**

Ərizəçi, xüsusilə də yerli hakimiyyət orqanlarının, onun keçmiş ərinin təhqir və hədələmə ittihamı ilə cinayət mühakiməsinin ardınca psixiatriya müəssisəsində müalicəyə cəlb olun ması üçün saxlanılmasını təmin etmək üçün öz rəsmi öhdəliklərini yerinə yetirmədikləri barədə şikayət edib.

Məhkəmə qərara alıb ki, ərizəçinin keçmiş ərinin zorakı davranışına cavab olaraq görülən təd irlərin yetərsiz olduğu və xüsusən yerli məhkəmələr tərəfindən onun psixiatrik müalicəyə cəlb olunması üçün saxlanılmasına dair qərar verilməməsi **dövlətin 8-ci maddə** (şəxsi və ailə həyatına hörmət hüququ) **üzrə pozitiv öhdəliklərinin pozulması** ilə nəticələnib. Xüsusilə də qeyd edilir ki, ərizəçinin keçmiş ərinin ona qarşı davamlı olaraq hədə-qoxu gəlməsi heç vaxt reallaşmasa belə, bu ərizəçinin psixoloji toxunulmazlığına və rifahına mənfi təsir göstərməsi üçün yetərli olub ki, bu da dövlətin Konvensiyanın 8-ci maddəsi üzrə pozitiv öhdəliklərinin yaranmasına səbəb olub.

## Kalucza Macarıstan hökumətinə qarşı

**24 aprel 2012**

Ərizəçi öz iradəsinə zidd olaraq mənzilini vətəndaş nikahı ilə yaşadığı zorakı davranış nümayiş etdirən əri ilə bölüşmək məcburiyyətində qalmış, sözügedən mənzil üzərində isə mülkiyyət hüququ ilə bağlı çoxsaylı mülki mübahisələrə baxılmışdır. O, xüsusilə də onun öz evində mütəmadi olaraq fiziki və psixoloji zorakılıqdan müdafiə edilməsi məqsədilə Macarıstanın hakimiyyət orqanlarının tədbir görmədiyini iddia etmişdir.

Məhkəmə iş üzrə yekun olaraq Macarıstan dövlət orqanlarının Konvensiyanın **8-ci maddəsinin** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulması** ilə nəticələn üzərlərinə düşənpozitiv öhdəlikləri yerinə yetirməməsi barədə qərar qəbul edib. Məhkəmə həmçinin qeyd edib ki, ərizəçinin öz ərinə qarşı fiziki zorakılıq ittihamları üzrə cinayət məsuliyyətinə cəlb olunması üçün şikayətlər etmiş, ona qarşı məhdudlaşdırıcı qərarların çıxarılması məqsədilədəfələrlə müraciət etmiş və ərinin evdən çıxarılmasını mülki icraat müstəvisinə çıxartmışdır, lakin bununla belə, onun zorakılıqdan effektiv qorunması üçün aidiyyəti qurumlar tərəfindənhəyata keçirilən tədbirlər qeyri-qənaətbəxş hesab olunur.

### Ayrı-seçkiliyin qadağan edilməsi (Konvensiyanın 14-cü maddəsi)

## Opuz Türkiyəyə qarşı

**9 iyun 2009**

Ərizəçi və anası uzun illər ərzində, əri tərəfindən fiziki zorakılığa məruz qalmış və hədə-qorxu və təzyiq altında yaşamaq məcburiyyətində qalmışlar. Hətta bəzi hallarda onlara həyat üçün təhlükəli olan ağır bədən xəsarətləri də yetirmişdir. Yalnız bir hal istisna olmaqla, həm ərizəçi, həm də anası ərinin onu və anasını təzyiqlərə məruz qoyduğunu və öldürməklə hədələdiyini öz izahatlarında qeyd etmələrinə baxmayaraq, hər ikisi şikayət ərizələrini geri götürüblər və nəticədə zorakılıq törədən şəxsə qarşı heç bir rəsmi ittiham irəli sürülməyib. Daha sonra o, həyat yoldaşına bıçaqla yeddi dəfə zərbə endirib və bu əməlinə görə məhkəmətərəfindən təxminən 385 avroya bərabər məbləğdə pul cəriməsi kəsilib ki, həmin məbləğində hissə-hissə ödənilməsinə icazə verilib. Hər iki qadın həyatlarının təhlükədə olması iddiası ilə çoxsaylı şikayət ərizələri vermişlər. Ərizəçinin əri dindirildikdən sonra sərbəst buraxılıb. Nəhayət, hər iki qadın ondan uzaqlaşmağa çalışdıqda, ərizəçinin əri mübahisə zəminində onun şərəf və ləyaqətinin alçaldığını əsas gətirərək öz qayınanasını odlu silahla qətlə yetirib. O, qətl törətməkdə təqsirli bilinərək ömürlük həbs cəzasına məhkum edilmiş, lakin ərizəçinin həyat yoldaşı tərəfindən ona qarşı təhdidlərə davam etməsi barədə iddialarına baxmayaraq, apellyasiya şikayətinə baxılmasına qədər sərbəst buraxılmışdır.

Məhkəmə qərara alıb ki, ərizəçinin anasının qətlə yetirilməsi ilə bağlı Konvensiyanın **2-ci maddəsinin** (Yaşama hüququ) və aidiyyəti dövlət orqanları tərəfindən iddiaçının həyat və sağlamlığının qorunması üçün zəruri tədbirlərin görülməməsi ilə bağlı Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan edilməsi) **pozulması** baş vermişdir. Həmçinin, Türkiyə Hökumətinin məişət zorakılığı ilə bağlı əməllərin törədilməsinə görə cəzalandırma və qurbanların qorunması üçün hüquqi mexanizmin yaradılması və tətbiq edilməsini təmin etmədiyi müəyyən edilmişdir. Dövlət orqanları hətta mövcud müdafiə tədbirlərindən belə istifadə etməyib və şikayətlər üzrə işlərin icraatına "ailədaxili məsələ" hesab edərək və şikayətlərin hansı səbəblərdən geri götürülməsini araşdırmadan xitam verilməsinə qərar veriblər. Ərizələrin şikayətçilər tərəfindən geri götürülüb-götürülməməsindən asılı olmayaraq, cinayət işlərinin (cinayət icraatı) qaldırılmasına imkanverən hüquqi mexanizm mövcud olmalıdır.

Məhkəmə həmçinin məişət zorakılığı ilə bağlı işdə ilk dəfə olaraq - Konvensiyanın **14- cü maddəsinin** (ayrı-seçkiliyin qadağan edilməsi) **2-ci və 3-cü maddələri ilə birlikdə pozulduğu** qənaətinə gəlib: həmçinin qeyd edilir ki, məişət zorakılığı hallarına əsasən qadınların məruz qaldığı və Türkiyənin ədalət mühakiməsi sistemində ayrı-seçkilik yaradan passivlik məişət zorakılığı ilə bağlı halların daha çox artmasına zəmin yaradır. Ərizəçinin və anasının məruz qaldıqları zorakılıq buna görə də gender əsaslı və qadınlara qarşı ayrı-seçkiliyə səbəb olan hüquq pozuntusu hesab edilə bilər. Türkiyə hökumətinin son illərdə həyata keçirdiyi islahatlara baxmayaraq, ərizəçinin işində olduğu kimi, ədalət mühakiməsi (məhkəmə) sisteminin ümumi passivliyi və təcavüzkarların cəzasızlıq mühitindən yararlanması, hakimiyyət orqanları tərəfindən məişət zorakılığına qarşı mübarizə tədbirlərinin görülməsini təmin etmək üçün yetərsiz olduğunu göstərir.

## Eremia və digərləri Moldova Respublikasına qarşı

**28 may 2013**

Birinci ərizəçi və iki qızı Moldova hakimiyyət orqanları tərəfindən polis əməkdaşı olan ərinin və uşaqların atasının, zorakı və təhqiramiz davranışlarından qorunmasını təmin edə bilməməsi barədə şikayət edib.

Məhkəmə birinci ərizəçiyə münasibətdə Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani vəalçaldıcı rəftarın qadağan edilməsi) **pozulması** halı baş verdiyini müəyyən edib, belə ki, aidiyyəti dövlət orqanları onların vəziyyətindən xəbərdar olduqları halda, ərizəçini ərinin gələcək zorakı hərəkətlərindən qorumaq üçün səmərəli tədbirləri görməyiblər. Bundan əlavə, onların qızları ilə bağlı Konvensiyanın **8-ci maddəsinin** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulması** baş verib, belə ki, ataları tərəfindən analarına qarşı birgə yaşadıqları evlərində zorakı davranışın biləvasitə şahidi olmalarının mənfi psixoloji təsirlərininəzərə alaraq belə davranışın təkrarlanmasının qarşısını almaq üçün heç bir qabaqlayıcı tədbir görülməyib və yaxud görülən tədbirlər qeyri-qənaətbəxş hesab edilib. Ən nəhayət, məhkəmə qərara alıb ki, hakimiyyət orqanları tərəfindən ərizəçinin məişət zorakılığından

qorunması üçün effektiv tədbirlərin görülməməsi və ya belə tədbirlərin görülməsinin gecikdirilməsindən əlavə birinci ərizəçi ilə bağlı **3-cü maddə** ilə birlikdə Konvensiyanın **14-cü maddəsinin** (ayrı-seçkiliyə qadağa qoyulması) **pozulması** baş verib, belə ki, bu cür zorakı əmələ lazımi qiymət verilməmiş və birinci ərizəçiyə qarşı bir qadın kimi ayrı seçkilik nümayiş etdirilmişdir. Məhkəmə bu mənada qeyd edib ki, BMT-nin qadınlara qarşı zorakılıqməsələləri üzrə xüsusi məruzəçisinin hesabatında qadınlara qarşı məişət zorakılığı halları, onların səbəb və nəticələri ilə bağlı gəldiyi qənaətlər yalnız Moldova Respublikası hakimiyyət orqanlarının məişət zorakılığı probleminin ciddiliyini və miqyasını, o cümlədən qadınlara qarşı ayrı-seçkilik münasibətinin təsirlərini ciddi qəbul etmədikləri barədə təəssüratın formalaşmasına xidmət etmişdir.

*Həmçinin baxın:* **B. Moldova Respublikasına qarşı (61382/09 saylı)** və **Mudric Moldova Respublikasına qarşı**, 16 iyul 2013-cü il tarixli məhkəmə qərarları; **N.A. Moldova Respublikasına qarşı (13424/06 saylı)**, 24 sentyabr 2013-cü il tarixli qərar; **T.M. və C.M. Moldova Respublikasına qarşı**, 28 yanvar 2014-cü il tarixli qərar.

## M.G. Türkiyəyə qarşı (№ 646/10)

**22 mart 2016**

Bu iş ərizəçinin evlilik dövründə yaşadığı məişət zorakılığı, boşanma və sonrakı məhkəmə proseslərinin davam etdiyi dövrlərdə ona qarşı əri tərəfindən edilən hədə-qorxularla əlaqədardır. Xüsusən, ərizəçi onun məruz qaldığı zorakılığın qarşısını ala bilməyən yerli orqanları tənqid edib. O, həmçinin Türkiyədə mütəmadi olaraq və sistemli şəkildə qadınlaraqarşı baş verən zorakılıq halları ilə bağlı ayrı-seçkilikdən şikayət edib.

Məhkəmə qərara alıb ki, Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya alçaldıcı rəftarın qadağan olunması) **pozulması** baş verib və buradan da belə bir qənaətə gəlinir ki,Türkiyə hakimiyyətinin cinayət işi üzrə apardığı icraatın (cinayət-prosessual hərəkətlərin) Konvensiyanın 3-cü maddəsinin tələblərinə uyğun gəlmədiyi hesab edilir. O, xüsusilədə qeyd edib ki, hakimiyyət bu işə passiv münasibət göstərib ki, belə ki, cinayət işinin açılmasının beş il altı ay gecikməsi ilə nəticələnib, hətta ərizəçi həyat yoldaşından şikayət etdikdən sonra belə, təqsirkarın cinayət məsuliyyətinə cəlb olunması üçün cinayət təqibi üzrə icraatın hələ də aparıldığı görünür. Bu halda məhkəmə Konvensiyanın **3-cü maddəsi də daxil olmaqla** Konvensiyanın **14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan edilməsi) **pozulduğunu** müəyyən etmiş və boşanma (nikahın pozulması) elan edildikdən sonra (24 sentyabr 2007-ci il tarixində) və 20 mart 2012-ci il tarixində yeni qanunun (6284 saylı) qüvvəyə minmə dövrünədək, qüvvədə olan qanunvericiliyin ərizəçinin (boşanma üçün ərizə ilə müraciət etmiş şəxsin) müdafiə tədbirlərindən istifadə etməsini təmin etmədiyi və uzun illər ərzində yerli məhkəmələrə müraciət etməsinə baxmayaraq, keçmiş ərinin kobud və zorakı davranışı ilə qorxu və təhdid altında yaşamağa məcbur olduğu qənaətinə gəlmişdir.

## Halime Kılıç Türkiyəyə qarşı

**28 iyun 2016**

Bu iş ərizəçinin əri tərəfindən qətlə yetirilmiş ərizəçinin qızının ölümü ilə əlaqədardır, baxmayaraq ki, ərizəçi bununla əlaqədar dörd şikayət edib və zərərçəkmişin müdafiəsi haqqında üç məhkəmə qətnaməsinin çıxarılmasına nail olub.

Məhkəmə Konvensiyanın **2-ci maddəsinin** ("Yaşama hüququ") və **2-ci maddə ilə birlikdə 14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan olunması) **pozulmasını** müəyyən etmişdir. Xüsusən, yerli məhkəmə icraatının ərizəçinin qızının qorunmasının təmin edilməsi ilə bağlı Konvensiyanın 2-ci maddəsinin tələblərinə cavab vermədiyi müəyyən edilmişdir. Ərizəçininərinə qarşı verilən qərarların icrasını təmin etməməklə, milli hakimiyyət orqanları çıxarılmış qərarların səmərəsizliyinə zəmin yaratmış, beləliklə də cəzasızlıq mühiti yaradaraq, əri heç bir məsuliyyətə cəlb etməməklə ərizəçiyə qarşı təkrarən zorakılığın yol verilməsinə şərait yaratmışdır. Ərinin zorakı davranışına məruz qaldıqda ərizəçinin qızının köməksiz qalması məhkəmə tərəfindən qəbuledilməz hal kimi müəyyən edilmiş, həmçinin, zərərçəkmişə qarşı təkrarən baş verən zorakılıq əməlləri və ölüm hədələrinə göz yummaqla hakimiyyət orqanları məişət zorakılığının baş verməsi üçün əlverişli zəmin yaradıblar.

## Bălşan Rumıniyaya qarşı

**23 may 2017**

Ərizəçi, verdiyi çoxsaylı şikayətlərə baxmayaraq hakimiyyətin onu *həyat yoldaşı tərəfindən* mütəmadi olaraq *fiziki zorakılığa məruz* qalmaqdan qoruya bilmədiyini, ərinin məsuliyyətə cəlb olunmasının təmin edilmədiyini iddia etmişdir. O, həmçinin hakimiyyətin ona qarşı törədilən bu cür zorakılıq əməllərinə dözümlü münasibət nümayiş etdirməsi nəticəsində özünü daha alçaldılmış, köməksiz və müdafiəsiz hiss etdiyini bildirmişdir.

Məhkəmə müəyyən etmişdir ki, ərizəçinin əri tərəfindən zorakılığa məruz qalması faktı ilə bağlı hakimiyyətin lazımi müdafiə tədbirləri görməməsi səbəbindən Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan edilməsi) və Konvensiyanın **14-cü maddəsinin** (ayrı-seçkiliyin qadağan edilməsi) **pozulması** baş vermişdir və bu halda zorakılığın gender əsaslı olması Konvensiyanın **3-cü maddəsi ilə əlaqədar baxılmalıdır.** Məhkəmə ərizəçinin əri tərəfindən döyüldüyünü və zorakılığa məruz qaldığını, habelə zərərçəkmişin həm polisə, həm də məhkəmə orqanlarına yardım üçün dəfələrlə etdiyi çağırışları nəzərə alaraq, aidiyyəti dövlət orqanlarının bu hadisədən xəbərdar olmalı olduğunu xüsusilə qeyd edib. Bundan başqa, Rumıniyada məişət zorakılığından şikayət etmək və zərərçəkmişin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri müdafiə tədbirlərinin görülməsi ilə bağlı səlahiyyətli orqanlara müraciət etmək (hansı ki, şikayətçi bu hüquqi müdafiə vasitələrindən tam istifadə etmişdir) üçün mövcud qanunvericilik bazasının olmasına baxmayaraq, hakimiyyət orqanları onun işi ilə bağlı qanunvericiliyin müvafiq müddəalarını tətbiq etməmişlər. Hakimiyyət

orqanları hətta ərizəçinin ona qarşı törədilən əməllərə özünün səbəb olduğunu və törədilən əməllərin cinayət qanunvericiliyinin təsir dairəsində az əhəmiyyətli hüquq pozuntusu olduğu qənaətində olmuşlar. Belə bir yanaşma milli qanunvericilik bazasını onun ali məqsədlərindən uzaqlaşdırıb və qadınlara qarşı zorakılığa dair müvafiq beynəlxalq standartlara və prosedurlara zidd olub. Həqiqətən də hakimiyyətin sözügedən işdə nümayiş etdirdiyi passivliyi ərizəçiyə bir qadın kimi ayrı-seçkilik münasibətini əks etdirmiş və ümumilikdə Rumıniyada məişət zorakılığının qarşısının alınması ilə bağlı hökumətin cəmiyyət qarşısında öhdəliyinin mövcud olmadığını göstərmişdir.

# İSTİNADLAR


1. Beijing Declaration and Platform for Action. Fourth World Conference on Women, Beijing 1995 (un.org)
2. OHCHR | Convention on the Elimination of All Forms of Discrimination against Women
3. THE 17 GOALS | Sustainable Development (un.org)
4. İstanbul Convention Action against violence against women and domestic violence/ Home (coe.int
5. CETS 197 - Council of Europe Convention on Action against Trafficking in Human Beings (coe.int)
6. Lanzarote Convention (coe.int)
7. Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı
8. Council of Europe Gender Equality Commission. 2013. Feasibility Study: Equal Access to Justice for Women
9. CEDAW/C/GC/33, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə komitəsinin 23 iyun 2015-ci il tarixili 33 saylı tövsiyəsi
10. Dr Şazia Çoudri. Qadınların ədalət mühakiməsinə çıxişiı praktik hüquqşünaslar üçün bələdçi.
11. COUNCIL OF EUROPE GENDER EQUALITY STRATEGY 2014-2017. 09000016806ccff3 (coe.int)
12. COUNCIL OF EUROPE GENDER EQUALITY STRATEGY 2018-2023. 16808b47e1 (coe.int)
13. http://www.coe.int/en/web/genderequality/tallin-conference/
14. ES215836_PREMS 041318 GBR Gender Equality Strategy 2023 WEB.pdf (coe.int)
15. Ədalət Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası, “Avropa məhkəmə sistemləri – Ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyəti”, Ədalət mühakimısinin səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) araşdırmaları. №23, 2016-cı il nəşri (2014-cü ilin məlumatları)
16. Стратегия ПРООН по обеспечению гендерного равенства на 2018–2021 годы. pdf (undocs.org)
17. Azərbaycanda qadınların ədalət mühakiməsinə çıxışı üçün maneələr, hüquqi müdafiə vasitələri və ən yaxşı təcrübələr. 16808e9a28 (coe.int)
18. Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitənin Ümumi Tövsiyələrinin Seçmə Toplusu. Microsoft Word - Buklet 3 1 updated+ (un.org)
19. Qadınlara Qarşı Gender Zorakılığı Haqqında 35 saylı Ümumi Tövsiyə. Treaty bodies Download (ohchr.org)
20. AİHM-nin “Bevakua və S. Bolqarıstana qarşı (Bevacqua and S. v. Buklgaria) (2008)”
21. Элизабет Дюбан. Исследование по вопросам предотвращения и борьбы с насилием в отношении женщин и домашним насилием, в том числе в ситуациях социального неблагополучия, в Российской Федерации.

22. Məişət zorakılığının yayılma səviyyəsinin və onu törədən səbəblərin monitorinqi çərçivəsində ailə, qadın və uşaq problemləri üzrə dövlət komitəsinə ünvanlanmış müraciətlər əsasında araşdırmaya dair hesabat. 2021.
23. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. Bakı, 2003
24. "Sağlamlığa zərər vurmanın məhkəmə-tibbi ekspertizası qaydaları". Sağlamlığa zərər vurmanın məhkəmə-tibbi ekspertizası qaydaları | De Jure
25. Отчет Проекта "Правовая инициатива" по теме "Насилие в отношении женщин в Российской Федерации". srji.org
26. Recommendation Rec(2002)5 of the Committee of Ministers to member states on the protection of women against violence. COUNCIL OF EUROPE (coe.int)
27. The role of civil society in the development of victims' rights and delivery of victims' services. Role of NGOs in providing victim support _ FINAL_27112018_clean (mdtfjss.org.rs)
28. TrainingManualAccessJustice_EN.pdf (ohchr.org)
29. Avropa Şurası (2017), Hakimlər və prokurorlar üçün qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsi üzrə tədris vəsaiti. Ümumi hissə. 16807626a5 (coe.int)
30. Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi Komitəsi (2015), Qadınların ədalət mühakiməsinə çıxışına dair 35 saylı Ümumi tövsiyə.
31. Учебное руководство для судей и прокуроров по обеспечению доступа женщин к правосудию. 16807626a5 (coe.int)
32. Qadinların ədalət mühakiməsinə çıxışı: praktik hüquqşünaslar üçün bələdçi. 16809c8283 (coe.int)
33. Qadinların ədalət mühakiməsinə çatımlılıq mövzusunda mentorluq proqramının hazırlanmasina dair hüquqşünaslar üçün bələdçi.

    A4_AZE_version_Methodology_16072020 (coe.int)
34. Əmək bazarı | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.
35. 2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası.

# Qeydlər

## Qeydlər

# Qeydlər

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi
Ünvan: AZ 1000, Bakı şəhəri, Ü.Hacıbəyli 80, Hökumət Evi, IV Qapı
Tel: (+994 12) 498 00 92
Faks: (+994 12) 493 58 72
E-mail: office@scfwca.gov.az

https://twitter.com/AileQadinUsaq

https://www.instagram.com/aileqadinusaq/

https://www.facebook.com/AileQadinUsaqProblemleriUzreDovletKomitesi/

Tədqiqat işi Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında ekspert Abil Bayramov tərəfindən hazırlanmışdır.

Kağız formatı 60×84 $^{1}/_{8}$.
Fiziki çap vərəqi 8,5. Tiraj 70. Sifariş 101.
“Letterpress” Nəşriyyat Evində çap olunmuşdur.